# ORTAQ TÜRK TARİXİ 8

Ən qədim dövrlərdən XV əsrə qədər

DƏRS VƏSAİTİ



ORTAQ TÜRK TARİXİ 8 DƏRS VƏSAİTİ





# Azərbaycan Respublikasının Dövlət Himni

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

**Darxan KIDIRƏLİ**
**Qaybulla BABAYAR**

*Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün*

# ORTAQ TÜRK TARİXİ

kursu üzrə

## dərs vəsaiti

**(Ən qədim dövrlərdən XV əsrə qədər)**

**© Beynəlxalq Türk Akademiyası, 2023**

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Lisenziya ilə bağlı ətraflı məlumat
aşağıdakı linkdə (ingilis dilində) verilir:
https://creativecommons.org/licenses/by-nc-sa/4.0/

*Bu dərs vəsaiti Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Zirvə görüşü qərarına uyğun olaraq Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin təhsil nazirlikləri tərəfindən razılaşdırılmışdır.*

*Dərs vəsaiti Beynəlxalq Türk Akademiyası tərəfindən hazırlanmışdır.*

# MÜNDƏRİCAT

Ön söz ....................................................................................................5

## I BÖLMƏ
## TÜRK DÜNYASI BƏŞƏR TARİXİ KONTEKSTİNDƏ

1. Türk xalqlarının dünya tarixində yeri ..............................................8
2. Türk dilləri ...........................................................................................9
3. "Türk" adının mənası .........................................................................12
4. Türk xalqlarının yayıldığı coğrafiya ...................................................13
5. Türk xalqlarının ilk ulu vətəni ...........................................................14
6. Türk xalqlarının köç etməsinin (miqrasiya) səbəbləri və nəticələri....................15
7. Mərkəzi Asiyanın ən qədim mədəniyyətləri .......................................16
8. Prototürklər ........................................................................................18
9. Sakların iqtisadiyyatı, ictimai həyatı və mədəniyyəti ...........................19

## II BÖLMƏ
## HUN İMPERİYALARI VƏ SONRAKI TÜRK DÖVLƏTLƏRİ

1. Asiya hunlarının imperiyası ................................................................23
2. Usunların dövləti .................................................................................25
3. Qədim qırğızlar ...................................................................................26
4. Kanquy dövləti ....................................................................................26
5. Parkana (Davan) dövləti .....................................................................27
6. Kuşan imperiyası ................................................................................28
7. Avropa Hun imperiyası .......................................................................30
8. Cənub hunlarının dövləti .....................................................................31
9. Ağ Hun (Eftallar) dövləti .....................................................................32
10. Jujan imperiyası ................................................................................34
11. Hun imperiyalarının və sonrakı türk dövlətlərinin dövründə
iqtisadiyyat və mədəniyyət .....................................................................34

## III BÖLMƏ
## TÜRK XAQANLIQLARI

1. Göytürk xaqanlığı ...............................................................................38
2. Avar xaqanlığı .....................................................................................42
3. Xəzər xaqanlığı ...................................................................................43
4. Türkeş xaqanlığı ..................................................................................45
5. Uyğur xaqanlığı ...................................................................................46
6. Koço Uyğur dövləti .............................................................................48
7. Qarluq Yabqu dövləti ..........................................................................49

8. Qırğız xaqanlığı ....................................................................................50
9. Kimak və Qıpçaq dövlətləri ....................................................................52
10. Qədim türk dövlətlərinin sosial, iqtisadi və mədəni həyatı....................55

## IV BÖLMƏ
## İLK TÜRK-MÜSƏLMAN DÖVLƏTLƏRİ

1. Mərkəzi Asiyada islamın yayılması .......................................................59
2. Oğuz Yabqu dövləti..................................................................................60
3. Qaraxanlı xaqanlığı ..................................................................................62
4. Sacilər (Sacoğulları) dövləti ...................................................................68
5. Volqa Bulqar dövləti ...............................................................................70
6. Qəznəvilər dövləti ...................................................................................71
7. Böyük Səlcuqlu dövləti............................................................................73
8. Azərbaycan Atabəylər (Eldənizlər) dövləti ............................................77
9. Xarəzmşahlar dövləti ...............................................................................81
10. İlk türk-müsəlman dövlətlərində sosial, iqtisadi və mədəni həyat.........83

## V BÖLMƏ
## TÜRK-MONQOL DÖVLƏTLƏRİ

1. Monqol imperiyası ...................................................................................89
2. Qızıl Ordu dövləti ...................................................................................90
3. Cığatay dövləti ........................................................................................94
4. Moğolustan dövləti .................................................................................95
5. Elxanilər (Hülakülər) dövləti .................................................................96
6. Xubilay xanın dövləti...............................................................................97
7. Türk-monqol dövlətlərində sosial, iqtisadi və mədəni həyat ................98

## VI BÖLMƏ
## TÜRK DÜNYASI (XIII–XV ƏSRLƏR)

1. Dehli sultanlığı.......................................................................................102
2. Misir Türk-Məmlük dövləti ...................................................................104
3. Osmanlı imperiyası ................................................................................106
4. Teymurilər dövləti .................................................................................114
5. Qaraqoyunlu dövləti...............................................................................123
6. Ağqoyunlu dövləti..................................................................................125

## VII BÖLMƏ
## TÜRK DÜNYASININ ORTAQ MƏNƏVİ VƏ MƏDƏNİ İRSİ

1. Türk xalqlarının ortaq dastanları...........................................................130
2. Türk xalqlarının ortaq mənəvi dəyərləri ...............................................134
3. Türk xalqlarının ortaq maddi mədəniyyəti ...........................................143
4. Türk xalqlarının ortaq milli oyunları ....................................................145

LÜĞƏT ........................................................................................................150
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT .........................................................157

# ÖN SÖZ

Türk dünyası – unikal çöl sivilizasiyasını və inkişaf etmiş şəhər mədəniyyətini yaradaraq bəşər tarixində silinməz iz qoymuş böyük tarixi birlikdir. Türklər qədim zamanlardan Avrasiya məkanında məskunlaşaraq, böyük imperiya və qüdrətli dövlətlər yaradan xalqdır.

1991-ci ildə türk dövlətləri öz müstəqilliklərini əldə etdikdən sonra Türk dünyası məkanında mədəni, siyasi və iqtisadi əlaqələr sürətlə möhkəmlənməyə başladı. Buna müvafiq olaraq, türk ölkələri arasında əməkdaşlığın möhkəmlənməsi və davamlı inkişafı üzrə birgə fəaliyyət göstərilməsinə obyektiv tələbat yarandı. Əsas məsələlərdən biri kimi qarşıda "Ortaq türk tarixi"nin hazırlanması və onun Türk dünyasının təhsil ocaqlarında tədris edilməsi dururdu.

Türk dövlətləri başçılarının 1992-ci il oktyabrın 30-da Ankarada keçirilən görüşündə "Ortaq türk tarixi" dərs vəsaitinin hazırlanması qərara alındı. 1994–1995-ci illərdə qardaş türk dövlətlərinin tarixçiləri ortaq türk mətnlərinin layihəsi üzərində işə başladılar.

2012-ci ilin avqustunda Türk Şurasının Qırğızıstanın paytaxtı Bişkekdə keçirilmiş II Zirvə görüşündə Şuranın üzvləri olan (Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə) dövlət başçıları tərəfindən "Ortaq türk tarixi" kursunun ümumi təhsil müəssisələrində tədrisi haqqında birgə qərar qəbul edildi. Həmin qərar Türk Şurasının 2013-cü ilin avqustunda Qəbələ şəhərində (Azərbaycan) və 2014-cü ilin iyununda Bodrum şəhərində (Türkiyə) keçirilmiş Zirvə görüşündə təsdiq edilmişdir.

2014-cü ildə Türk Şurasının qərarı ilə "Ortaq türk tarixi"nin yazılması məsələsi Beynəlxalq Türk Akademiyasına həvalə olundu. Burada türk dövlətlərinin nümayəndələri – mütəxəssislərdən ibarət işçi qrup yaradıldı.

"Ortaq türk tarixi" kursunun tədrisində məqsəd gənc nəsildə türk xalqlarının ümumi keçmişi, vahid dil və mədəniyyəti haqqında təsəvvür formalaşdırmaq və bununla da onlara Türk dünyasında vəhdətlik və qarşılıqlı hörmət hisslərini aşılamaqdır.

Dərs vəsaitində türk tarixinin qədim zamanlardan XV əsrə qədər olan dövrü əhatə olunur. Burada əsas diqqət türk dövlətləri və sülalələrinin tarixinə yetirilir.

Beynəlxalq Türk Akademiyası tərəfindən hazırlanmış "Ortaq türk tarixi" dərs vəsaiti şagirdlərə tədris üçün tövsiyə olunur. Hər ölkə həmin kursun neçənci sinifdə tədris olunacağını müstəqil müəyyən edir. Vəsait ümumi təhsil üzrə dövlət standartlarına uyğun şəkildə hazırlanaraq Türk Şurası üzvləri olan ölkələrin təhsil nazirlərinə təqdim olunmuş, ekspertizadan keçmiş və layihədə maraqlı olan tərəflərdən müsbət rəy almışdır.

Bununla əlaqədar biz Türk Şurasının üzvləri olan ölkələrin təhsil nazirliklərinə, ekspert qruplarının üzvlərinə, Türk Dövlətləri Təşkilatına və Türk Şurasına təşəkkürümüzü bildiririk.

# TÜRK DÜNYASININ XƏRİTƏSİ




Müstəqil dövlətlər

Muxtar respublika, rayon və ərazi qurumu

Türklərin məskunlaşdığı ərazilər

# I BÖLMƏ

# TÜRK DÜNYASI BƏŞƏR TARİXİ KONTEKSTİNDƏ



## ƏSAS MÖVZULAR

1. Türk xalqlarının dünya tarixində yeri
2. Türk dilləri
3. “Türk” adının mənası
4. Türk xalqlarının yayıldığı coğrafiya
5. Türk xalqlarının ilk ulu vətəni
6. Türk xalqlarının köç etməsinin (miqrasiya) səbəbləri və nəticələri
7. Mərkəzi Asiyanın ən qədim mədəniyyətləri
8. Prototürklər
9. Sakların iqtisadiyyatı, ictimai həyatı və mədəniyyəti

## 1. TÜRK XALQLARININ DÜNYA TARİXİNDƏ YERİ

Türklərin tarixinə dünya tarixinin ümumi kontekstində nəzər saldıqda aydın olur ki, sayı 30-dan artıq olan türk etnosu bütün dövrlərdə Asiya və Avropa əhalisinin xeyli hissəsini təşkil etmişdi və indi də edir. İlk növbədə, məlumdur ki, türk xalqları Avrasiyanın iki qitənin birləşdiyi və bir-birinə keçdiyi geniş bölgəsində yayılmış, burada və bu bölgə ilə qonşu olan ölkələrdə öz parlaq izlərini qoymuşlar. Minilliklər ərzində türklər ayrı-ayrı dillərdə danışan xalqları birləşdirən onlarla müxtəlif dövlət yaratmışlar.

Köçəri atçılığın inkişafı ilə yanaşı, şəhərtipli yaşayış məskənləri də yaranmağa başladı. Bunun sayəsində İpək yolunda ticarət əlaqələri də genişlənirdi.

Türk cəmiyyəti hərəsi bir əcdaddan törəmiş çoxlu sayda tayfadan ibarət idi. Köçəri tayfalar və qonşu xalqlar arasında ittifaqların yaradılması meyilləri mövcud idi. Bu ittifaqlar gələcəkdə qüdrətli dövlətlərin qurulmasına vəsilə oldu.

Əcdadları bir dildə danışmış qohum tayfaların ləhcə fərqləri həm də ona görə yaranmışdı ki, onlar bir-birilərindən uzaqda yaşamışdılar. Lakin dilin qrammatik strukturunun əsası yaxşı saxlanmışdı.

Türklər Asiya, Avropa və Afrika arasında mədəniyyət ötürücüləri rolunu oynamışlar. Bu missiyanı, ilk növbədə, öz malları ilə birgə mədəni dəyərləri də türk sülalələrinin güvənli himayəsi altında Çindən və Hindistandan Şərqi Avropaya, Uzaq Şərqdən Yaxın Şərqə daşıyan tacirlər və başqa ictimai qrupların nümayəndələri həyata keçirmişlər. Bundan əlavə, Avrasiyanın bir başından o biri başına hərəkət edərək yeni torpaqlara yiyələnən və orada öz dövlətlərini quran türklər, bəllidir ki, mütləq mədəni transformasiyaları da özləri ilə gətirmişlər.

Türk xalqları qədim zamanlardan onları əhatə edən qonşu etnoslarla – monqollar, çinlilər, hindlilər, İran və Qafqaz xalqları, yunanlar, slavyanlar, germanlar, fin-uqorlar və Sibirin qədim xalqları ilə mədəni mübadilə və qarşılıqlı əlaqələrdə iştirak etmişlər.

## 2. TÜRK DİLLƏRİ

Geniş bir ərazidə yayılmış türk dilləri və ləhcələri 180 milyona yaxın insanın ana dilidir. Bu dildən ikinci dil kimi istifadə edən insanları da nəzərə alsaq, türk dilinin daşıyıcılarının sayı təxminən 250 milyon nəfər olar.

Bu gün türk dilləri və ləhcələrinin sayı 30-dan artıqdır. Bunlar hazırda istifadə olunan müasir dillər və istifadə olunmayan ölü dillərdir. Danışanların sayına görə birinci yerdə Türkiyə türkcəsi dayanır, ardınca Azərbaycan türkcəsi, özbək, qazax, uyğur, türkmən, tatar və qırğız dilləri gəlir.




*Şək. 1.1. Türk dillərinin yayılma statistikası (diaqramı)*

**TÜRK DİLLƏRİNİN YAYILDIĞI COĞRAFİYA**

Türk dilləri şərqdən qərbə doğru – Uzaq Şərq, Qərbi Çin və Sibirdən Şərqi Avropa və Kiçik Asiyaya (Anadoluya) qədər, şimaldan cənuba doğru – Ural-Volqaboyu və Cənub-Qərbi Sibirdən Şərqi Türküstan, Şimali Əfqanıstan, Şimali İran və Qafqaza qədər yayılmışdır.

Türk dilləri üç böyük qola ayrılır: qıpçaq, oğuz və qarluq dili. Bununla yanaşı, nisbətən az sayda danışanları olan Şimal-şərqi Sibir, Cənubi Sibir türk ləhcələri və müasir çuvaş dilinin əsasını qoymuş oqur (çuvaş) qrupu da var.

Qıpçaq qrupuna aid olan dillərdə qədim türk sözlərinin əvvəlində işlənən *y* səsi *c* səsinə, sözün sonundakı *ğ* samiti *v* samitinə çevrilmişdir. Məsələn, qədim türkcə *yürek* (ürək) sözü *cürek; tağ* (dağ) sözü isə *tav/tau* kimi tələffüz edilir.

Oğuz qrupundakı dillər üçün qədim türk sözlərindəki *k* səsinin *g* səsinə, *t* səsinin isə *d* səsinə çevrilməsi xarakterikdir. Məsələn, qədim türkcədə *kel* (gəlmək) sözü *gəl, tiş* (diş) sözü *diş* kimi tələffüz edilir.

Qarluq qrupundakı dillərdə qədim türk sözləri olduğu kimi qalmış, yalnız fonetik baxımdan dəyişikliyə uğramışdır. Bu qrupa daxil edilən dillərin fərqli xüsusiyyəti sözlərdə bəzi samit səslərin ikiləşməsidir. Məsələn, qədim türk sözü olan *yeti* (yeddi) sözü *yetti; katıg* (bərk, sərt) sözü *kattık* şəklindədir.

Cənubi Sibirin türk ləhcələri ümumən yuxarıda sadalanan üç qrupa yaxındır, lakin bu ləhcələrdə bir çox sözlər arxaik formasını saxlamışdır. Məsələn, əksər türk dillərində işlənən *ayak* sözü tıva dilində *adak,* yakut dilində *atah* şəklindədir, yalnız halaç dilində bu söz *hadak* kimi səslənir.

Oqur qrupunun yeganə canlı təmsilçisi olan çuvaş dili bir çox cəhətdən əksər türk dillərindən fərqli olan qədim bulqar dilinin varisi sayılır. Digər türk dillərində *z* samiti ilə qurtaran sözlərin çuvaşcada *r* samiti ilə bitməsi bu dilə xas olan xüsusiyyətlərdən biridir. Məsələn, qədim türk dilində olan *tokuz* (doqquz) sözü çuvaş dilində *tahar*, *kız* (qız) sözü isə *hır* kimi səslənir.

Digər qohum türk dillərindən uzaq düşmüş bir dil də Şimal-şərqi Sibir sakinləri olan yakutların (saxa) dilidir.

Bu dildə sözün əvvəlində verilən qədim türk samit səsi *y*, bir qayda olaraq, *s* səsinə çevrilir. Məsələn, qədim türk sözü *yıl* (il) yakut dilində *sıl* kimi səslənir.

| Türk dillərinin inkişaf dövrləri |
|---|
| **Prototürk dili:** (bütün müasir türk dillərinin əcdadı qədim dövrdən eramızın IV əsrinədək)<br>**Qədim yazılı türk dilləri:** Orxon türk, qədim uyğur (V–IX əsrlər)<br>**Orta əsr yazılı türk dilləri:** Qaraxanlı, Cığatay (X–XV əsrlər) |
| **Müasir türk dillərinin təsnifatlandırılması** |
| **Qıpçaq qrupu** (şimal-qərb türk dilləri):<br>*Qərb:* Krım tatarcası, qumuq, qaraçay-balkar, karaim<br>*Şimal:* tatar, başqırd<br>*Cənub:* qazax, qırğız, qaraqalpaq, noqay |
| **Oğuz qrupu** (cənub-qərb türk dilləri):<br>*Qərb:* Türkiyə türkcəsi, Azərbaycan türkcəsi, qaqauz<br>*Şərq:* türkmən, Xorasan türkcəsi |
| **Qarluq qrupu** (cənub-şərq türk dilləri):<br>*Qərb:* özbək<br>*Şərq:* uyğur |
| **Şimali Sibir qrupu:**<br>yakut, dolqan |
| **Cənubi Sibir qrupu:**<br>xakas, şor, altay, tıva, tofa, çulım |
| **Arqu qrupu:**<br>halaç |
| **Oqur qrupu** (yaxud qədim bulqar dili):<br>çuvaş |

## 3. "TÜRK" ADININ MƏNASI

Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə, Özbəkistan dövlətlərində, həmçinin bir sıra muxtar respublikalarda və ayrı-ayrı ölkələrdə 30-a yaxın türk etnosu mövcuddur. Keçmişdə bu xalqların əcdadları *sak (skif-iskit)*, *hun*, *turlar* kimi fərqli adlarla adlandırılmışdır. Bununla belə, öz üçminillik tarixinin böyük bir qismində türk xalqları ümumi adla – *türk* adı ilə tanınmışlar.

Çin mənbələrində, çox ehtimal ki, *türk* adı ilə bağlı olan *Ti* (qədim oxunuşu *Tiek*) adına rast gəlinir. Çinin şimal-qərbindəki geniş çöllərdə köçəri həyat keçirən bu tayfa həm bizim eradan əvvəl, həm də bizim eranın ilk əsrlərində Çin mənbələrində *Tinq-linq*, yaxud *Te-le* də adlandırılır və türklərin əcdadları olan "*Tu-tzüe*" kimi təqdim edilir.

Başqa bir fərziyyəyə görə, *türk* adı köçəri tayfalar ölkəsi olan Turanın və qədim İran dillərində yazılmış mənbələrdə, xüsusilə də zərdüştlərin müqəddəs kitabı "*Avesta*"da adı çəkilən cəngavər *tur* tayfalarının adından yaranmışdır.

Hazırda *türk* adının ilk dəfə tam aydın və dəqiq şəkildə erkən orta əsrlərə aid olan Çin mənbələrində qeyd olunması hamı tərəfindən qəbul edilib. Sonralar, VII–VIII əsrlərdən başlayaraq, Tibet, Hind, Bizans, İran və Ərəb mənbələrində türk dilində danışan və tayfa halında yaşayan xalqların hamısı *türk* adlandırılır. Bu o deməkdir ki, şimal-qərbi Çindən tutmuş Qara dənizin şimal sahillərinədək böyük bir ərazidə məskunlaşan və hər birinin öz adı olan tayfa və qəbilələr üçün *türk* adı ümumi, birləşdirici bir ad idi.

Avrasiyada yaşayan türklərin ilk tədqiqatçıları bu xalqın adını ən qədim tarixi mənbələrdə axtarmışlar. Mənbə və tədqiqatlarda *türk* adına müxtəlif şərhlər və imzalar verilir. Çin mənbələrində bu ad "dəbilqə", Mahmud Qaşqarlının sözlərinə görə, "yetkinlik, kamillik", A.Vamberinin fikrincə isə, "mənşə, törəmə, nəsil" mənasını daşıyır.

Ziya Gökalpa görə *türk* sözü "qanun", "qayda-qanuna malik olan" mənasındadır.

1911-ci ildə nəşr olunmuş qədim türk mətnindən məlum olur ki, *türk* sözü "güc, qüdrət" mənasını verir. Tarixən *türk* adı 552-ci ildə öz müstəqilliyini bərpa etmiş Göytürk dövləti ilə bağlıdır.

***Türk adının mənasının bu qədər müxtəlif mənbələrdə şərh edilməsinin səbəbi nə ola bilər?***

Türklərin yaşadığı yer, ölkə mənasını verən "*Türküstan*" və "*Türkiyə*" adları ilk dəfə Mərkəzi Asiya və onun ətraflarına şamil edilərək etnosiyasi, coğrafi terminlər kimi VI əsrdə istifadə olunmağa başlamışdır. IX–X əsrlərə aid Bizans mənbələrində "*Türkiyə*" adı Volqa çayından Mərkəzi Avropaya qədər uzanan ərazilərə verilir. XI–XIII əsrlərdə "*Türkiyə*" adı ilə Misir və Suriya qeyd olunurdu. XII əsrdən etibarən isə Anadolu (Kiçik Asiya) Türkiyə adlandırılmağa başlanılmışdır.

## 4. TÜRK XALQLARININ YAYILDIĞI COĞRAFİYA

Hal-hazırda türk xalqları altı müstəqil dövlətdə yaşayır:

1. Azərbaycan
2. Qazaxıstan
3. Qırğızıstan
4. Türkmənistan
5. Türkiyə
6. Özbəkistan

Bundan başqa, türk xalqları aşağıda sadalanan muxtar respublika və bölgələrin əsas, yaxud titullu millətidir:

**I. Rusiya Federasiyasının tərkibində:**

1. Altay Respublikası
2. Başqırdıstan (Başkordıstan) Respublikası
3. Dağıstan Respublikası
4. Kabardin-Balkar Respublikası
5. Qaraçay-Çərkəz Respublikası
6. Saxa (Yakutiya) Respublikası
7. Tatarıstan Respublikası
8. Tıva Respublikası
9. Xakasiya Respublikası
10. Çuvaş Respublikası

**II. Çin Xalq Respublikasının tərkibində:**

Sincan-Uyğur Muxtar Rayonu

**III. Moldova Respublikasının tərkibində:**

Qaqauz Yeri Muxtar Ərazi Qurumu

**IV. Özbəkistan Respublikasının tərkibində:**

Qaraqalpaq Muxtar Respublikası

Bundan başqa, türk əhalisi, həmçinin çoxlu sayda Çinin başqa bölgələrində, İran, İraq, Suriya və Balkanlarda da yaşayır.

**Türk xalqlarının əsas tarixi-coğrafi yaşayış bölgələri:**

1) Mərkəzi Asiya; 2) Sibir;
3) Ural-Volqaboyu; 4) Qafqaz;
5) Şimali Qara dəniz sahilləri;
6) Yaxın Şərq; 7) Türkiyə və Şimali Kipr;
8) Balkanlar; 9) Şimali Əfqanıstan

## 5. TÜRK XALQLARININ İLK ULU VƏTƏNİ

Qədim türklərin ilk ulu vətənlərindən biri Mərkəzi Asiya və ona bitişik bölgələrdir. Mərkəzi Asiya şərqdə Xinqan dağlarından (Şərqi Monqolustan) qərbdə Xəzər dənizi və İdil (Volqa) hövzələrinə qədər, cənubda Hindiquş (Əfqanıstan, Pakistan) və Qaraqorum (Şərqi Türküstanın cənub hissəsi) dağlarından şimalda Sibirə qədər uzanan geniş bir məkandır.

Mərkəzi Asiya və onun ətrafı geniş çöllər, səhralar, yüksək dağlar və tayqa meşəliklərinin olduğu bir bölgədir. Bu ərazinin əsas dağları Altay, Sayan, Ötükən, Tanrı və Ural dağlarıdır.

Bölgədə Yenisey, Orxon, Selenqa, İrtış, İli, Talas, Çu, Sırdərya (Seyhun), Amudərya (Ceyhun), Volqa (İdil), Ural (Yayık, Jayık) kimi iri çaylar axır.

Mərkəzi Asiya və ətraf ərazilərdə kontinental iqlim hakimdir, yay isti və quru, qış ayları isə soyuq keçir, lakin burada maldarlıq üçün əlverişli olan mülayim iqlimli vadilər də mövcuddur.

**Ən qədim türklərin yaşadığı əsas bölgələr** Cənubi Sibir, Monqolustan, Ordos (Çinin Şimalı), Tanrı dağının (Tyan-Şan) şimal ətəkləri, Yeddisu (Qırğızıstan, Qazaxıstanın cənub-şərqi), Sırdərya hövzəsi, Aral dənizi ətrafı, Volqa və Yayık (Ural) çayları hövzələri və Azərbaycan sayılır.

*Xəritə 1.1. Türk xalqlarının məskunlaşdığı ərazilər*




## 6. TÜRK XALQLARININ KÖÇ ETMƏSİNİN (MİQRASİYA) SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİ

Türk xalqları tarix boyu siyasi, sosial, iqtisadi və mədəni səbəblərdən başqa bölgələrə köç (miqrasiya) etmişlər. Nəticədə, bir sıra türk xalqları zaman keçdikcə Asiya ilə yanaşı, Avropa və Afrika qitələrində də məskunlaşmışlar. Keçmişdə və günümüzdə müxtəlif coğrafi bölgələrdə türk etnosların mövcudluğu bu tarixi səbəblərlə bağlıdır.

Türklərin öz ulu vətənlərindən ilk köçləri eramızdan əvvəl XV əsrdə başlamışdır.

Türklər qədim zamanlardan geniş məkanlarda məskunlaşmışlar. Böyük dövlətlərin yaranması, demək olar ki, hər zaman bu və ya digər şəkildə onların köçləri ilə bağlı olmuşdur. Beləliklə, Koreya yarımadasından Qara dənizə qədər uzanan bir məkanda türk birliklərinin mərkəzləşdirilməsi dövlət qurulmasında mühüm amilə çevrilirdi. Köçetmə zamanı hakim sülalələrin qərargahı da öz yerini dəyişməli olurdu. İqtisadi-ticarət əlaqələrinin inkişafı üçün türklərə heyvandarlıqdan savayı həm də şəhərlər, karvansaralar və s. lazım idi. Bu səbəbdən, köçəri təsərrüfatla yanaşı, şəhər mədəniyyəti də inkişaf edirdi. Bu proses türklərin qonşu ölkələrlə əlaqələrini genişləndirir və onların oturaq məskənləri həyata keçirmək meyillərini gücləndirirdi.

*Xəritə 1.2. Mərkəzi Asiyadan türk köçləri*




## 7. MƏRKƏZİ ASİYANIN ƏN QƏDİM MƏDƏNİYYƏTLƏRİ

Türklərin ən qədim yurdlarından biri olan Mərkəzi Asiyada türk xalqları ilə bağlı hesab edilən qədim mədəni bölgələr yerləşir. Bunlar, əsasən, Anav, Afanasyev və Andronov mədəniyyətləridir.

**Anav mədəniyyəti.** E.ə. IV minillikdə Mərkəzi Asiyanın cənub-qərbində, Şimali Xorasanda (indiki Türkmənistanın ərazisində) oturaq əkinçilik mədəniyyəti mövcud idi. Aşqabad şəhəri yaxınlığında qədim Anav yaşayış məskənində aparılan arxeoloji qazıntılar zamanı bu insanların suvarma arxlarından istifadə etdiyi və kənd təsərrüfatı ilə məşğul olduğu müəyyən edilmişdir.

**Afanasyev mədəniyyəti** Altay və Sayan dağlarından şimal-qərbdəki çöllərdə formalaşmış Tunc dövrü mədəniyyətlərindən biridir. Arxeoloji tədqiqatlar bu mədəniyyətə mənsub olan tayfaların kollektiv ovçuluqla, maldarlıqla, daşdan və tuncdan əşyalar düzəltməklə məşğul olduğunu ortaya çıxarmışdır. Arxeoloji tapıntılar göstərir ki, burada yaşayan tayfalar atları, iribuynuzlu heyvanları və dəvələri əhliləşdirmiş, həmçinin mis emalını bacaran ovçu və döyüşçülər olmuşlar.

*Xəritə 1.3. Mərkəzi Asiyada mədəniyyət ocaqları*




**Andronov mədəniyyəti** Altay və Tanrı dağları, Cənubi Sibirdən başlayaraq Xəzər dənizinin şimal-şərq sahillərinə qədər uzanan geniş ərazidə formalaşmışdır. Bu mədəniyyətdə mis məmulatlarla bərabər, tunc, gümüş və qızıldan düzəldilmiş əşyalara da rast gəlinir. Hazırladıqları əşyaları heyvan təsvirləri ilə bəzəyən bu toplum atları əhliləşdirmişdir.

Türklərin ilk vətənlərindən biri sayılan Altayda aparılan arxeoloji tədqiqatlar göstərmişdir ki, bu mədəniyyətlərdə, xüsusilə ikincidə, türk xalqları üçün səciyyəvi olan antropoloji insan tipi formalaşmışdır. Bu döyüşkən (cəngavər) köçəri tayfaların e.ə. 1700-cü ilin sonlarında Altay dağları ilə Tanrı dağı arasındakı ərazidə kütləvi şəkildə məskunlaşdığı məlumdur. Beləliklə, onlar Mərkəzi Asiya mədəniyyətinin təməlini qoymuşlar.

E.ə. II–I minilliklər arasında Fərqanə vadisində (müasir Özbəkistanın ərazisi) Çust mədəniyyəti mövcud idi. Bu, bölgədə yaşayan İran və türk əhalisinin yaratdığı oturaq əkinçilik mədəniyyəti idi. Arxeoloji tədqiqatlar Çust mədəniyyətində tuncdan oraq, bıçaq və güzgülər hazırlandığını göstərir. Bunlarla yanaşı, onlar daş əmək alətlərindən də istifadə edirdilər. Əkinçiliklə bərabər, burada heyvandarlıq da inkişaf etmişdi.

## 8. PROTOTÜRKLƏR

Prototürklərin (ön türklərin) əcdadları Mərkəzi Asiyanın şimal və şimal-şərq hissəsinin köçəri sakinləri hesab olunur. E.ə. I minilliyin ortalarında Altay dağlarından Qara dənizin şimal sahillərinə qədər uzanan geniş ərazidə ilk siyasi birlik, yəni proto (ön) dövlət – *Sak (İskit)* tayfa birliyi yarandı.

### SAKLAR

Şərq mənbələrində *Sak*, qərb mənbələrində isə Skif (*İskit)* kimi tanınan bu siyasi birlik Mərkəzi Asiya və onun ətraf bölgələrində yaşayan xalqların ilk hərbi-siyasi birliyi idi. Onlar e.ə. VIII – b.e. III əsrlər arasında, Baykal gölündən Dunay çayı sahillərinə qədər uzanan geniş ərazidə coğrafi xüsusiyyətlərdən asılı olaraq oturaq, yaxud köçəri həyat tərzi keçirərək öz mədəniyyətlərini və siyasi sistemlərini saxlamışlar. Saklar, əsasən, köçəri həyat tərzi keçirərək heyvandarlıqla məşğul olmuş, arabalarda qurulan çadırlarda yaşamışlar. Bununla belə, Krım və Azov dənizinin sahilləri kimi əlverişli bölgələrdə kənd təsərrüfatı və ticarətlə məşğul olmuşlar.

Sakların həyatı haqqında məlumatlar onların qonşuları və siyasi tərəfdaşları Əhəməni, Şərqi Roma (Bizans), Xan (Çin) kimi qədim imperiyalara aid mənbələrə əsaslanır. Saklar Ön Asiyaya yürüşləri zamanı Kiçik Asiyaya (Anadoluya) qədər gəlib çıxmışdılar. Tarixdə onların Əhəmənilərlə (Əhəməni şahları Kir və Daranın yürüşləri) mübarizəsi məlumdur. Makedoniyalı İsgəndərin İrana yürüşü ilə bağlı yazılarda saklar, onların məşhur qadın hökmdarı Tomiris barədə məlumatlar vardır.

Ön Asiyaya yürüş etmiş sak hökmdarını yunan tarixçisi Herodot *Midias* adlandırır. Firdovsinin "Şahnamə" əsərində o, *Əfrasiyab*, türk əfsanələrində isə *Alp Ər Tonqa* adı ilə təqdim edilir.

Çin mənbələrində saklar *sai* adlandırılmışdır. Qədim yunan və fars mənbələrində sak tayfalarının bir hissəsi sayılan massagetlərin adı çəkilmişdir. Bu tayfalar Aral dənizi ilə Xəzər dənizi arasında, Şimali Qafqaz və Azərbaycanda yaşamışlar.

Qədim fars mənbələrində sakların üç böyük qrupa: xaoma varqalara (xaoma (bihuşedici içki) bişirən saklar), tiqraxaudlara (şişburun papaqlı saklar) və paradarayalara (çaydan (Sırdərya) o yanda yaşayan saklar) bölündüyü haqqında məlumatlar var.

E.ə. VII əsrdə iskitlər Azərbaycanda və Anadoluda dövlət yaratdılar. Heç şübhə yoxdur ki, iskitlərin akkadca "işquzay" (-quz, -quzay) adı "oğuz" adının o zamankı mixi sənədlərdə arxaik tələffüzü ilə bağlıdır. Qeyd etmək lazımdır ki, orta əsrlərdə, məsələn, Bizans mənbələrində islamı hələ qəbul etməmiş türk xalqları skif (iskit) adlanırdı.

Həyat tərzlərinə görə saklar türk və Mərkəzi Asiya etnoslarının islamdan əvvəlki dövrə aid etno-mədəni tipinin ilk nümayəndələrindən olmuşlar. Bu özünü onların geyimlərində, metal emalında, xüsusilə də atların qoşqusunda və başqa mədəniyyət elementlərində büruzə verir.

## 9. SAKLARIN İQTİSADİYYATI, İCTİMAİ HƏYATI VƏ MƏDƏNİYYƏTİ

Sakların yaşadığı torpaqların çox hissəsi çöllük ərazilərdə yerləşirdi. Onlar geniş otlaq sahələrində ev heyvanları – at, inək, qoyun və dəvə saxlayırdılar. Bu heyvanlar həyat və məişətin başlıca mənbəyi idi. Onların əti və südü sakların əsas qidasını təşkil edirdi, yunundan və dərisindən isə geyim hazırlayırdılar. Atlardan minik və qoşqu üçün istifadə edir, südündən qımız* düzəldirdilər. Bundan əlavə, saklar həm özlərinin qidası, həm də heyvanları yemləmək üçün buğda, arpa, darı və digər kənd təsərrüfatı məhsulları becərirdilər.

Keçmişdə İpək yolunun əsas hissəsi sakların ərazisindən keçirdi və bu da beynəlxalq ticarətin böyük bir sahəyə yayılmasına imkan yaradırdı. Çin, Hindistan, İran və Roma imperiyasından sakların ölkəsinə müxtəlif kənd təsərrüfatı məhsulları, bəzək əşyaları gətirilir, saklar isə bu ölkələrə at və qoyun satırdılar. Bundan əlavə Altay və Sibir sakları susamuru və sincab kimi xəzdərili heyvanları ovlayaraq, onların xəzlərini başqa ölkələrə ixrac edirdilər. Ayrı-ayrı dillərdə danışmalarına baxmayaraq, bu köçərilər ortaq mədəniyyət və inanc sisteminin



*Şək. 1.2. Sakların "Heyvan üslubu"nda təsvir olunmuş Pazırık xalçası*

---

**Qımız* – at südündən hazırlanmış içki

daşıyıcıları idilər. Sibir, Monqolustan, Altay, Mərkəzi Asiya, Şimali Qafqaz və Şərqi Avropa ərazilərindəki kurqanlarda aşkar olunan müxtəlif arxeoloji tapıntılar sak incəsənətinin vahid mənbədən gəldiyini təsdiq edir. Silahlar, geyimlər, məişət əşyaları və maral, at, qoç, aslan kimi heyvanların təsvirləri verilmiş bəzək əşyaları "Skif (İskit) sənəti", yaxud "Skif (İskit) heyvan üslubu" kimi məşhurdur.



*Şək. 1.3. "Qızıl adam". E.ə. V–IV əsrlər. İssık kurqanı. Qazaxıstan*

Qazaxıstan və Qərbi Sibirdə aparılan arxeoloji qazıntılar zamanı saklara aid qiymətli maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Bu tapıntılar onların mədəniyyətinin yüksək inkişaf səviyyəsində olduğunu göstərir. Məsələn, Almatı şəhərinin (Qazaxıstan) yaxınlığında İssık kurqanının ərazisində qızıldan hazırlanmış müxtəlif əşyalarla birlikdə üzərində görünüşcə türklərin yazısını xatırladan naməlum yazılı (hələlik şifri açılmamış) gümüş cam tapılmışdır.

Bundan başqa Qazaxıstanda sakların dövrünə aid qızıl geyimli kübar şəxslərin məzarları da aşkar edilmişdir. Mingəçevir və Ziviyədə (Azərbaycan) tapılan nümunələr də bu qəbildəndir.



*Şək. 1.4. İssık yazısı*

***Oxuduğunuz mətnə əsasən skiflərin (iskitlərin) nə vaxt və hansı bölgələrdə yaşaması haqqında necə nəticə çıxarmaq olar?***

Hərbi yürüş zamanı Dara iskitlərdən quş, siçan, qurbağa və oxdan ibarət bir bağlama alır. Şah düşünür ki, iskitlər itaət etdiklərini bildirmək üçün ona öz torpaqlarının (siçan), sularının (qurbağa), səmalarının (quş) və ordularının (oxlar) simvollarını gətiriblər. Müdriklərdən biri isə bu bağlamanın mənasını başqa cür yazır: "Əgər siz farslar quş kimi səmaya uçmasanız, siçan kimi torpağın altına soxulmasanız, ya da qurbağa kimi bataqlığa tullanmasanız, onda bu oxlarla vurulub, geriyə dönməyəcəksiniz".

Sonradan məlum oldu ki, müdrik adam haqlı imiş.

*(Herodot. "Tarix". I fəsil)*

Zərdüştilərin qədim pəhləvi dilində yazılmış müqəddəs kitabı "Avesta"da Turanın baş hökmdarı, yerin şimal hissəsinə sahiblik edən qüdrətli Faranqrasiyanın (Əfrasiyab) adı çəkilir.

Mahmud Qaşqarlının (XI əsr) "Divanü lüğat-it-türk" ("Türk dilləri lüğəti") əsərində bütün türk xalqlarını birləşdirən bu qüdrətli hökmdar haqqında çoxlu hekayələr vardır.

"Türklərin hökmdarı Əfrasiyab xanın titulu *Alp Ər Tonqa* pələng kimi güclü döyüşçü deməkdir". "*Kaz*" (Qaz) Əfrasiyabın qızının adıdır. O, Qəzvin şəhərinin əsasını qoyub. Şəhərin adı "*Kaz oyunu*" mənasını daşıyır (bura Kazın oyun sahəsi olub, çünki qız burada yaşayıb, oyunlar oynayırmış). Bu səbəbdən bəzi türklər Qəzvini öz ölkələrinin sərhədləri daxilində hesab edirlər.

Eyni zamanda Qum şəhərinin də bu sərhədlər daxilində yerləşdiyi hesab olunur, çünki "*qum*" türk sözüdür. Əfrasiyabın qızı tez-tez bu yerlərə gedər və burada ov edərmiş.

Digər türklər ölkələrinin Mərv əl-Şahicandan başladığını düşünürlər, çünki Alp Ər Tonqa (yəni Əfrasiyab) Mərv şəhərini fars padşahı Təhmurazın bu şəhərin içəri qalasının əsasını qoymasından üç yüz il sonra inşa etdirmişdir.

*Mahmud Qaşqarlı. "Divanü lüğat-it-türk". III cild. Ankara, 1985, səh.149.*

***Əfrasiyab haqqında rəvayətlər hansı ədəbi əsərlərin süjeti olmuşdur? Bu sualı araşdırın.***

***Əfrasiyabın bu qədər çox ədəbi əsərin qəhrəmanı olması nə ilə bağlı ola bilərdi?***

## DƏYƏRLƏNDİRMƏ ÜÇÜN SUALLAR

1. Türklərin ilk ana yurdları haradır?
2. Mərkəzi Asiyanın ən qədim mədəniyyət bölgələri hansılardır?
3. Türk dilləri və dialektləri hansı qruplara bölünür?
4. "Türk" adının mənası ilə bağlı hansı fikirlər mövcuddur?

# II BÖLMƏ

# HUN İMPERİYALARI VƏ SONRAKI TÜRK DÖVLƏTLƏRİ

## ƏSAS MÖVZULAR

1. ASİYA HUNLARININ İMPERİYASI
2. USUNLARIN DÖVLƏTİ
3. QƏDİM QIRĞIZLAR
4. KANQUY DÖVLƏTİ
5. PARKANA (DAVAN) DÖVLƏTİ
6. KUŞAN İMPERİYASI
7. AVROPA HUN İMPERİYASI
8. CƏNUB HUNLARININ DÖVLƏTİ
9. AĞ HUN (EFTALLAR) DÖVLƏTİ
10. JUJAN İMPERİYASI
11. HUN İMPERİYALARININ VƏ SONRAKI TÜRK DÖVLƏTLƏRİNİN DÖVRÜNDƏ İQTİSADİYYAT VƏ MƏDƏNİYYƏT

*Xəritə 2.1. Asiya hunlarının imperiyası*



## 1. ASİYA HUNLARININ İMPERİYASI



Çin mənbələrinə görə, bu dövlət *Sün-nu (Hsiung-nu)* adı ilə e.ə. III – b.e. III əsrləri arasında mövcud olmuşdur. **Tuman (Teoman)** ilk məlum hökmdarıdır.

Ərazisi Mərkəzi Asiya, Cənubi Sibir, Monqolustan, Şimali Çin, Şərqi Türküstanı (indiki Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar Rayonu (SUMR)) əhatə etmişdir. Tumanın oğlu Mete (Mode) Şanyunun (Mao-dun Tenqri Qut) hakimiyyəti zamanı bu dövlət özünün ən qüdrətli dövrünü yaşamışdır. Hunların yüz minlərlə atlı qoşunu ətrafdakı *Yüeçi, Uysun, Tunq-hu* (Tunquz), *Kiyenkun* (Qırğız) və *Tinq-linq* tayfalarını öz hakimiyyəti altına almışdır. Bundan başqa, Mete Çinin Xan sülaləsinin qoşunlarını darmadağın edərək Şimali Çinin bir sıra ərazilərini tutmuşdur.

Hunlar Şərqi Türküstanın şəhər-dövlətlərini özlərindən asılı vəziyyətə salmış, İpək yolunun Şimali Çinə gedən xəttini nəzarət altına almışdılar. E.ə. 40-cı illərdə hunların hökmdarı Çi-çi Yeddisuda Talas çayının sahilində şəhər saldırmışdır.

Asiya hunlarının imperiyası çinlilərin müdaxiləsi və öz hökmdarlarının taxt-tac uğrunda mübarizəsi nəticəsində III əsrdə parçalanıb süqut etmişdir. Hunların bir hissəsi Çinə gedib orada kiçik dövlətlər yaratmış, digər hissəsi Qərbə üz tutaraq Şərqi Avropada öz dövlətlərinin əsasını qoymuşlar.

### Hunların dili haqqında

Dövrümüzə Asiya hunlarının dilinə aid az material gəlib çatmışdır. O dövrdə Talas (Taraz), Çaç (Şaş, Daşkənd), Silis (Sırdərya), İdil (Volqa), Dayık (Yayık/Ural) kimi bölgə və çay adlarının mövcud olması və bu sözlərin qədim türk dilində açıqlanması hunların dilinin, həqiqətən, türk dili olmasının sübutudur. Mahmud Qaşqarlı da türk ölkələrində böyük çayların *İdil* adlandırıldığını yazmışdır. Çin salnamələrində qeyd edilir ki, Hsiung-nu (Hun) dilində səmaya *Tenqli (Tenqri)* deyirdilər və bu söz bu gün də bütün türk dillərində *Tanrı* mənasında işlədilir. Bundan başqa, Şimali Qafqazda yaşayan hunların *Tenqri-xan* adında tanrıya səcdə etmələri haqqında başqa mənbələrdə də məlumatlar var.

“Hun” adı uzun əsrlər boyu bütün qədim türk tayfaları üçün ümumi ad olmuşdur. Çinlilər *Tu-jüe (Göytürk)* və başqa türk tayfalarına *Sün-nu (Hsiung-nu)* deyirdilər. III–IV əsrlərə aid olan soqdi dilində yazılmış “Köhnə məktublar”da da Çinin şimal-qərbində yaşayan atlı köçəriləri çinlilər *Hun* adlandırmışlar. Eləcə də Pəncikənddə (Tacikistan) aşkar edilən Muq dağının Soqd arxivində Türk xaqanlığında yaşayan xalq xun (*Hun)* adı ilə (“I. Göytürk 552–630” və “II. Göytürk (Kutluk) 682–742”) qeyd olunur.

## Hunların vətən sevgisi

E.ə. II əsrə aid qədim Çin salnamələrinin birində, “Han-şu” (“Xan sülaləsinin tarixi”) adlı əsərdə hunların hökmdarı haqqında belə bir rəvayət söylənilir: “Hunların hökmdarı Metenin çox güclü orduya malik olmasına baxmayaraq, Böyük çöldə sülh və əmin-amanlıq istəyirdi. Qonşuluqda yaşayan Tunq-hu tayfası isə hunların hələ də zəif olduqlarını hesab edirdi.

Bir gün Tunq-hu tayfasından elçi gəlib Metedən öz sevimli atını verməyi tələb etdi. Müharibə olmasın deyə Mete atını Tunq-hu başçısına bağışladı. Tunq-hular bununla kifayətlənmədilər. Növbəti dəfə onlar Metedən onun qadınını istədilər. Mete Tunq-hu başçısının istədiyi qadını ona göndərdi.

İstədikləri yerinə yetdikcə tunq-hular həvəsləndilər və ondan öz ərazilərinə bitişik olan şoran torpaqların kiçik bir hissəsini tələb etdilər. Bax bu istək Metenin şəxsi qəzəbini milli qəzəbə çevirdi. O, dərhal qurultay çağıraraq dedi:

– At mənə məxsus idi, mən onu verdim... Qadınıma da şəxsən mən cavabdeh idim və mən millətimin əmin-amanlığı üçün onu da verdim... İndi istədikləri torpaq isə dövlətimizin torpağıdır. Bu torpaq təkcə mənim deyil, bütün hunlarındır. Şoran da olsa, vətən torpağının bir qarışı da verilməz!

O, düşmənə müharibə elan edərək, onların üzərində qələbə çaldı”.

*Xan sülaləsinin tarixi. Hsing-nu (Hun) monoqrafiyası. Ankara, 2004-cü il.*

***Mete xaqanın yerində olsaydınız, siz nə edərdiniz? Müzakirə edin.***



### Pazırık kurqanı

Cənubi Sibirdə Altay dağlarının ətəklərində aşkar olunmuş Pazırık kurqanı təxminən e.ə. V–III əsrlərə aiddir. Bu kurqan buz qatı ilə örtüldüyündən onun içərisində min illər ərzində çürüməmiş insan və heyvan qalıqları tapılmışdır.

*Şək. 2.1. Pazırık kurqanından tapılmış təkərli araba. E.ə. V–III əsrlər. Ermitaj muzeyi. Sankt-Peterburq, Rusiya*

Pazırık kurqanında aşkar olunmuş bu əşyaların böyük hissəsi sak dövrü ilə, bir hissəsi isə hun incəsənəti ilə bağlıdır. Əşyalar arasında xalça, parça, rəngbərəng keçə, aplikasiya, həmçinin üzərində heyvan və bitki təsvirləri olan toxuculuq məmulatlarının nümunələri vardır. Pazırık kurqanında tapılmış yəhər, qarınaltı tapqır və digər at qoşqusu ləvazimatları tam olaraq hunların orijinal sənətini xatırladır. Qoşqu əşyalarında və atların qulaqlarında qədim türk damğaları vardır.

## 2. USUNLARIN DÖVLƏTİ

E.ə. II–b.e. IV əsrləri arasında usunlar qüdrətli dövlət yaratmışlar. Lap əvvəl usunlar indiki Qansu bölgəsində, həmçinin Sinlən-Şan dağlarının şərq tərəfi ilə Dunxuan (Qərbi Çin) arasındakı ərazilərdə məskunlaşmışlar. Sonralar onların dövlətlərinin sərhədləri Şərqi Türküstanın (müasir Çin Xalq Respublikasının (ÇXR) Sincan-Uyğur Muxtar Rayonu (SUMR)) şimal hissəsini, Yeddisu və Mərkəzi Tanrı dağını da əhatə edirdi.

İlk dəfə “usun” adına Çin tarixçisi Sıma-Syanın əsərlərində rast gəlinir. Tarixi salnamələrdə göstərilir ki, usunlar 120 min “dım”, 630 min əhali və 188 minlik qoşuna malik idilər. Onların hökmdarları “qunmo” (künbiy) titulu daşıyırdı. Paytaxtları İssık-Kul gölü sahilində yerləşən Çuquçen (Qırmızı vadi) şəhəri idi. Dövlət üç hissəyə – şərq, qərb və mərkəzi hissələrə bölünürdü. Usunlar Hunnu, Kanqlı və Yueci kimi qonşu xalqlarla, həmçinin Çin Xan dövləti ilə siyasi və diplomatik əlaqələr saxlayırdılar.

Usunlar Şu çayı və İssıkgölün ətraflarında, həmçinin Tarim vadisində əsasən heyvandarlıqla (at, dəvə, inək, qoyun və keçilərin yetişdirilməsi) və əkinçiliklə məşğul olurdular. Adı çəkilən ərazilərdə arxeoloqlar oturaq həyat keçirən usunların yaşayış məskənlərini aşkar etmişlər. Yeddisu ərazisində yerləşən Ötükən, Tayqak, Karlak və Altın Emel kurqanlarında, həmçinin İssıkgölün ətraflarındakı Çelpek və Çerqes kurqanlarında çoxlu sayda qab-qacaq və müxtəlif silahlar tapılmışdır.

Qədim Usunlar dövləti süquta uğradıqdan sonra onun tərkibində olan qəbilə və tayfalar Göytürk və Qərbi-Türk xaqanlıqlarına daxil olmuşlar. Gələcəkdə isə onlar Türkeş dövlətini yaratmış, Qaraxanlı və Moğolustan dövlətlərinin etnik əsasını təşkil etmişlər. Tədqiqatçılar qazaxların və bir sıra başqa türk xalqlarının tərkibində olan “uysun” adlı nəsillərə qədim usunların tarixi davamçıları kimi baxırlar.

## 3. QƏDİM QIRĞIZLAR

Mərkəzi Asiyanın ən qədim xalqlarından biri olan qırğızların tarixi e.ə. III. əsrdən başlayır. Qədim qırğızlar və Qırğız xaqanlığı ortaq türk tarixinin bir parçasıdır.

“Qırğız” adı ilk dəfə e.ə. III əsrin sonunda “Şi-tzi” (“Tarixi yazılar”) adlı Çin əsərində, qırğız tayfalarının hunlar tərəfindən tabe edilməsi ilə bağlı çəkilir. Hun dövlətinin tərkibində olarkən qırğızlar kompakt şəkildə yaşamaqda davam etmiş, eyni zamanda qədim hunların dövlətçilik ənənələrini mənimsəyərək öz dövlətçiliklərinin əsaslarını qoruyub saxlaya bilmişlər. Bu zaman qırğızlar şərqi Tanrı dağdan və Boro-Horo dağ silsiləsindən şimalda və indiki Urumçi şəhərindən qərbdəki ərazidə məskunlaşmışdılar.

## 4. KANQUY DÖVLƏTİ



*Şək. 2.2. Kanquy dövlətinin mis pulu.*
*Çaç (Daşkənd) bölgəsinin ətrafları*

Kanqlı, yaxud Kanqha dövləti adlandırılan bu dövlət e.ə. II əsrdən b.e. III əsrinə qədər mövcud olmuşdur. Onun ərazisi Sırdəryanın (Seyhun) orta axınının hövzəsini və Qərbi Yeddisu bölgəsini (Cənubi Qazaxıstan) əhatə edirdi. Bu dövlət həm də Kanq, yaxud Kanquy kimi də tanınır. Mərkəzi Asiyanın oturaq və köçəri tayfalarını birləşdirən Kanquy dövləti Qərbi Yeddisu, Orta Sırdərya, Çaç (Daşkənd), Xarəzm, Soqd kimi beş bölgəni əhatə edirdi.

Hun imperatoru Çi-çi Kanquy hökmdarı ilə müttəfiq olaraq Çinin Xan sülaləsinə qarşı mübarizə aparmışdı. Kanquy dövləti dövründə Sırdərya hövzəsindən İssıkgölə qədər olan min kilometrə yaxın ərazidə Mərkəzi Asiyadakı onlarla erkən şəhərin təməli qoyulmuşdur. Yesi (Otrar), Kanka (Daşkənd vahəsi), İsficab (Sayram), Taraz kimi şəhərlər İpək yolunun şimal xəttində ən qabaqcıl mədəniyyət və ticarət mərkəzlərinə çevrilmişdi. Kanquy hökmdarları Çaç (Daşkənd) vahəsində bürünc pullar zərb etdirmişdilər.

Kanquy dövləti bir müddət Asiya Hun imperiyasının hakimiyyəti altında olmuşdur. Çin dövləti hunların təcavüzünün qarşısını almaq məqsədilə onların müttəfiqlərini öz tərəfinə çəkməyə çalışırdı. Bu məqsədlə e.ə. 139-cu ildə Çanq Çien elçi kimi Qərb bölgələrinə (Mərkəzi Asiyaya) göndərilmişdir. O, əvvəl yüeçilər (e.ə. 139–126-cı illər), daha sonra usunlarla (e.ə. 119–115-ci illər) ittifaq quraraq hunlara qarşı ortaq bir hücum planlaşdırmışdı, lakin Kanquy və digər Mərkəzi Asiya dövlətləri bu ittifaqa qoşulmadığı üçün çinlilərin planı gerçəkləşməmişdi.

III əsrdə daxili çəkişmələrdən zəifləyən Kanquy dövləti bölgədəki bəzi bəyliklərin müdaxiləsi ilə süqut etmişdir. Bu dövlətin əvvəllər yerləşdiyi ərazidə – Sırdəryanın orta hövzəsində qədim dövrdən bu günə kimi Kanqlı adlı türk boyu yaşayır. Azərbaycan, qazax, qaraqalpaq, qırğız və özbəklərin bir boyu olan kanqlılar (Kanger – Kəngər) hətta yakutlar arasında da vardır (kanqar). Onların qədim Kanquy dövlətinin əhalisi ilə bağlı olduğu hesab olunur.

## 5. PARKANA (DAVAN) DÖVLƏTİ

E.ə. I minilliyin 2-ci yarısından b.e. ilk əsrlərində mövcud olan qədim Parkana (Çin mənbələrində – Davan) dövləti Fərqanə vadisinin (indiki Özbəkistan və Qırğızıstanın əraziləri) mərkəzi və şərq hissələrini əhatə edirdi. Əhalisi, əsasən, iranmənşəli idi, lakin Parkanada prototürk etnoslar da yaşayırdı.

Parkana şəhərlərinin ümumi sayı yetmişə çatırdı. Fərziyyəyə görə, dövlətin paytaxtı – Quyşan şəhəri (e.ə. I əsr) indiki Oş (Qırğızıstan) şəhərinin yerində olub.

Parkana tarixinin son dövrü haqqında (b.e. ilk əsrləri) məlumatlar yarımçıqdır. Bəzi ehtimallara görə b.e. I və II əsrləri arasında Parkana Kuşan dövlətinin hakimiyyəti altına düşmüşdü.

Həmçinin məlumdur ki, b.e. V əsrində Parkananın ərazisi Mərkəzi Asiyanın qərbindən Fərqanə vadisinə basqın etmiş eftallar tərəfindən zəbt edilmişdir.

## 6. KUŞAN İMPERİYASI



*Şək. 2.3. Kuşanlılara aid heykəl. Xalçayan sarayı. Cənubi Özbəkistan*

Bu dövlət e.ə. II – b.e. III əsrləri arasında mövcud olmuşdur. Qurucusu **Kujula Kadfizdir**.

Dövlətin ərazisi Mərkəzi Asiyanın cənub-qərb hissəsini (qədim Baktriya / Yuxarı Amudərya hövzəsi), Xorasanı, tarixi Şimali Hindistanı (Əfqanıstanın bir hissəsi və Pakistan) və Şərqi Türküstanı (indiki ÇXR-in SUMR-nu) əhatə etmişdir.

Əvvəllər yabqu titulu daşıyan Kuşan hökmdarları Parfiya və Sasani dövlətləri ilə uzun illər mübarizə aparmışlar.

Kuşanlar Hindistanın şimal torpaqlarını ələ keçirərək İpək yolunun cənub xəttini nəzarət altına almışdılar.

Kuşanlar dünyada məşhur olan Qandhara (Peşəvər/Pakistan) mədəniyyətinə öz töhfələrini vermiş, Amudəryanın şimal sahillərində onlarla şəhər salaraq burada buddizm mədəniyyətinin ən parlaq nümunələrini yaratmışlar. Kuşan dövrünün heykəlləri zahiri görünüşcə qədim türkləri xatırladır.

Kuşan imperiyasının ən parlaq dövrü hökmdar **Kanişkanın** zamanında olmuşdur. Onun adından qızıl və bürünc pullar kəsilmişdir. Kuşan pullarının üzərindəki yazılar yunanmənşəli Baktriya yazısıdır.

Əbu Reyhan əl-Biruni (973–1048) kuşanlardan bəhs edərkən onların hökmdarı Kanişkanın adını "Kanık" şəklində yazmış,



*Şək. 2.4. Kuşan hökmdarı Kanişkaya aid qızıl pul*

*Xəritə 2.2. Kuşan imperiyası*




və onları qədim türk sülaləsi kimi tanıtmışdır.

Alimlər kuşanların mənşəyinin Tanrı dağının şimal-şərq bölgəsindəki köçəri Yüeçi boyları ilə bağlı olmasını güman edirlər.

Kuşan imperiyası III əsrə doğru zəifləməyə başlamışdır. Qərbdə Xorasan vasitəsilə Sasani imperiyası ilə qonşu olan kuşanlar bu sülalənin müdaxiləsi nəticəsində tarix səhnəsindən silinmişdir.

Buddizm inancını mənimsəyən kuşanlar hind və yunan yazısı ilə bərabər, formasına görə türk-bitik* yazısına bənzəyən “na-

*__Bitik__ – kitab, məktub, yazı

məlum yazı"dan da istifadə etmişlər.

## 7. AVROPA HUN İMPERİYASI



Hun dövləti IV–V əsrlərdə mövcud olmuşdur. İlk məlum hökmdarı **Balamir** olan bu dövlətin ərazisi Şimali Qafqazı, Qara dənizin şimal sahillərini və Şərqi Avropanı əhatə etmişdir. Hun əsgərləri Roma imperiyasına qarşı müharibələr apara-apara Balkan yarımadasını keçmiş, Fransaya qədər gedib çıxmışdılar.

Hunlar Mərkəzi Asiyadan yola çıxaraq Şərqi Avropaya gələndə, yəni IV əsrin ikinci yarısında Şimali Qafqaz alanların, Qara dənizin şimal sahillərindəki düzənliklər isə german tayfaları olan qotların işğalı altında idi.

Hun hökmdarı Balamirin başçılığı altında hunlar əvvəlcə şərq qotlarını (374-cü il), sonra isə qərb qotlarını (375-ci il) məğlub etdilər.



*Şək. 2.5. Atillanın heykəli. Macarıstan*

Beləliklə, hunların hərbi gücü müxtəlif tayfaları yerindən edərək torpaqlarından uzaqlaşdırmışdı. Onlarla tayfa toqquşaraq biri o birini ata-baba torpaqlarından sıxışdırıb çıxarırdı. Roma imperiyasının şimal əyalətləri talan olunmuş, İspaniyaya qədər uzanan geniş bir ərazidə Avropanın etnik siması dəyişmişdi.

Hunlar ilk dəfə 378-ci ilin yazında sıralarını alan-

*Xəritə 2.3. Avropa Hun imperiyası*



lar, qotlar və başqa german tayfaları ilə gücləndirib Dunay çayını keçmiş və romalıların müqaviməti ilə qarşılaşmadan Frakiyaya qədər irəliləmişdilər.

Ən qüdrətli Hun hökmdarı **Atillanın** (434–453) dövründə Hun dövləti böyük imperiyaya çevrilmişdir. Atilla haqqında xatirələr onun imperiyasının sərhədləri ətrafında yerləşən İtaliya, Qalliya, German torpaqlarında, Britaniya, Skandinaviya və bütün Mərkəzi Avropada əsrlər boyu ağızdan-ağıza dolaşan əfsanələr doğurmuşdu. O, yazıçıların, rəssam və heykəltəraşların yaradıcılığı üçün mövzu olmuş, haqqında ən çox kitablar yazılan şəxsiyyətlərdən birinə çevrilmişdir.

Avropa hunları özlərindən sonra Şərqi Avropada türkəsilli (bolqar, avar, oqur), yaxud türklərlə qohum olan tayfaların (macar) siyasi birliklərinin əsasını qoymuşlar. Onların türk dilində danışdıqları məlumdur. Hökmdar ailəsinin üzvləri Karadon (qara don, qara rəngli geyim), Muncuk (muncuq, yaxud bayraq), Atilla, İlek, Dengizik (dengiz – dəniz), İrnek, Aybars, Oktar, Arıkan (Arıqxan), Basık, Kursık, Atakam, Eşkam adlarını daşımışlar.

## 8. CƏNUB HUNLARININ DÖVLƏTİ

IV–V əsrlərdə mövcud olmuş bu dövlət tarixdə daha çox *Hionit* adı ilə tanınır. Onun ərazisinə Baktriya (Mərkəzi Asiyanın cənub-qərbi), həmçinin Xorasan və Şimali Hindistan (Əfqanıstan, Pakistan) daxil idi.

III əsrdə Asiya hunlarının imperiyası dağılandan sonra hunların böyük bir hissəsi qərbə, Şərqi Avropaya köç etdiyi zaman bir hissəsi də, çox güman ki, cənub-qərbə, Amudərya və Sırdərya çayları arasına üz tutmuşdur.

IV əsrin sonuna doğru Səmərqəndi tutan hunlar daha sonra Sasanilərə tabe olan bölgələr – Baktriya (Toharıstan) və Kabil vadisi üzərində nəzarəti ələ keçirmişdilər. Onlar burada mərkəzi Toharıstan olan dövlət yaradaraq Sasanilərə qarşı mübarizədə üstünlük qazanmış və Şimali Hindistanda da öz mövqelərini gücləndirmişdilər.



*Şək. 2.6. Cənub-qərb hunlarının Baktriya yazıları həkk olunmuş möhürü. Şimali Əfqanıstan*

Bu dövrdən başlayaraq, fars (Pəhləvi) mən-

bələrində *Spet-Hyon* (Ağ Hun) və *Karmır Hyon* (Qırmızı Hun), qədim hind mənbələrində isə *Huna, Sveta Huna* (Ağ Hun) və *Hara Huna* (Qırmızı Hun) adlarına rast gəlinir. Adıçəkilən prototürk tayfaları sonralar Xorasan və Şimali Hindistanda türk əhalisinin artmasında mühüm rol oynamışdılar.

Kuşanlar kimi, cənub hunları da üzərində Baktriya yazısı olan pullar zərb etdirmiş və möhürlərində bu yazıdan istifadə etmişlər. Pulların üzərindəki *Al-Hon* ifadəsi, çox güman ki, qədim türkcədə *Kızıl Hun* (al-qırmızı) mənasındadır, çünki qədim türklərdə üfüqün cəhətləri şərti olaraq dörd əsas rənglə ifadə olunurdu. *Ak* (ağ) – Qərbi, *kök* (göy) – Şərqi, *kızıl* (qırmızı) – Cənubu, *kara* (qara) – Şimalı bildirirdi.

## 9. AĞ HUN (EFTALLAR) DÖVLƏTİ

Bu dövlət IV–VI əsrlərdə mövcud olmuşdur. Ərazisi Mərkəzi Asiyanın cənub-qərb ətrafları (qədim Baktriya), Xorasan, Şimali Hindistan və Şərqi Türküstanın cənub-qərb hissəsini əhatə edirdi. Onlar Bizans mənbələrində *Eftallar*, ərəb və fars dilində yazılmış əsərlərdə *Haytal*, Çin salnamələrində isə

*Xəritə 2.4. Ağ Hun imperiyası*



*Ye-da*, yaxud *Yen-ta* adlandırılır.

Eftallar, yaxud ağ hunlar, faktiki olaraq, cənub hunlarının da davamçılarıdır. Onlar Bizans və Çin mənbələrində həm də *hunlar* adı ilə verilir. Dövlət idarəçiliyi sistemini xeyli təkmilləşdirmiş Eftalanın hakimiyyəti dövründə onları eftallar adlandırmağa başlamışlar.



*Şək. 2.7. Eftallar dövrünə aid Baktriya dilində yazılmış sənəd. Şimali Əfqanıstan*

Cənub hunları kimi, eftallar da Sasanilər (İran) üzərində qələbələr qazanmış, Şimali Hindistan və Kabil vadisini nəzarət altında saxlamışdılar.

Eftallar *yabqu*, *tigin*, *tarxan* kimi qədim türk titulları daşıyırdılar. Hökmdarların Toraman, Mihiraqula, Günxan, Nizek Tarxan kimi adları, səslənməsinə görə, türk və fars sözlərini xatırladır.

Orta əsrlərə aid Bizans mənbələrində Şimali Qafqazın türk tayfaları arasında *Abdel* və *Eftal* kimi şəxs adlarına rast gəlinir. Çin mənbələrində isə Altay dağlarının cənub-qərb yamaclarında yaşayan *Ye-da* (*Eftallar*) türk tayfasından bəhs olunur. Bu, eftalların (yaxud ağ hunların) hunəsilli, ilk vətənlərinin isə Mərkəzi Asiya, daha dəqiq desək, Altay olduğunu göstərir. Bundan başqa, adıçəkilən mənbələrdə Eftallar dövlətində yaşayan *Avar* adlı tayfadan bəhs edilir. Eftalların indiki Əfqanıstan ərazisində yerləşmiş inzibati mərkəzi mənbələrdə Varvalik (Avarların şəhəri) kimi təqdim edilir. Görünür, Avarlar eftalların başqa adı, yaxud bir boyu olmuşdur.

Eftallar Haytal, yaxud Haftal kimi qeyd olunduğu ərəb mənbələrinə görə onlar uzun illər indiki Əfqanıstanın Kabil, Qəznə və Qəndəhar kimi mühüm bölgələrində siyasi hakimiyyəti əllərində saxlamışlar. Hindlilərə və ərəblərə qarşı müharibələrdə üstünlük qazanan eftalların nəsilləri – abdallar, halaçlar, qarluqlar və kəncinə türkləri öz siyasi varlıqlarını orta əsrlərə kimi qoruya bilmişlər.

Orta əsrlərdə türk sülalələrinin Hindistan, Əfqanıstan və İran ərazisində qurduğu dövlətlərin hərbi qüvvələrini ağ hunların törəmələri təşkil edirdi.

## 10. JUJAN İMPERİYASI

Bu dövlət V–VI əsrlərdə mövcud olmuşdur. Onun ərazisi Mərkəzi Asiyanın şimal-şərq torpaqlarını (Monqolustan, Altay, Şərqi Türküstanın şimal-şərq hissəsi, Cunqariya) əhatə etmişdir. Çinlilər onları *Juan-juan*, türklər *Apar* adlandırmışdılar. Eftallarla dost münasibətlərdə olan juan-juanların mənşəyinin avarlara söykənməsi haqqında fikir üstünlük təşkil edir.

Məlum olduğu kimi, *Avar* tayfa adı eftallarda da mövcud idi, ona görə də hər iki dövlət qurucusunun eyni soydan olduğu iddia edilir.

Çinin üzərində üstünlük qazanan juan-juanlar həm də Yüeban və Qaoçe kimi türksoylu tayfaları özlərinə tabe etmiş, Şərqi Türküstandakı şəhərləri özlərindən asılı vəziyyətə salmışlar.

Tərkibində müxtəlif türk və monqol tayfaları olan Juan-juan dövləti mövcud olduğu müddətdə hökmdar Şelun ilk dəfə *xaqan* titulunu qəbul etmişdir.

Jujan dövləti VI əsrin birinci yarısında Monqolustan, Şimali Çin və Koreyaya qədər əraziləri əhatə edən imperiyaya çevrilmişdi.

552-ci ildə bu dövlətin tabeliyində olan Aşina tayfasının türkləri juan-juanların hökmranlığına son qoydular. Bundan sonra juan-juan tayfaları qərbə köç etdilər. Sonralar Şərqi Avropada yaranmış Avar xanlığının əsasını da məhz onların qoyduğu güman edilir.

## 11. HUN İMPERİYALARININ VƏ SONRAKI TÜRK DÖVLƏTLƏRİNİN DÖVRÜNDƏ İQTİSADİYYAT VƏ MƏDƏNİYYƏT

Bu tarixi dövrdə türksoylu sülalələrin hakimiyyəti altında olan müxtəlif dinlərə və mədəniyyətlərə mənsub xalqlar tolerantlıq prinsipi əsasında idarə edilirdi. Avrasiya məkanında türk, monqol, tunquz, ket, samoyed xalqları, çinlilər, toharlar, iranlılar (soqdilər, baktriyalılar, xotanlılar), Hindistan və Qafqaz xalqları, o cümlədən slavyanlar, fin-uqorlar və s. xalqlar yaşayırdılar. Bu xalqların əksəriyyəti (türk, monqol və tunquz xalqları) Altay dil ailəsinə, toharlar, iranlılar, hindlilər, slavyanlar isə Hind-Avropa dil ailəsinə mənsub idilər. Bu tayfa və

etnoslar, uzun müddət bir siyasi sistemdə yaşamaları nəticəsində, tədricən ortaq mədəni dəyərlər yaratmışdılar.

Bu dövrdə türklərin əcdadları, əsasən, çöl və meşəlik bölgələrdə yaşayırdılar. Onların həyatında atların əhəmiyyəti böyük idi. Altay və Tanrı (Tenqri) dağları arasındakı geniş otlaqlarda hunlar çoxlu sayda at ilxıları, qoyun və iribuynuzlu heyvan sürüləri otarır, həmçinin dənli bitkilər becərirdilər.

Yaşadıqları dövrə uyğun olaraq hunlar tərbiyə məsələlərinə böyük diqqət yetirirdilər. Onlar cavan nəsli elə tərbiyə edirdilər ki, övladları cəmiyyətin tələblərinə uyğun böyüsünlər. Daim müharibə təhlükəsi altında yaşadıqlarından döyüş bacarıqlarına və hərbi təlimlərə böyük önəm verirdilər. Uşaqların yaxşı əsgər kimi yetişməsi əsas məqsədlərdən biri idi. Hələ ata minməzdən əvvəl onlar qoyunların belinə minir, quş və siçanları ovlayırdılar. Müəyyən yaşa çatdıqdan sonra isə at yarışlarında iştirak edir, silahla yaxşı davranan mahir atıcılar olurdular.

Qeyd etmək lazımdır ki, türk cəmiyyətində sosial təbəqələşmə mövcud deyildi. Məsələn, müharibədə əsir götürülənlərdən başqa heç kəs qul ola bilməzdi.

Şərqi Avropadan Çinə, Sibirə və Uzaq Şərqə qədər uzanan İpək yolunun şimal xəttinin hunların nəzarəti və himayəsi altında olması Mərkəzi Asiyanın iqtisadi və mədəni inkişafına imkan yaratmışdır. Bu yol hunların Çin, Hindistan, İran, Şərqi Avropa, Şimali Asiya ölkələri ilə mədəni əlaqələr qurmasına vasitə olmuşdur.

Kanquy dövlətinin tərkibinə Aral dənizi hövzəsindən Yeddisuya qədər ərazidə yaşayan oturaq və köçəri xalqlar daxil idi. Bu dövrdə Sırdərya hövzəsindən Talas və Çu çaylarına qədər uzanan, əkinçilik üçün əlverişli olan bölgələrdə Çaç (Daşkənd), Otrar, İsficab (Sayram), Taraz kimi ilk böyük şəhərlər meydana gəldi.

Kuşan imperiyasının və cənub hunlarının (hionitlər, ağ hunlar, eftallar) hakimiyyəti altında olan Mərkəzi Asiyanın cənubunda və Şimali Hindistanda, əsasən, əkinçiliklə məşğul olan oturaq xalqlar yaşayırdılar. Baktra (Bəlx), Mərv, Termiz, Qaşqar, Xotan, Kabil kimi şəhərlər ticarət və mədəniyyət mərkəzinə çevrilmişdi.

Cənub Hun və Eftallar dövlətləri çərçivəsində Şimali Hindistanda (Əfqanıstanın bir hissəsi, Pakistan) və Mərkəzi Asiyanın cənub-qərbində türk, fars və hind mədəniyyətləri sıx

əlaqədə olmuşdur. Hakim sülalələr yerli etiqadlara saygı göstərərək buddizm məbədləri tikdirir, heykəltəraşlıq, saray bəzəmələri və başqa təsviri incəsənət növlərində bu dinin ənənələrini əks etdirirdilər.

Ümumiyyətlə, türk mədəniyyəti ayrı-ayrı etnos və dinlərə qarşı tolerant idi. Bir çox mütəxəssislərin fikrincə, qədim türklərin dini olan Tanrıçılıq (Tenqri) monoteist görüşə çox yaxın idi və bu da sonrakı dövrdə türklərin islamı qəbul etməsini yüngülləşdirmişdi.

## DƏYƏRLƏNDİRMƏ ÜÇÜN SUALLAR

1. Keçmiş Hun imperiyasının ərazisində bu gün hansı dövlətlər yerləşir?
2. Yaşadıqları ərazilərin təbii-coğrafi şəraiti türklərin mədəniyyətinə necə təsir göstərmişdir?
3. Atilla Şərqi Avropada hansı qələbələr əldə etmişdi?
4. Hionit və Eftallar dövlətləri hansı bölgələri əhatə edirdi?

# III BÖLMƏ

# TÜRK XAQANLIQLARI

## ƏSAS MÖVZULAR

1. GÖYTÜRK XAQANLIĞI
2. AVAR XAQANLIĞI
3. XƏZƏR XAQANLIĞI
4. TÜRKEŞ XAQANLIĞI
5. UYĞUR XAQANLIĞI
6. KOÇO UYĞUR DÖVLƏTİ
7. QARLUQ YABQU DÖVLƏTİ
8. QIRĞIZ XAQANLIĞI
9. KİMAK VƏ QIPÇAQ DÖVLƏTLƏRİ
10. QƏDİM TÜRK DÖVLƏTLƏRİNİN SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HƏYATI

*Xəritə 3.1. Türk xaqanlıqları*



## 1. GÖYTÜRK XAQANLIĞI



Bu dövlət 552–744-cü illərdə mövcud olmuş ilk Mərkəzi Avrasiya imperiyası kimi məlumdur. Dövlətin əsası 552-ci ildə Altay dağlarının cənub-qərb ətəklərində köçəri həyat sürən Aşina türk tayfasından olan **Bumın** və **İstəmi** qardaşları tərəfindən qoyulmuşdu. Göytürk hökmdarları *xaqan* titulu daşıyırdı. Dövlətin sərhədləri Uzaq Şərqdən Qara dənizin şimal sahillərinə, Cənubi Sibirdən Xorasana və Şimali Hindistana qədər uzanırdı. İmperiya Çin, Bizans və Sasanilərlə nüfuz dairələri uğrunda mübarizə aparırdı.

Onlarla Mərkəzi Asiya tayfası ilə bərabər, Şərqi Türküstan, Amudərya və Sırdərya hövzəsi, Xorasan və Şimali Hindistanda yerləşən iyirmidən çox vahə dövlətləri Göytürk xaqanlığının hakimiyyəti altında idi. Ötükən bölgəsi (indiki Monqolustan), həmçinin, Suyab və Taraz (Yeddisu), Cabqukənd və Xatunkənd (Daşkənd), Ağ-Tağ və Beşbalıq (Şərqi Türküstan) şəhərləri əsas inzibati mərkəzlər sayılırdı.

Göytürk imperiyası Asiya Hun imperiyasından sonra Mərkəzi Asiyada yaranmış ikinci böyük türk dövləti olub. *Türk* adının tarixdə ilk dəfə dövlət adı kimi işlənməsi məhz bu dövrə təsadüf edir.



*Şək. 3.1. Kül tiginin heykəlinin baş hissəsi. Monqolustan*

VII əsrə aid mənbələrə görə, İdil (Volqa) və Xorasandan Çinə qədər uzanan geniş ərazilər üçün *Türküstan* adı Göytürk xaqanlığı dövründə istifadə olunmağa başlamışdı. Başqa sözlə, Göytürk xaqanlığı dövründə Mərkəzi Asiya və ətrafları bu adla tanınırdı.

Göytürk xaqanlığının **Bumın**, **Muğan xaqan**, **İstəmi yabqu**, **İltəris Qutluq xaqan**, **Qapağan xaqan** və **Bilgə xaqan** kimi məşhur və qüdrətli hökmdarları olub. Muğan xaqanın və İstəmi yabqunun hakimiyyətdə olduğu dövr xaqanlığın ən qüdrətli çağları idi. 682–725-ci illərdə üç xaqana *ayquçı* (baş vəzir) olmuş **Tonyukuk**, ordu başçısı şahzadə **Kül tigin** (731-ci ildə vəfat etmişdir) və bir sıra başqa görkəmli şəxsiyyətlər dövlətin yüksəlişində böyük xidmətlər göstərmişdilər.

Xaqanlıq mərkəzi Ötükən (Orxon vadisi, Monqolustan) olan *Şərqi Göytürk xaqanlığı* və mərkəzi

Yeddisu olan *Qərbi Göytürk xaqanlığı* kimi iki qanaddan idarə olunurdu.

Bumın xaqanın varisləri Cənubi Sibir, Monqolustan, Uzaq Şərq və Şimali Çini *Şərq Göytürkləri* adı altında idarə edirdi.

Orxon çayının vadisində, qədim türklərin müqəddəs saydıqları Ötükən vilayətində Tonyukuk, Bilgə xaqan və Kül tiginin türk xalqına (Türk Bodun) müraciəti həkk olunmuş çoxlu daşlar (bitikdaş) qoyulub. Bu daşların üzərindəki yazılarda vurğulanır ki, ayrı-ayrı türk tayfaları öz birliklərini qorumalıdırlar, onlar yalnız bu birlik sayəsində *Bengü ili* (Əbədi eli) qoruyub saxlayacaq və millət kimi var ola biləcəklər.

Xaqanlığın Altay dağlarından Qara dənizin şimal sahillərinə, Yayikdən (Ural) və İdildən (Volqa) Şimali Hindistana qədər olan hissəsini isə İstəmi yabqunun nəsilləri *Qərb Göytürkləri* adı altında idarə edirdi. Dövlət Yeddisu bölgəsindəki on türk soyunun birliyindən yarandığına görə Qərbi Göytürk xaqanlığı rəsmi olaraq *On ok* (On ox) adlandırılmışdı.

Qərbi Göytürk xaqanlığı Çaç (Daşkənd) bölgəsində özünün tunc pullarını zərb etdirmişdi. Bu pulların üzərində soqdi yazısı ilə *Türk xaqan (etno-siyasi ad)*, *Tardu xaqan*, *Tun cabqu-xaqan* kimi hökmdar adları və *cabqu*, *cabqu-xaqan* və *xaqan* titulları yazılmışdır.

Göytürklər Çinin Suy və Tan sülalələri, Bizans imperiyası və Sasanilər kimi o dövrün ən böyük dövlətləri ilə əlaqələr qurmuşdular. Onlarla bəzən dinc münasibətlər saxlamış, bəzən də



*Şək. 3.2. Göytürk atlıları. Şimal-Qərbi Çində tapılmışdır. Mixo muzeyi. Yaponiya*



*Şək. 3.3. Qərbi Göytürk xaqanlığının "yabqu" titulu ilə zərb olunmuş pul. VI əsrin sonu. Daşkənd*



*Şək. 3.4. Kara-Kaba kurqanından tapılmış qədim türk qopuzu. VII–VIII əsrlər. Altay, Qazaxıstan*

müharibələr aparmış və bir qayda olaraq, qələbə çalmışdılar. Xaqanlıq Çindəki Suy sülaləsini bir müddət özündən asılı etmiş və xaqanlara Çin sarayından xatunlar göndərilmişdi. Sasanilərlə Göytürklər əvvəlcə dost münasibətində olmuş, lakin türk tacirlərinin apardığı mallar farslar tərəfindən yandırıldıqdan sonra onların arasında müharibə başlamışdı. Göytürk orduları Herata (Əfqanıstan) və İsfahana (İran) qədər irəliləmişdi.

Xaqanlıq və Bizans arasında isə münasibətlər, əsasən, yaxşı olmuşdu. Onlar qarşılıqlı olaraq bir-birinə elçilər göndərmiş, Sasanilərə qarşı birgə vuruşmuşdular. İstəmi yabqu və onun nəvəsi Tun yabqu xaqanın dövründə Göytürk elçiləri davamlı olaraq Bizansın paytaxtı Konstantinopola (İstanbul) gedib-gəlmişlər. Krım və Azərbaycan torpaqları da qısa zaman ərzində Göytürk sərhədləri daxilində olmuşdu.

Qərb Göytürklərin ərazilərinə daxil olan Amudərya və Sırdərya çayarası və ona bitişik ərazilərdə VII–IX əsrlərdə Çaç (Daşkənd) tiginləri, Fərqanə Aşina sülaləsi, Toharıstan yabquları və Kabil tigin-şahları kimi sülalələr hökmranlıq etmişdilər. Onların mənşəyi Aşina sülaləsinə gedib çıxır. Bu dövrdə Xəzər dənizinin şimal-şərqində yerləşən Dehistan, Gürqan və Mərv (indiki Türkmənistan) torpaqları da Göytürklərin tabeliyində idi.



*Şək. 3.5. Kül tigin kitabəsi. Orxon vadisi. Monqolustan*

**Kül tigin kitabəsi**

Yuxarıda mavi səma, aşağıda qara torpaq yaradıldığında onlar arasında insan oğlu yaradıldı. İnsan oğlunun üzərində əcdadlarım Bumın xaqan və İstəmi xaqan hakim oldu. Onlar türk xalqının dövlətini və adət-ənənələrini qoruyub nizama saldılar.

Tanrı kimi göylərdən doğulan mən, Bilgə xaqan indi türklərə hakim oldum. Sözlərimi sonadək dinləyin!

Məndən sonra gələn kiçik əqrəbələrim, bütün soyum, mənim oğullarım, mənimlə ittifaqda olan tayfalar və xalqlar, sağdakı Şad, Apa bəyləri, soldakı Tarxanlar, Buyruq bəyləri, Otuz Tatar.., Doqquz Oğuz bəyləri! Sözlərimi yaxşıca eşidin, ağılla dinləyin: Şərqdə günçıxandan cənubda günortasına, qərbdə günbatandan şimalda gecəyarısına qədər hüdudların daxilində olan millət həmişə mənə tabedir!..

Türk xaqanı Ötükən qara camaatın arasında oturmuşsa, vilayətdə çətinlik olmaz. Şərqdə Şantunq ovalığına qədər qoşun yeritdim, dənizə çatmağıma az qaldı. Cənubda Doqquz Ərsinə (qəbilələrin adı) qədər qoşun yeritdim, Tibetə çatmağıma az qaldı. Qərbdə İnci çayını (Sırdərya) keçərək Dəmir Qapıya qədər (Amudərya, Baktriya), şimalda Yir Bayırku ölkəsinə qədər ordu göndərdim.

*Ergin M. "Orxon abidələri". İstanbul, 2013, səh.12*

**Tonyukuk kitabəsi**

Türk Bögü xaqan üçün... Türk Bilgə xaqan üçün... Qapağan xaqan üçün... gecələr yatmadım, gündüzlər dincəlmədim. Qızıl qanımı tökərək, qara tərimi axıdaraq gücümü bütünlüklə ona sərf etdim. Öncülləri yenə uzaqlara göndərdim. Gözətçiləri çoxaltdım, ram etdiyim düşmənləri gətirdim. Xaqanım ordunu yürüşə apardım. Göylərin mərhəməti ilə türk millətinin içinə mən zireh geyinmiş düşmən gətirmədim, damğalı atları qorumadım.



*Şək. 3.6. Tonyukuk kitabəsi. Orxon vadisi. Monqolustan*

Əgər İltəris xaqan döyüşləri udub sərvət əldə etməsəydi, qazanmasaydı, onun ardınca mən də döyüşləri udub sərvət qazanmasaydım, dövlət və millət var olmazdı. O, döyüşlərdə qələbə və sərvət əldə etdiyi üçün, ardınca da mən döyüşdə qalib gəlib sərvət qazandığım üçün dövlət əldə etdiyi dövlət, millət oldu.

Mən artıq yaşlandım, ulu oldum. Hər hansı bir məmləkətdə xaqanı olan bir millətin mənim kimi vəziri olsa, o millətin nə dərdi ola bilər?

Mən, müdrik Tonyukuk bunları Türk Bilgə xalqı üçün yazmağı əmr etdim.

*Ergin M. "Orxon abidələri". İstanbul, 2013, səh.42*

***Orxon yazılarından götürülmüş bu mətnlərə əsasən, sizcə, dövlətin güclü olması üçün dövlət başçısı nə etməlidir?***

**Ergenekon dastanı**

Fəzlullah Rəşidəddinin XIV əsrdə yazdığı "Cəmi-ət-təvarix" ("Tarixlərin cəmi") adlı əsərinin "Türk və monqol qəbilələrinin tarixi" bölməsində və Əbülqazi Bahadır xanın "Şəcərə-i-türk" adlı əsərində Çin salnamələrindəki Göytürk Törəyiş əfsanəsini xatırladan belə bir rəvayət verilir: "Oğuz xanın nəslindən olan İl xanın hakimiyyəti dövründə düşmənlərin hökmdarı Sevinc xan müharibəyə başladı.

Düşmənlər İl xanın ölkəsindəki hər kəsi öldürdülər. Yalnız İl xanın kiçik oğlu Kıyan, xanımı Nüküz və qardaşı oğlu qaçıb canlarını qurtara bildilər. Onlar dağ qoyunlarının açdığı cığırla gedib uca dağda dar bir keçidə çatdılar. Bu yeri "mədən yeri" mənasını verən *Ergene Kon* adlandırdılar.

Dörd yüz il sonra onların sayı və mal-qara sürüləri o qədər çoxaldı ki, artıq Ergenekona sığmadılar. Vaxtilə əcdadlarının buraya gəldikləri keçidin yeri isə unudulmuşdu. Bir dəmirçi dedi ki, əgər dağın dəmir hissəsi əridilsə, yol açıla bilər. Onlar dəmirin olduğu yerə çoxlu odun və kömür yığıb ocaq qaladılar. Dəmir əridi və yüklü bir dəvənin keçə biləcəyi qədər yol açıldı. İl xanın nəslindən olan türklər yenidən güclənmiş halda öz yurdlarına döndülər və ulu babalarının qisasını aldılar. Ergenekondan çıxdıqları günü isə hər il yazın əvvəlində bayram kimi qeyd etməyə başladılar.

*Turan O. "Türk Cahan Hakimiyyəti Məfkurəsi". İstanbul, 2014*

***Ergenekon dastanında bəhs edilən hadisə (dəmir dağdan yolun açılması) əslində nəyi simvolizə edir? Araşdırın.***

## 2. AVAR XAQANLIĞI



Bu dövlət VI–IX əsrlərdə mövcud olmuşdur. Avarların imperiyası Şərqi Avropada qalmış Hun tayfalarının Mərkəzi Asiyadan gələn digər türk nəsilləri ilə qaynayıb-qarışması nəticəsində yaranmışdı. Dövlətin qurucusu **Bayan xaqandır**. Avar xaqanlığının sərhədləri Dunay çayının orta hövzəsi, Transilvaniya, Panoniya (Macarıstanın keçmiş adı) və Karpat dağlarını əhatə edirdi. Avarlar Bizans imperiyasına qarşı uğurlu müharibələr aparmış, bir sıra german və slavyan tayfalarını özlərinə tabe etmişdilər.

Avar xaqanlığının əsasını qoyanlar, çox güman ki, juan-juanlar və ağ hunlarla (eftallar) qohum olmuşlar. Belə ki, *Avar* tayfa adına bu iki dövlətə aid mənbələrdə rast gəlinir.

Avarların Mərkəzi Asiyadan gəlmələri və hunlardan törəmələri faktını o dövrün bəzi mənbələri də təsdiq edir. Avar xaqanlığı dövründə Şərqi Avropada türk mədəniyyətinin təsiri artmışdı. İndiki Macarıstan, Avstriya və Almaniyanın cənub-qərbində yaşayan xalqların formalaşmasında bu dövrün mühüm rolu olub. Xüsusilə fin-uqor və türk xalqlarının uzun əsrlər ərzində qaynayıb-qarışması nəticəsində formalaşmış macar xalqı üçün bu dövr ayrı bir tarixi əhəmiyyət daşıyır.



*Şək. 3.7. Qızıl qab-qacaq. Sent-Mikloş dəfinəsi. Avar xaqanlığı dövrü. Macarıstan*

Arxeoloji qazıntılar nəticəsində Macarıstanda və yanaşı bölgələrdə Avar xaqanlığı dövrünə aid çoxlu sayda maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapılmış qızıl və gümüş qablar Mərkəzi Asiya türk üslubunda işlənmişdir (məsələn, Nadi Sent-Mikloş məskənindən tapılmış sərvətlər). Maraqlıdır ki, bu əşyaların üzərində qədim türk yazısına çox bənzəyən yazılar vardır.

## 3. XƏZƏR XAQANLIĞI



Bu dövlət VII–X əsrlərdə mövcud olmuşdur. Dövlətin əsası Aşina nəslinin Qərbi Göytürk xaqanlığını idarə edən nümayəndələri tərəfindən qoyulmuşdur. Mərkəzi əraziləri Aşağı Volqaboyu və Xəzər dənizinin şimal-qərb sahillərini əhatə etmişdir.

Müxtəlif dövrlərdə dövlətin paytaxtı tarixi Xanbalıq (Səməndər, Dağıstan), İdil, Bələncər və Sarkel şəhərləri olmuşdur.

Ən qüdrətli çağlarında Xəzər xaqanlığı Qara dənizin şimalından Aral dənizinə, Azərbaycandan Ural dağlarına qədər uzanan ərazilərə hakim idi. Onun ərazisində türk, slavyan, Qafqaz, İran və fin-uqor (madyarlar) etnosları yaşayırdı. Qərbi

*Xəritə 3.2. Xəzər xaqanlığı*




Avrasiyanın adıçəkilən ərazilərində Xəzər xaqanlığının təxminən üçəsrlik hökmranlığı bu bölgədə türk əhalisinin sayının daha da artmasına səbəb oldu. Xüsusilə Azərbaycan türklərinin, qumuq, qaraçay və balkarların, o cümlədən Krım tatarlarının formalaşmasında Xəzər xaqanlığı mühüm rol oynamışdır.

İ.Kafesoğlu qeyd edir ki, VII–IX əsrlər ərzində qüdrətli orduya malik olan Xəzər dövləti "Xəzər dincliyi"ni təmin etmişdi. Bu zaman Şərqi Avropada əmin-amanlıq, dinclik və təhlükəsizlik hökm sürürdü. Xaqanlığın geniş ərazisində müsəlmanlar, xristianlar, yəhudilər və köhnə türk dininə etiqad edənlər yanaşı yaşayırdılar.

Xaqanlığın hakim zümrəsi yəhudiliyi qəbul etmişdi. Ərəb mənbələrində Xəzər xaqanlarının ölkəni ədalətlə idarə etdikləri xüsusi qeyd olunur. Ərəb tarixçisi Məsudinin sözlərinə görə, ölkədə yeddi baş hakim vardı, onlardan ikisi müsəlmanların, ikisi xristianların, ikisi yəhudilərin və biri də qədim türk dininə – tanrıçılığa etiqad edənlərin və rusların məhkəmə işlərinə baxırdı. Xaqanlar dini işlərə müdaxilə etmirdilər, Xəzər şəhərlərində bütün dinlərin ayin və mərasimləri sərbəst keçirilirdi. Müxtəlif millətlərə qarşı apardığı düşünülmüş siyasəti və dini tolerantlığı sayəsində xəzərlər Şərqi Avropada yüz ildən çox mövcud olan imperiya yaratmış və onu uğurla qoruya bilmişdilər.

Xəzər mədəniyyəti rus və macar xalqlarının mədəniyyətinə təsir göstərmişdi.

Dövrümüzdə arxeoloqlar Şimali Qafqazda, o cümlədən Kuban və Don çaylarının hövzələrində qədim şəhərlərin xarabalıqlarından türk maddi mədəniyyət nümunələri tapmışlar. Bunlar Göytürk və xüsusən də Xəzər xaqanlığı dövrünə aid, üzərində türk-run yazıları olan saxsı və metal məmulatlar, daş heykəllər, qızıl və gümüşdən düzəldilmiş müxtəlif sənət əsərləridir. Həmin dövrün canlı izləri qaraçaylılar, balkarlar, qumuqların və Şimali Qafqazın digər türk xalqlarının mədəniyyətində bu günə kimi qalmaqdadır. Qaraçaylılar və balkarlar arasında islamaqədərki dövrün inanclarına aid *Teyri* (Tenqri) və *Umay Ene* (qədim türk ilahəsi Umay) haqqında rəvayətlərin olması buna parlaq sübutdur.

## 4. TÜRKEŞ XAQANLIĞI

Bu dövlət Qərbi Göytürk xaqanlığının davamçısı kimi meydana gəlmiş və 699–766-cı illərdə mövcud olmuşdur. Əsası *On ox* tayfa birliyinə daxil olan Türkeş tayfasına mənsub **Uçele** (Yüzlüg) **xaqan** (699–705) tərəfindən qoyulmuşdur. Türkeş xaqanlığının paytaxtı Suyab şəhəri olmuşdur. Xaqanlığın sərhədlərinə Yeddisu və onun ətrafları daxil idi. Ən məşhur hökmdarı **Sulu xaqan** (715–738) olmuşdur. Xaqanlıq əvvəllər



*Şək. 3.8. Qədim türk xaqanlıqları dövrünə aid daş heykəl. Jeysan ətrafları (Qazaxıstan)*



*Şək. 3.9. Qədim türk əsilzadələri.*
*Pəncikənd sarayının divar rəsmi.Tacikistan*

Qərb Göytürklərindən asılı vəziyyətdə olmuş vahə dövlətləri üzərində dəfələrlə siyasi nüfuzunu saxlamışdı. Türkeş hökmdarları üzərində soqdi yazısı ilə *Qüdrətli Türkeş xaqan* yazılmış tunc pullar zərb etdirmişdilər.

Türkeş xaqanlığı dəfələrlə çinlilərə və ərəblərə qarşı müharibələr aparmış və qələbə çalmışdı. Türkeşlərin müttəfiqi Qırğız xaqanlığı idi.

Ərəblərlə çinlilər arasındakı Talas döyüşündə (751-ci il) türk-qarluqların ərəblərə köməyi nəticəsində Çin qoşunları darma-dağın olmuşdu. Bu hadisədən sonra islam Mərkəzi Asiyada geniş yayılmağa başladı. Talas döyüşündə əldə olunan qələbə Mərkəzi Asiyada çinlilərin nüfuzunu zəiflətdi. Xorasanda və Mavəraünnəhrdə yaşayan türk tayfaları islamı ilk qəbul edənlərdən olmuş, bundan sonra bu din Xəzər xaqanlığının və Volqa Bulqarlarının ərazilərindəki türklər arasında da sürətlə yayılmağa başlamışdı.

## 5. UYĞUR XAQANLIĞI



Qədim türk etnoslarından olan uyğurların əsasını qoyduğu Uyğur xaqanlığı Şərqi Göytürk xaqanlığının varisi idi. VIII–IX əsrlərdə mövcud olmuş xaqanlığın siyasi mərkəzi Ötükən düzənliyində yerləşən Ordu şəhəri idi.

*Xəritə 3.3. Uyğur xaqanlığı*




Dövlətin tərkibinə Monqolustan, Uzaq Şərq, Cənubi Sibir və Şimali Çin torpaqları daxil idi. Qurucusu **Qutluq Bilgə Gül xaqandır**.

Uyğur xaqanlığı Çinə qarşı uğurlu müharibələr aparmış, monqol və mancurəsilli tayfaları tabe etmişdi.

Uyğur xaqanlığının tarixində **Moyon-Çur** (747–759), **Bögü xaqan** (759–780) və **Bağa Tarkan** (780–789) kimi məşhur hökmdarlar olmuşdur. Bögü xaqanın hakimiyyəti dövründə xaqanlığın Çin üzərində nüfuzu artmış, türk tacirləri Çin paytaxtında sərbəst ticarət aparmaq imkanı əldə etmişdilər.

Bögü xaqanın dövründə manilik dini geniş yayılmışdı. Ordubalıq (Qarabalqasun) şəhərində Mani məbədi tikilmişdi.

Uyğur xaqanlığından əvvəl Göytürk run əlifbasından istifadə olunmuşdur. Göytürk run hərfləri ilə yazılan Şine-Usu (Moyon-Çur) və Qarabalqasun (Ordubalıq) abidələri Uyğur xaqanlığının tarixindən bəhs edir. Uyğurlar sonralar soqdi əlifbası əsasında yaradılmış uyğur əlifbasından istifadə etməyə başlamışlar. Orta əsr mənbələrində *türk bitikçiləri* adı ilə tanınan mirzələr bu əlifba ilə əsərlər yazmışlar.

**Qansu (Kançou) Uyğur dövləti.** Uyğur xaqanlığı dağılandan sonra uyğurların bir hissəsi indiki Çinin şimal-qərbində yerləşən Qansu vilayətinə gələrək burada Qansu Uyğur dövlətini qurmuşlar. Uyğurlar özlərinin dövlətçiliyini təkcə Qansuda

deyil, həm də Turfan vahəsində (Koço dövləti) bərpa etmişlər. Qansu uyğurları Çinlə ticarət əlaqələri yaratmışdılar. 940-cı ildə onlar əvvəlcə Şimali Çinə hakim olan kitanların (qarakitay), sonra tanqutların, daha sonra isə Çingiz xanın (1226) idarəsi altında monqolların hakimiyyətini qəbul etmişdilər.

## 6. KOÇO UYĞUR DÖVLƏTİ

Bu dövlət IX əsrdən başlayaraq XIII əsrədək, monqolların hakimiyyəti altına düşənədək mövcud olmuşdur. Göytürk və Uyğur xaqanlıqlarının varisləri tərəfindən qurulan dövlət Şərqi Türküstanın Turfan və Qumul bölgələrini əhatə edirdi. Bura, həmçinin Dunxuan ərazisi (Şimal-Qərbi Çin) daxil idi. Dövlətin qurucusu **Pan tigindir**.

Burada qədim türk mədəniyyəti ilə yanaşı, manilik və buddizm inanclarının inkişaf etdiyi mədəni mühit yaranmışdı. Koço Uyğur dövləti özündən sonra buddizm dininə aid məbədlər, divar rəsmləri, heykəllər, qədim türk, soqdi və pəhləvi dillərində yazılmış epiqrafik abidələr yadigar qoymuşdur. Din dəyişməsi təsiri altında bir sıra türk tayfaları tez bir zamanda oturaq həyat tərzinə keçməyə başladılar. Uyğur əsilzadələri yeni dinlərini xalqa öyrətmək məqsədilə çoxlu sayda kitab yazmışdılar. Bu kitabların çap edilməsində mətbəənin rüşeymləri sayıla biləcək qəliblərdən istifadə olunmuşdur.



*Şək. 3.10. Koço Uyğur dövrünə aid incəsənət nümunələri*

Oturaq mədəniyyətə malik olan bu dövlət 500 il mövcud olmuşdur. Manilik, buddizm, xristian, Çin, yerli tohar və qədim türk mədəniyyətlərinin qaynayıb-qarışması nəticəsində rəngarəng və yüksək mədəniyyət ortaya çıxmışdır. Əsrlərlə Çin tacirləri və qaçqınları Koço Uyğur dövlətinə gəlib yerləşmiş, Ön Asiya, İran və Mərkəzi Asiyanın cənub-qərb sərhədlərindən gələn fars və soqdi tacirləri bu dövlətin inkişafına öz töhfələrini vermişlər. Bunu qədim mağaraların divarlarına cızılmış təsvirlər də sübut edir. Bu rəsmlərdə yerli türk və toharlarla bərabər, Çin, Soqd, Ön Asiya və Hindistandan olan insanlar təsvir edilmişdir. Müxtəlif toplumlara xas olan insanların öz ənənələri, geyimləri və mədəni xüsusiyyətləri ilə bir arada təsvir edilməsi Koço Uyğur dövlətinin tolerant olduğunu göstərir.

## 7. QARLUQ YABQU DÖVLƏTİ

Qarluq Yabqu dövlətinin əsasını qarluq türkləri təşkil etmişlər. Onlar əvvəl Orxon (Monqolustan), Altay və Tarbaqatayda (Şərqi Qazaxıstan) yaşamış, sonralar cənub-qərbə köç edib, 766-cı ildə Yeddisuda Türkeş xaqanlığının hakimiyyətinə son qoymuş və Mərkəzi Taraz (Talas) şəhəri olan dövlət (yabquluq – hökmdarları “yabqu” titulu daşıyan dövlət) yaratmışlar.

Qarluq şəhərləri Taraz və Suyab inzibati, iqtisadi və mədəni mərkəzlər rolunu oynayırdı. Yeddisu şəhərlərində müsəlman türklərin sayı artmışdı. Bu dövrdə Mərkəzi Asiyanın şərq hissəsində Uyğur xaqanlığının olması səbəbindən Qarluq Yabqu dövləti xaqanlıq səviyyəsinə yüksələ bilmirdi.

VIII əsrin ortalarında Yeddisuda qarluqların hakimiyyəti güclənməyə və möhkəmlənməyə başlayır. Bunu Yeddisunun qədim şəhər xarabalıqlarında tapılmış və üzərində soqdi əlifbası ilə “Qarluq xaqan” sözləri yazılmış mis pullar da sübut edir.



*Şək. 3.11. Üzərində “Qarluq xaqan” yazılmış mis pul. Yeddisu. VIII – IX əsrlər*

## 8. QIRĞIZ XAQANLIĞI





*Şək. 3.12. Qırğız xaqanı Barsbəy*

V–VI əsrlərdə qırğızlar Yeniseyin yuxarı axarında öz dövlətlərini yaratdılar. 555-ci ildə onlar Türk xaqanlığından asılı vəziyyətə düşdülər. 630-cu ildə xaqanlıq dağılandan sonra qırğızlar yenə öz müstəqilliklərini bərpa etdilər və 648-ci ildə özlərinin ilk səfirlərini Çin hökumətinə göndərdilər.

VII əsrin sonu – VIII əsrin əvvəlində qırğızların başında güclü öndər Barsbəy durdu. Göytürklər yenidən müstəqillik qazandıqdan sonra qırğızlar onların hakimiyyəti altına keçdilər. Bununla belə, xaqanlığın başında yenə də qırğız xaqanı dururdu və o, yavaş-yavaş güc toplayırdı. VIII əsrin 20–30-cu illərində Qırğız xaqanlığının müstəqilliyi bərpa olundu.

840-cı ildə qırğızlar Ötükəndə Uyğur dövlətini məğlubiyyətə uğratdılar və bunun nəticəsində, qüdrətli dövlət – Böyük Qırğız xaqanlığı yarandı. Bu dövr Yenisey qırğızlarının siyasi qüdrətinin, hərb sənətinin ən yüksək zirvəsi oldu. Tarixçi alimlər bu dövrü “Qırğız xaqanlığının epoxası”, qırğız tarixinin ən möhtəşəm məqamı adlandırırlar. 840–924-cü illərdə Qırğız xaqanlığının ərazisi Mancuriyanın qərb sərhədlərindən Tanrı dağına qədər uzanırdı. Bu dövlət Böyük İpək yolunda güclü nüfuza malik idi və bir sıra başqa ölkələrlə, ilk növbədə, Çində



Özünün paleoqrafik, dil və məzmun xüsusiyyətlərinə görə (Monqolustanda tapılmasına baxmayaraq) alimlər tərəfindən Yenisey kitabələrinə aid edilən Suciyn kitabəsi 1900-cü ildə Suciyn Davan dağının yaxınlığında yerləşən ərazidə Q.İ.Ramstet tərəfindən aşkar edilmişdir. Kutluq Baqa Tarkan Öqe hökmdarın “buyruğu” (naziri) olmuş Buyla Qutluq Yarqan adlı şəxsin xatirəsinə ucaldılmış bu kitabədə həmin şəxs öz mənşəyinə bu sözlərlə işarə edir: “Mən qırğız oğlu qırğızam” və öz qəhrəmanlıqlarından və sərvətlərindən söz açaraq oğullarına dövlətə xidmət etməyi vəsiyyət edir. 11 sətirdən ibarət bu daş kitabənin IX əsrin ortalarında, Qırğız xaqanlığı dövründə ucaldıldığı hesab olunur.

*Şək. 3.13. “Mən – qırğız oğlu qırğızam...” sözləri yazılmış Suciyn Davan kitabəsindən. Monqolustan*

Tan sülaləsi ilə əlaqə saxlayırdı. Həmin dövr qırğız mədəniyyətinin yüksəliş dövrü oldu. Bu dövrün hadisələri türk mədəniyyətinin ən möhtəşəm, həcminə və məzmun zənginliyinə görə nadir əsərlərindən biri olan "Manas" dastanında xatırlanır. Bu zaman qırğızlarda türk bitik yazısı geniş yayılmışdı. Metallurgiyanın yüksəlişi baş vermişdi. Cürbəcür silahlar, bel və qoşqu ləvazimatları, qab-qacaq, qızıl və gümüşdən hazırlanmış bəzək əşyaları başqa köçəri mədəniyyətlər üçün örnək olmuşdu.

Cənubi Sibirə aid Çin salnamələrində Qırğız xaqanlığı dövründə kənd təsərrüfatının inkişaf etdiyi qeyd olunur. Bu dövrdə bir sıra şəhərlər salınmışdı.

Xaqanlıq Çin, Tibet və başqa dövlətlərlə elçilik mübadiləsi edirdi. Bu münasibətlər Yenisey (Cənubi Sibir) bölgəsində tapılmış bir neçə yazılı türk mənbələrində əks olunmuşdur.

X əsrdə Böyük Qırğız xaqanlığı zəifləyib xırda hakimliklərə parçalanmağa başladı. XIII əsrdə qırğızlar monqolların hakimiyyəti altına keçdilər. Qırğızların bir hissəsi Cənubi Sibirdə qaldı, o biri hissəsi isə Altay dağlarının cənub-qərb bölgələrinə, həmçinin IX–XIII əsrlərdə bir neçə axınla Tanrı dağın şimal-qərb rayonlarına köç etdi.



*Şək. 3.14. Altınkol kitabəsi. Qırğız xaqanlığı*

*Xəritə 3.4. Böyük Qırğız xaqanlığı*



## 9. KİMAK VƏ QIPÇAQ DÖVLƏTLƏRİ

*Kimak dövləti* IX–X əsrlərdə Qərbi Altay və Balxaş gölünün şimal-şərqində yaşayan kimak türkləri tərəfindən qurulmuşdu. Bu dövlət cənubda və cənub-qərbdə Qarluq və Oğuz yabquluqları ilə, şimal-şərqdə isə Qırğız xaqanlığı ilə həmsərhəd idi. Bu dövrdə Mərkəzi Asiyanın adıçəkilən bölgələrində şəhər həyatı canlanmış, İpək yolunun Altay və Sibirə gedən xəttində beynəlxalq ticarət, xüsusilə xəz ticarəti canlanmışdı.

Kimak türkləri də Göytürk xaqanlığına xas olan qədim türk dövlətçilik ənənələrini davam etdirmişdilər. Bu tarixi dövrdə Sibirə və Uzaq Şərqə yollanan müsəlman tacirlər kimakların ölkəsindən keçirdilər. Ticarət karvanları ilə şimal ölkələrinə səyahət edən ərəb və fars coğrafiyaçıları kimaklar haqqında çoxlu məlumatlar qoyub getmişlər. Bu məlumatlara görə, soyuq və sərt iqlim şəraitində yaşamalarına baxmayaraq, kimaklar yüksək mədəniyyətə malik olmuş, şəhər və kəndlər salmışdılar.

*Qıpçaq dövləti* isə XI–XIII əsrlərdə Avrasiya çöllərinin müəyyən bir hissəsini, yəni indiki Qazaxıstanın ətraf və çöl ərazilərini əhatə edirdi. Kimak xaqanlığı zəiflədikdən sonra qıpçaqlar onun ərazisində hakimiyyəti ələ keçirdilər. Sonralar, XI əsrin 2-ci rübündən başlayaraq, onlar Aral və Xəzər dənizləri arasındakı oğuzların yerini tutdular. *Mefedet el-Quzz* (Oğuz çölü) termini əvəzinə *Dəşti-Qıpçaq* (Qıpçaq çölü) termini işlənməyə başladı. XI əsrin ortalarına doğru çoxsaylı qıpçaq tayfaları İdil (Volqa) çayını keçib qərbə doğru hərəkət etdilər. Bundan sonra onlar Bizans və Bolqarıstan ərazisinə hücum edərək 1071–1080-ci illərdə Dunay çayının sahillərinə çatdılar.

Bəzi qıpçaq tayfaları digər türk tayfaları ilə birlikdə Kiçik Asiyaya yayılmağa başladılar.

Beləliklə, XI–XII əsrlərdə Altay dağlarından Karpat dağlarına və Dunay çayına qədər uzanan minlərlə kilometrlik ərazidə yaşayan tayfalar *Qıpçaq* adlandırıldılar. Bununla belə, bu geniş məkanda yalnız bir mərkəzləşmiş dövlət deyil, bir neçə qıpçaq xanlığı vardı. Qıpçaq xanlıqları arasında ən nüfuzlusu *İl-Börili* sülaləsi idi. Bu sülaləyə mənsub olan hökmdarlardan **Abar xanın** adı tarixi əsərlərdə çəkilir.

XI əsrin sonuna doğru qıpçaqlar, əvvəllər olduğu kimi, Manqışlaqda və Xəzər dənizinin şərq sahilində hökmranlıq edirdilər. 1096-cı ildə, çox güman ki, İl-Börili sülaləsi tərəfindən idarə olunan Qıpçaq Birliyi **Uluq xanın** başçılığı altında Xarəzmə

yürüş etmiş, lakin Səlcuqlular onların Manqışlaqa geri dönmələrinə nail olmuşdular.

Çingiz xanın qoşunlarının bu torpaqları zəbt etməsi ilə qıpçaq bəyliklərinin varlığına son qoyulmuşdur. Sonralar bir sıra türk-monqol tayfaları ilə qarışan yerli qıpçaq tayfaları Qızıl Ordu və digər Çingizi sülalələrinin idarəçiliyinə qatılaraq bölgənin siyasi və mədəni həyatında mühüm rol oynamışdılar.

Bizanslılar qıpçaqları *kun*, *kuman*, ruslar isə *polovets* adlandırırdılar. Bir sıra qıpçaq nəsilləri, Toksoba və Borcoğlu tayfaları başda olmaqla, Cənubi Rusiya çöllərindən və Qara dəniz bölgəsindən Bizans sərhədlərinə, yəni Şərqi Avropaya qədər köç etmişdilər. Qıpçaq türklərinin arasında adları Bizans mənbələrində *Uz*, qədim rus salnamələrində *Torki* (Türk) kimi çəkilən Oğuz soyundan olan türklər də vardı. Onlar indiki Ukrayna ərazisində özlərinin siyasi qurumlarını yaratmışdılar.

Qərb qıpçaqları arasında olan *uz/torkilərin* bir hissəsi digər türk nəsilləri kimi, zamanla Ukrayna və onun ətrafında yaşayan yerlilərlə qaynayıb-qarışaraq slavyanlaşmış, bir hissəsi isə muzdlu əsgər kimi Bizans imperatorlarına xidmət etmişdi. Onlar sonralar Səlcuqlu–Bizans müharibələri zamanı öz qan qohumları olan oğuzlar tərəfə keçərək Səlcuqluların Anadolunu tutmasına yardımçı olmuşdular. Uzların bir hissəsi isə Mərkəzi Asiyaya geri qayıtmışdı. Özbəklər arasında bu günə kimi işlənən *Uz* və *Kara Uz* kimi soyadlar o dövrdən qalmışdır.

*Xəritə 3.5. Kimak xaqanlığı*



*Xəritə 3.6. Qıpçaq dövləti*




B.e. I minilliyinin ortalarından türklərin Şərqi Avropaya davamlı köçləri qıpçaqların Qərbə irəliləmələri ilə daha da sürətləndi. IV əsrdə hunlardan başlayaraq, xüsusilə Macarıstana və onun ətrafına avarlar, bulqarlar, on oqurlar, peçeneqlər, kunlar, kumanlar (qıpçaqlar) kimi türk tayfalarının gəlib yerləşməsi ilə burada türklərin sayı artdı. Macarıstan ərazisində fin-uqorlarla adıçəkilən türk tayfalarının qarışmasından indiki *macar* (madyar) xalqı formalaşdı. Macar dövlətinin adı *Hunqa-*



*Şək. 3.15. Kimak dövrünə aid qəbir abidəsi. VIII–IX əsrlər. Yereymentau, Qazaxıstan*

*riya* isə türkcə *Hun*, yaxud *On oqur* etnik adlarından meydana gəldi.

Bizanslıların *türk* sözünü ilk olaraq macarlar üçün istifadə etmələri də maraq doğurur. Bizans mənbələrində *Tourkia* sözü Macarıstan bölgəsinə, *türk* sözü isə macarlara aid edilirdi.

Orta əsr macar tayfa adlarının bir neçəsinin türk tayfa adları ilə üst-üstə düşməsi ilə bərabər, bu gün də macar dilində çoxlu sayda türk sözlərinin işlənməsi o dövrün izləridir. Məsələn, *Gyurmatı*, *Yeno*, *Kese* kimi macar tayfa adları başqırd türklərində *Yurmatı*, *Eney*, *Keze* şəklində qorunmaqdadır. Qazax, qaraqalpaq və qırğız türklərində *Janay*, özbək və noqay türklərində *Majar* tayfa adının olması da türklərlə macarlar arasında tarixi qarşılıqlı əlaqələrin əyani sübutudur.

Qıpçaq dövlətinin yaranması və Avrasiya çöllərində onlarla qıpçaq tayfasının məskunlaşması türk dilinin qıpçaq ləhcəsinin geniş yayılmasına səbəb oldu. Sonradan ortaya çıxan və qazax, qırğız, tatar, başqırd, qaraqalpaq, noqay, özbək dilinin qıpçaq dialekti, qumuq, qaraçay-balkar dilləri qıpçaq ləhcəsi əsasında formalaşmışdır.

Qıpçaqlar, həmçinin Azərbaycan xalqının etnogenezinə də öz töhfələrini vermişlər.





*Şək. 3.16. Qıpçaq heykəlləri. XI–XIV əsrlər. Dövlət Tarix Muzeyi. Moskva, Rusiya*

## 10. QƏDİM TÜRK DÖVLƏTLƏRİNİN SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HƏYATI

Qədim türk xaqanlıqları dövründə onların nəzarəti altında olan ərazilərdə müxtəlif dillərdə danışan bir çox xalqlar: türklər, monqollar, çinlilər, toharlar, soqdilər, baktriyalılar, hindlilər, farslar, Qafqaz xalqları, yunanlar, slavyanlar və onlarla başqa tayfa və millətlər yaşamışdır. Fərqli mədəniyyətlərə sahib olan toplumların bir dövlətdə yaşaması onların ortaq dəyərlərinin meydana çıxmasına zəmin yaratmışdır. Bu dövrdə yüzlərlə soydan ibarət olan və əsasən Mərkəzi Asiyada yaşayan türklər üstünlük təşkil edən qrup kimi ətraf bölgələrə yayılmağa başlamışdılar. Bir çox türk tayfaları Şimali Hindistana, Xorasana, Qafqaza və Qara dəniz sahillərinə köç edərək bu yerlərdə özlərinə yeni vətən tapmışlar.





*Şək. 3.17. Üzərində xaqan və xatun rəsmləri olan pul. Qərbi Türk xaqanlığı. VI–VII əsrlər. Çaç (Daşkənd)*

Qədim türk xaqanlıqları dövründə İpək yolunun həm cənub, həm də şimal xətlərinin əsas hissəsi türklərin nəzarətində olmuşdur. Bu xətlərdə təhlükəsizliyin təmin olunması sayəsində beynəlxalq ticarət canlanmışdır. Cənub xətti Atrek, Amudərya və Tarım çaylarının hövzələrindən, şimal xətti isə Sırdərya, Çu və Talas çaylarının hövzələrindən keçmiş və bu səbəbdən buralarda yeni ticarət şəhərləri yaranmışdır.

Bu dövrdə Ötükən vadisi və Ordubalıq (Qarabalqasun), Ordos, Beşbalıq, Suyab, Taraz, Otrar, Çaç kimi şəhərlər xaqanlıqların həm inzibati, həm mədəni-iqtisadi mərkəzləri rolunu oynayırdı. 629-cu ildə buddizmin mərkəzi olan Hindistana ziyarət üçün yola çıxan tanınmış çinli rahib Hsüan-Tsanq Qərbi Göytürk xaqanlığının hakimiyyəti altında olan onlarla şəhər və bölgələrdən keçərək Hindistana çatmışdı. Bu rahibin yol qeydlərinə görə, 60-a yaxın ölkə Qərbi Göytürk xaqanlığının nəzarətində imiş.

Bu dövrdə türklər tək Tanrıya inanmış və öz inanc sistemlərinə malik olmuşlar. Bu inanc sistemində *Umay* adlı ilahə uşaq-

**Qədim türklərdə qadının mövqeyi**

Qədim türklərdə qadınlar kişilərlə bərabər sayılmış, ictimai həyatın bütün sahələrində, xüsusilə də siyasətdə mühüm yer tutmuşlar. Sak dövründə qadın hökmdar Tomiris çox məşhur idi. Asiya hunlarında imperator-Şanyunun yanında dövlət işləri ilə məşğul olan *Eçi* titullu xatunlar vardı.

Qədim türk xaqanlıqları dövründə isə mövqeyinə görə xaqanlardan sonra ikinci yeri *Xatun* titulu daşıyan qadınlar tuturdu. Orxon kitabələrində Kül tiginin anası İlbilgə xatunun adı Şərqi Göytürk xaqanlığının qurucusu İltəris xaqanla eyni səviyyədə çəkilir.

Soqdda zərb olunan Qərb Göytürklərinin pullarında hökmdarla xatun yan-yana təsvir olunmuş, pulların arxa tərəfində isə hökmdar qadına aid olan *“Xatun”* sözü yazılmışdır.

Xaqanlar müharibəyə yollanan zaman xatunlar dövlət işləri ilə məşğul olmuş, səfirləri qəbul etmişlər. Bütün bu faktlar qədim türk cəmiyyətində qadının mövqeyinin yüksək olduğunun sübutudur.

***Qədim türklərin dövründə xaqan xatununun dövlətin idarə olunmasında müəyyən hüquqlara malik olmasının nə əhəmiyyəti vardı? Müzakirə edin.***



*Şək. 3.18. Əcnəbi səfirləri qarşılayan türk zadəganları. Divar rəsmləri. Əfrasiyab (Səmərqənd), Özbəkistan*

ların qoruyucusu, bolluq və bərəkət rəmzi sayılırdı. Bununla bərabər, Amudərya və Sırdəryaarası ərazilərdə və Yeddisu bölgələrində yaşayan türklər arasında zərdüştilik dini də yayılmışdı. Şimali Hindistan və Şərqi Türküstandakı türklərin etiqad etdiyi dinlər arasında buddizm dini Monqolustan və Altaylara qədər yayılmışdı.

IX əsrin əvvəllərində Uyğur xaqanlığının manilik dinini dövlət dini kimi qəbul etməsi nəticəsində bu din Mərkəzi Asiyadan Sibirə və Uzaq Şərqə qədər ərazilərə yayıldı.

Bu dövrdə təsviri incəsənət yüksək inkişaf etmişdi. Türk hökmdarları öz saraylarının divarlarını saray həyatı, dini ayinlər, əyləncə, ov və müharibə səhnələrini əks etdirən təsvirlərlə bəzəyirdilər. Əfrasiyab (Səmərqənd), Varahşa (Buxara), Pəncikənd (Tacikistan), Bəzəklik, Qızıl, Minq-üy (Şərqi Türküstan) kimi şəhərlərin saray və dini ibadətxanalarını buna nümunə göstərmək olar.

Bu təsvirlərdə türklər, soqdilər, hindlilər, çinlilər və digər xalqların bir arada olması onların qarşılıqlı mədəni əlaqələrindən xəbər verir.

## DƏYƏRLƏNDİRMƏ ÜÇÜN SUALLAR

1. Avar xaqanlığına hansı torpaqlar daxil idi?
2. Xəzər xaqanlığında hansı etnik qruplar yaşayırdı?
3. Qırğız xaqanlığı haqqında məlumat verin.
4. İpək yolu türk dövlətlərinin sosial və iqtisadi həyatına necə təsir edə bilirdi?

# IV BÖLMƏ

# İLK TÜRK-MÜSƏLMAN DÖVLƏTLƏRİ

## ƏSAS MÖVZULAR

1. MƏRKƏZİ ASİYADA İSLAMIN YAYILMASI
2. OĞUZ YABQU DÖVLƏTİ
3. QARAXANLI XAQANLIĞI
4. SACİLƏR (SACOĞULLARI) DÖVLƏTİ
5. VOLQA BULQAR DÖVLƏTİ
6. QƏZNƏVİLƏR DÖVLƏTİ
7. BÖYÜK SƏLCUQLU DÖVLƏTİ
8. AZƏRBAYCAN ATABƏYLƏR (ELDƏNİZLƏR) DÖVLƏTİ
9. XARƏZMŞAHLAR DÖVLƏTİ
10. İLK TÜRK-MÜSƏLMAN DÖVLƏTLƏRİNDƏ SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HƏYAT

*Şək. 4.1. Əhməd Yasəvi türbəsi. Qazaxıstan*



## 1. MƏRKƏZİ ASİYADA İSLAMIN YAYILMASI

VIII–XIII əsrlər Xilafətin Mərkəzi Asiyanın müəyyən bir hissəsində hökm sürdüyü dövrdür. Bu dövrdə əvvəl Əməvilər, sonra da Abbasilər sülalələri hakimiyyətdə olmuşdur. VII əsrin birinci yarısında Ərəbistan yarımadasında meydana gələn islam dini qısa müddətdə ətraf ölkələrə sürətlə yayılmışdı.

VII əsrin ortasından VIII əsrin ortasına qədər olan dövrdə ərəb qoşunları Buxara, Səmərqənd, Çaç (Daşkənd), Fərqanə və İsficabı (Sayram) ələ keçirmişdilər.

VIII əsrin əvvəllərində şərqdə Çinlə həmsərhəd olan Göytürk xaqanlığının qərbdəki sərhədlərinə nəzarəti zəifləmişdi. Bu isə Xilafətin onların ərazisinə doğru sürətlə irəliləməsinə imkan yaratmışdı.

Türkeş hökmdarı Sulu xaqan (715–738) ərəblərə hücum edərək 731-ci ildə onları Mavəraünnəhrdən sıxışdırıb çıxarmağa nail olmuşdu, lakin 738-ci ildə onun ölümündən sonra bölgədə islamın yayılmasına qarşı dayanacaq siyasi güc qalmamışdı.

Ərəblərlə çinlilər arasındakı *Talas döyüşündə* (751-ci il) Qarluq türklərinin müsəlmanları dəstəkləməsi nəticəsində Çin

*Xəritə 4.1. Mərkəzi Asiya VIII–IX əsrlərdə*



orduları məğlub edilmişdi. Beləliklə, Mərkəzi Asiyada islam dininin yayılması sürətlənmiş, Çinin Mərkəzi Asiyadakı nüfuzu isə zəifləmişdi. Əvvəlcə Xorasan, Mavəraünnəhr və Yeddisudakı türk tayfaları müsəlmanlığı qəbul etmişdilər. Daha sonra Xəzər və İdil Bulqar xaqanlıqları ərazilərindəki türklər arasında islam dini sürətlə yayılmağa başladı.

İslam dininin tolerant və universal bir din olması çox hissəsi tək Tanrıya inanan türklərin müsəlmanlığı qəbul etməsini asanlaşdırırdı. Xüsusilə müsəlman tacir, elçi və din alimlərinin Mərkəzi Asiya çöllərinə gedib türklər arasında islam dinini yaymalarının da böyük təsiri olmuşdu.





*Şək. 4.2. Oğuz yabquluğuna aid pul. IX əsr. Cənubi Qazaxıstan*

## 2. OĞUZ YABQU DÖVLƏTİ

Oğuz Yabqu dövləti qədim türk tayfalarının VIII əsrin ikinci yarısı – IX əsrin sonu arasında yaratdığı siyasi birlikdir.

Qədim türk xaqanlıqları dövründə, əsasən, Monqolustanda yaşayan Oğuz türkləri VII–VIII əsrlərdə qərbə doğru irəliləyərək Sırdəryanın orta və aşağı hövzələrində (Aral gölü ətrafı), Xarəzm və Xorasan bölgələrində məskunlaşmağa başlamışlar. Sırdəryanın orta hövzələrində VIII–IX əsrlərdə Oğuz Yabqu




*Şək. 4.3. "Oğuz xaqan" dastanına görə oğuz türkləri tayfalarının boy şəcərəsi*

dövləti qurulmuşdur. Dövlətin sərhədləri şimal və şimal-şərqdə Qaraçuk (Qaratau) dağları və Yeddisunun qərbinə (İsficab bölgəsi) qədər, qərbdə isə Cənt (Aşağı Sırdərya) və Aral gölü ətrafına qədər uzanmışdı. Bu dövrdə Sırdərya hövzəsində yerləşən Südkənd, Yengikənd, Otrar, Cənt şəhərlərində müsəlman türklərinin sayı artmış, İpək yolunun şimal xəttində ticarət canlanmışdı.

Oğuzlar öz pullarını zərb etdirmişdilər. Aşağı Sırdərya və Aral gölü ətraflarında üzərində ərəb yazısı ilə *Cabquye el-i Quzziye* (Oğuz yabqusu) sözü yazılmış bürünc və gümüş pullar tapılmışdır. Ərəblər və farslar Oğuz türklərini *Quzz* adlandırmışlar.

Oğuz Yabqu dövləti bir müddət Xəzər xaqanlığının tərkibində olmuşdur. Sonralar getdikcə güclənən oğuzlar Mavəraünnəhrin daxili əraziləri (Nurata/Buxara), Xarəzm və Xorasan sərhədlərinə qədər yayılmağa başlamışdılar.

**Dədə Qorqud**


*Şək. 4.4. Dədə Qorqud*

Oğuz yabquluğu dövründəki türk tayfalarının həyatını ən gözəl formada təsvir edən ədəbi əsər Oğuz türkcəsi ilə yazılan "Kitabi-Dədə Qorqud" dastanıdır. Əsərdə dilə gətirilən tarixi hadisələr Oğuz yabquluğu dövründə Sırdərya hövzələrindən başlayıb, Səlcuqlular dövrü ilə bağlı olan Azərbaycan və Anadoluda bitir. Dastanın baş qəhrəmanı Dədə Qorqud (Qorqud ata) türk xalqlarının ortaq dahi şəxsiyyətidir. Onun həm keçmişdən, həm də gələcəkdən xəbər verən "kərəm sahibi bir övliya" olduğu irəli sürülür. Dədə Qorqud "Ozanların piri" və ya "Ozanların başı" olaraq da adlandırılır.

Bu kitab 12 dastan xarakterli hekayədən (12 boydan) ibarətdir və burada islamdan öncə və sonrakı dövrlərdə türklərin yaşayışı, dili, tarixi, ədəbiyyatı, mədəniyyəti əks olunur. "Qorqud Ata" adı ilə də bilinən Dədə Qorqud Azərbaycan türkləri, türkmən, qazax, özbək, başqırd və qaraqalpaq türkləri arasında çox məşhurdur. Dastanın ana mövzusu türk xalqlarının öz torpaqlarını qorumaq əzmi, türk millətinə xas olan doğruluq, sözündə durmaq, müqəddəs amallar uğrunda can vermək kimi müxtəlif dəyərlərdir. Dədə Qorqud dastanı buradakı bütün qəhrəmanların ailə, cəmiyyət və insan sevgisini ön planda tutması, millət olaraq əxlaq və yaşam anlayışımızı əks etdirməsi baxımından çox önəmli bir əsərdir.

Dədə Qorqud haqqında rəvayətlər bir kitab şəklində orta əsrlərdə Anadolu və Azərbaycan türkləri, şifahi olaraq da türkmən, qazax, qaraqalpaq və başqırd türkləri arasında qorunaraq bu günə qədər gəlib çatmışdır. Bundan başqa Dədə Qorduq qədim türklərin əsas musiqi aləti olan *qopuzun* yaradıcısı hesab edilir. Qazax türklərində qopuzla ifa edilən "Korkut Atanın küyü" ("Qorqud Atanın musiqisi") adı altında bir çox musiqi əsərinin olması faktı diqqəti cəlb edir.

Mahmud Qaşqarlının yazdıqlarına görə, Daşkənd bölgəsindəki Benaket vadisi oğuzların məskəni olmuşdur. Oğuz Yabqu dövləti daha sonra qurulan Səlcuqlu dövlətinin (XI–XIII əsrlər) əsasını təşkil etmişdir.

Oğuz Yabqu dövlətinin yaranması Mərkəzi Asiyada türk dilinin Oğuz ləhcəsinin yayılmasına səbəb olmuşdur. Bu ləhcə sonradan meydana çıxan Anadolu türkcəsi, Azərbaycan türkcəsi, türkmən dili, özbək Oğuz dili (Xarəzm və Xorasan), qaqauz dili və digər Oğuz dil və ləhcələrinin yaranmasına zəmin yaratmışdır.

## 3. QARAXANLI XAQANLIĞI



Qaraxanlı xaqanlığı 840–1212-ci illərdə mövcud olmuşdur. Qaraxanlı dövləti – Mərkəzi Asiyada yaranmış ilk türk-müsəlman dövlətlərindən biridir. Onun əsası ehtimala görə, hakim türk Aşina nəslindən olan, islamı qəbul etmiş **Bilgə Kül Qədir xan** tərəfindən qoyulmuşdu. Qaraxanlı dövləti Şərqi Türküstan və Yeddisu torpaqlarında yaranmışdı və dövlətin inzibati mərkəzləri əvvəlcə Qaşqar və Balasaqun şəhərləri olmuşdu.

Bilgə Kül Qədir xanın ölümündən sonra onun yerini oğulları Bazır və Oğulcaq tutdu. Oğulcaq Samanilər dövlətində baş verən daxili ziddiyyətlərdən yararlanaraq üsyan edən bir Samani şahzadəsinin sığınacaq xahişini qəbul etdi. Həmin Samani şahzadəsinin sayəsində Oğulcaqın qardaşı oğlu Satuk Buğra islamı qəbul edərək özünə Əbdülkərim adını götürdü. Sonralar Əbdülkərim (Satuk Buğra) əmisi Oğulcaqı (924–955) məğlub edərək dövlətin başçısı oldu və xan titulunu qəbul edib islamı rəsmi din elan etdi. Qaraxanlılar islamı qəbul edən ilk türk dövləti oldu.

Nəsr İliq xanın hakimiyyəti dövründə Qaraxanlılar 999-cu ildə Samanilərə qarşı yürüş edərək onların əsas şəhərləri olan Səmərqənd və Buxaranı tutdu. Beləliklə, onların sərhədləri Amudərya çayına qədər uzandı. Çayın şimalında yerləşən ərazilər Qaraxanlılara, cənub tərəfindəki torpaqlar isə Qəznəvilərə məxsus olmaqla Amudərya çayı bu iki dövlət arasında sərhədə çevrildi.

Bu dövrdə Mərkəzi Asiyada hakimlik edən türk sülalələrinin tarixində mühüm siyasi hadisə baş verdi. 1025-ci ildə Qaraxanlıların hökmdarı **Yusif Qədir xan** (1024–1032) və Qəznəvilərin sultanı Mahmud Qəznəvi (998–1030) şəxsən görüşərək danışıqlar apardılar. Bu görüş zamanı Qaraxanlıları maraqlandıran məsələləri müzakirə etməklə yanaşı, onlar həm də Arslan bin Səlcuqun və ona tabe olan oğuz tayfalarının Xorasana köçürülməsi barədə razılığa gəldilər. Qeyd etmək lazımdır ki, orta əsrlərdə müstəqil dövlətlərin başçılarının şəxsi görüşləri və təkbətək danışıqları nadir hadisə idi. Bu görüşdə İslam dünyasının iki qüdrətli türk hökmdarı bir-birinin dövlətinin ərazi bütövlüyünü tanıdı. Belə bir razılığa gəldilər ki, onların biri Mərkəzi Asiyanın böyük hissəsini, o biri isə Əfqanıstan, Şimali Hindistan və İranı idarə etsin.



*Şək. 4.5. Qaraxanlılara aid mis pul. XI–XIII əsrlər*

*Hakanitlər*, *Əfrasiyabın nəsilləri*, *Türk xaqanları*, yaxud *İlek xanlar* adları altında məlum olan siyasi birlik həmin dövrdə mərkəzi Yeddisu və Şərqi Türküstan olan Şərqi Qaraxanlı (1040 – XIII əsrin əvvəli) və mərkəzi Mavəraünnəhr olan Qərbi Qaraxanlı dövlətindən (1040–1212) ibarət idi.

*Xəritə 4.2. Qaraxanlı xaqanlığı*



Çox keçmədən başqa bir türk sülaləsi – Səlcuqluların meydana çıxması Asiyanın müsəlman hissəsində ciddi siyasi dəyişikliklərə səbəb oldu. Səlcuqluların böyük sultanı Məlikşah (1072–1092) 1082-ci ildə Mavəraünnəhri zəbt edərək Üzkənd şəhərinə (Fərqanə vadisi) daxil oldu. Şərqi Qaraxanlı hökmdarı Həsən xan onun hakimiyyətini tanıdı və Qaraxanlılar Səlcuqluların vassalına çevrildi. 1141-ci ildə Səmərqənd yaxınlığında Katvan səhrasında Səlcuqlularla Qaraxanlıların birləşmiş orduları qarakitaylarla döyüşdə məğlub oldu. Beləliklə, Qaraxanlılar dövlətinin şərq hissəsi qarakitayların təbəəliyinə keçdi. Qarakitaylar Balasaqun şəhərini paytaxt edərək Cunqariya və Yeddisu bölgələrini nəzarət altına aldılar.

Qaraxanlılar dövlətin idarə edilməsində qədim türk adətləri ilə bərabər, müsəlman adət-ənənələrini tətbiq edirdilər. Onların istifadə etdikləri titullar və inzibati idarəçilik üsulları



*Şək. 4.6. Satuk Buğra xan türbəsi. Qaşqar, Şərqi Türküstan*



*Şək. 4.7. Qaraxan türbəsi. XI əsr. Taraz, Qazaxıstan*

Türk xaqanlığında olduğu kimi idi. Qaraxanlı hökmdarlarının *qara* (böyük), *arslan* (aslan), *tonqa* (bəbir), *buğra* (erkək dəvə) kimi titullarının kökləri qədim Göytürk dövrünə gedib çıxır.

Müsəlman mənbələrində Qaraxanlı hökmdarlarını çox vaxt həm də *Əfrasiyabın oğulları* adlandırırdılar. Başqa sözlə desək, Qaraxanlılar öz mənşəyini dünyada ən qüdrətli türk hökmdarı olan əfsanəvi Əfrasiyabla bağlayırdılar. Mənbələrdə *Əfrasiyab* ləqəbi, yaxud onun türkcə *Alp Ər Tonqa* adına rast gəlinir.

Qaraxanlılar dövründə Mərkəzi Asiyada dünya sivilizasiyasının inkişafına böyük töhfə vermiş bir sıra müsəlman alim və mütəfəkkir yetişmiş, Qaşqar, Taraz, İsficab, Üzkənd, Buxara və Səmərqənd şəhərləri isə islam mədəniyyətinin mərkəzlərinə çevrilmişdi. Yusif Balasaqunlu, Mahmud Qaşqarlı, Əhməd Yasəvi kimi böyük türk mütəfəkkirləri bu dövrdə yaşayıb-yaratmışlar.



Şək. 4.8. “Qutadqu Bilik” kitabının üz qabığı




Şək. 4.9. Yusif Balasaqunlunun təsviri verilmiş kağız pul

**Yusif Balasaqunlu (Yusif Has Hacib)**

Yusif Has Hacib Balasaqunlu 1017-ci ildə anadan olmuşdur. O, dünyada məşhur olan “Qutadqu Bilik” (“Səadət gətirən elm”) əsərinin müəllifidir. Bu əsər türklər islamı qəbul etdikdən sonrakı dövrün ilk ədəbi məhsuludur və hökmdarlara məsləhətlər verən ilk “siyasətnamə” xüsusiyyətinə də malikdir. Yusif Balasaqunlu “Qutadqu Bilik” əsərini 1070-ci ildə Qaraxanlı hökmdarı Uluq Qara Buğra xana təqdim etmişdir. Xan kitabı oxuduqdan sonra ona *Uluq Has Hacib* (Baş vəzir) titulu vermişdir.

Yusif Has Hacib Balasaqunlunun ölüm tarixi dəqiq məlum deyil. Onun şərəfinə ucaldılan məqbərə Qaşqarda yerləşir, lakin məlumdur ki, bu məqbərə sonrakı dövrün abidəsidir.

*“O (Yusif Has Hacib) bu kitabın məzmunu haqqında danışıb onu dörd nəcib təməldə quracaq.*
*Onlardan biri – dürüstlüyə əsaslanan ədalət*
*O birisi – firavanlıq və əmin-amanlığa əsaslanan dövlət*
*Üçüncüsü – əzəmətli idrak*
*Dördüncüsü – əlində olana qane olmaq və sağlamlıq”*

Həmçinin Yusif Has Hacibin aşağıdakı sözləri gələcək nəsillərə tövsiyədir:

*“Əgər istəsən, rəqəmlər elmini öyrən.*
*Bu, hesab bilgisinin sirləridir;*
*Kəsri, bölməni və vurmanı öyrən”.*

***“Qutadqu Bilik” kitabından***

***Sizcə, insan həyatının mənalı olması üçün Yusif Balasaqunlunun “Kutadqu Bilik” əsərində təsvir etdiyi dörd dəyərdən hansı daha vacibdir? Müzakirə edin.***

## Mahmud Qaşqarlı



*Şək. 4.10. Mahmud Qaşqarlı*

Mahmud Qaşqarlı 1029–1038-ci illər arasında Barsqan şəhərində (İssıkgöl hövzəsi, Qırğızıstan) doğulub, sonralar bir müddət Qaşğar şəhərində yaşamışdı. O, Qaraxanlı nəslindən olan Məhəmməd bin Hüseynin oğlu idi. Atası əvvəl Barsqan şəhərində yaşamış, sonralar Qaşqara köçmüşdü. Həmin dövrdə Qaşqar mühüm elm və mədəniyyət mərkəzi idi.

Mahmud Qaşqarlı o dövrün bütün klassik elmlərinə yiyələnmişdi. O, ərəb və fars dillərini öyrənmiş, həmçinin türk dillərinin araşdırılması ilə məşğul olmuşdu. Bu məqsədlə bütün Mərkəzi Asiyanı başdan-başa gəzərək Anadoluya, oradan da Bağdada gedib çatmışdı. On beş il ərzində türklərin yaşadığı bütün vilayətləri, şəhərləri, obaları, düzənlikləri, dağları və səhraları dolaşmışdı. Səyahətləri zamanı ana dili olan türkcənin hakaniyə, oğuz, qıpçaq, qırğız, arqu, çigil ləhcələrini də araşdırmışdı.

Onun ən böyük əsəri olan *"Divanü lüğat-it-türk"* ("Türk dillərinin divanı") 1072–1077-ci illər arasında Bağdadda yazılmışdır və o dövrdəki türk dilləri haqqında geniş məlumat verən ensiklopedik mənbə dəyərindədir. Bu əsər türk dilinin ən qədim lüğəti olmaqla bərabər, Mərkəzi Asiya və ətraflarında danışılan türk yazı dilləri və ləhcələrinin quruluşu, lüğət tərkibi ilə bağlı ən geniş məlumatı əhatə edir.

## Divanü lüğat-it-türk

Mahmud Qaşqarlı özünün "Divanü lüğat-it-türk" əsərini bu sözlərlə başlayır:

"Bismillahir-Rəhmanir-Rəhim (Rəhman və Rəhimli Allahın adı ilə).

Allahın səadət günəşini türklər üzərində meydana gətirdiyini və göy qübbəsini onların ölkələri üzərində fırlatdığını gördüm. Allah onlara *Türk* adını verdi. Və Yer üzünə hakim qıldı. Cahan hökmdarları türk irqindən oldu. Dünya millətlərinin taleyi türklərin əlinə verildi. Türklər Allah tərəfindən bütün tayfalardan üstün tutuldu. Allah onun yolundan ayrılmayan türkləri haqq yolunda gücləndirdi. Türklərlə birlikdə olan tayfalar yüksəldilər. Bu tayfalar türklər tərəfindən hər arzularına çatdılar. Türklər himayələrinə aldıqları millətləri pislərin şərindən qorudular. Cahan hakimi olan türklərə hər kəs möhtacdır, onlara dərdini dinlətmək, bu yolla arzuya çata bilmək üçün türk dilini öyrənmək gərəkdir..."

*"Divanü lüğat-it-türk". I c. B.Atalay, Ankara, Türk tarixi cəmiyyəti nəşriyyatı, 2006, səh. 3–4*

***"Divanü-lüğat-it-türk" əsərinə əsasən, türk hökmdarları hansı universal vəzifəni öz üzərlərinə götürdülər?***

**Əhməd Yasəvi**



*Şək. 4.11. Əhməd Yasəvi*

Xoca Əhməd Yasəvi XII əsrdə yaşamış türk mütəfəkkiridir. O, xalq arasında daha çox Həzrəti Sultan adı ilə tanınmışdır. Əhməd Buxarada böyük islam alimi Yusif Həmədanidən dərs almışdır. Onun “Divani Hikmət” (“Müdriklik divanı”) əsəri türk dilində yazılmışdır. Əsər cəmiyyəti mənəviyyata və ədalətə çağırır.

XIV əsrdə Əmir Teymurun əmri ilə Xoca Əhməd Yasəvinin dəfn olunduğu Yassı (bugünkü Türküstan) şəhərində böyük məqbərə kompleksi tikilmişdir.

*Sevməyirlər alimlər sizin türkcə dilini,*
*Müdriklərdən dinləsən, açar könül əlini.*
*Ayət, hədis anlamı türkcə olsa, anlarlar,*
*Anlamını bilənlər baş endirib uyarlar.*
*Miskin qul Xoca Əhməd, yeddi atana rəhmət,*
*Fars dilini bilsə də, sevib söylər türkcəni.*

***Əhməd Yasəvi. “Divani Hikmət”***

***Sufilik nədir? Əhməd Yasəvinin sufi görüşlərini öyrənin.***

## 4. SACİLƏR (SACOĞULLARI) DÖVLƏTİ

İlk türk-müsəlman dövlətlərindən biri IX–X yüzilliklərdə Azərbaycanda mövcud olmuş Sacilər (Sacoğulları) dövləti idi. Dövlətin qurucusu **Məhəmməd Sacoğlu** olmuşdur. İlk əvvəl Sacilər ərəb xilafətinin bu ərazilərdəki valisi vəzifəsini yerinə yetirirdilər.

Sacilər dövlətinin paytaxtı əvvəl Marağa, sonra Ərdəbil şəhəri olmuşdu. Sacoğulları sülaləsinin ən məşhur hökmdarlarından biri Yusif Sacoğlu idi. Sülalənin hökmdarlarının adına zərb olunan pullar göstərir ki, onların dövründə Azərbaycanda iqtisadiyyat sürətlə inkişaf etmişdir.

Yusif Sacoğlunun öz adından pul zərb etdirməsi, torpaqlarının sərhədlərini genişləndirərək paytaxtı Ərdəbil şəhərinə köçürməsi göstərir ki, Sacilər öz hakimiyyətlərini Azərbaycanda möhkəmləndirərək müstəqil hərəkət edirdilər. Bu türk dövləti həm də Şərqi Anadolunun xeyli hissəsində hakim mövqe tuturdu. Yusif Sacoğlunun öz ərazisində qızıl pullar zərb etmək imkanına malik olması, Sacilərin iqtisadi qüdrətindən xəbər verir.

*Xəritə 4.3. Azərbaycan IX əsrin ikinci yarısı – X əsrlərdə*



## 5. VOLQA BULQAR DÖVLƏTİ



Volqaboyu türk tayfa başçılarının sıx diplomatik əlaqələri sayəsində IX–XIII əsrlərdə Volqa (İdil) çayının orta hövzəsi ərazisində mərkəzi Bulqar şəhəri olmaqla ilk müsəlman türk dövlətlərindən biri – Volqa Bulqar dövləti mövcud olmuşdur.

Qədim türk dilində *bulqar* sözünün mənası "qarışıq" deməkdir. Bulqar xalqı Kutriqur və Utriqur tayfalarının Şərqi Avropadan geri qayıdan hunlarla qarışığından formalaşmışdır. İlk əvvəl Göytürk xaqanlığının hakimiyyəti altında yaşayan bulqarlar xaqanlığın zəifləməsindən sonra, VII əsrdə Böyük Bulqar dövlətini yaratdılar, lakin bir az sonra bu dövlətin varlığına qonşuluqda yerləşən Xəzər xaqanlığı tərəfindən son qoyuldu. Bulqarların **Asparux xanın** tabeliyində olan hissəsi Dunaya tərəf üz tutaraq Balkanlara gəlib çıxdılar və burada VII əsrin 70-ci illərində Dunay bulqarlarının dövləti yarandı. Sonralar onlar yerli slavyanlarla qaynayıb-qarışdılar. 864-cü ildə **Boris xan** pravoslav məzhəbini qəbul etdi və bulqarlar xristian oldular. Balkanlarda yaşayan bugünkü bolqarlar qismən onların nəslindəndirlər.

Bulqarların o biri hissəsi Volqa və Kama çaylarının qovuşduğu bölgədə məskunlaşdı. Volqa bulqarları burada yerli fin-uqor və bəzi türk tayfalarını öz nəzarətləri altına alaraq vahid dövlət yaratdılar.

Bulqar tacirlərinin Samani və Xarəzm dövlətlərindən olan müsəlman tacirlərlə sıx əlaqələri sayəsində Volqa Bulqar dövlətində islam dini və müsəlman mədəniyyəti yayılmağa başladı.

920-ci ildə **Almış xan** Abbasilər xəlifəsindən xahiş etdi ki, onun ölkəsinə islam alim-ilahiyyatçıları və memarlar göndərsin. Bağdaddan göndərilən heyət 922-ci ildə gəlib Bulqar dövlətinə çatdı.

Xəzər xaqanlığının 965-ci ildə dağılmasından əvvəl bulqarlar bu dövlətdən asılı vəziyyətdə idilər. Xəzər xaqanlığının dağılması bulqarlara müstəqillik verdi. Monqollar Kalka çayı sahilində rusları darmadağın edib şərqə qayıdan zaman bulqarların tələsinə düşüb ağır itkilər verdilər. Bu, monqol baş komandanı Batı xanın 1236-cı ildə bulqarların üzərinə hərbi yürüş etməsinə səbəb oldu. Lakin Batı xan Dəşti-Qıpçaq torpaqlarında Qızıl Ordunu yaratdığı dövrdə bulqarlar öz müstəqilliklərini müəyyən dərəcədə qoruyub saxlaya bildilər.



*Şək. 4.12. Qarasaray.*
*Volqa Bulqar dövləti. Qədim Bulqar şəhəri, Tatarıstan*

Volqa Bulqar dövlətinin əhalisi türk etnosları olan hunlar, bulqarlar, xəzərlər və suvarlardan ibarət idi. Onların sonralar çuvaşlar, tatarlar, başqırdlar və Şimali Qafqaz türk xalqlarının (qaraçaylılar, balkarlar, qumuqlar) formalaşmasında böyük rolu olmuşdur.

Volqa bulqarları dövründə şəhər mədəniyyəti inkişaf etmişdi. İpək yolu ilə şimalda slavyan torpaqlarına, şərqdə Sibirə aparılan malların növləri çoxalmışdı, ticarət xeyli canlanmışdı.

Volqa Bulqar dövlətində bir çox müsəlman-türk alimləri yaşayıb-yaratmışdı. Bu dövrdə Şair *Qul Əli* (1174–1248) tərəfindən türkcə yazılan "Qisseyi-Yusif" əsəri əsrlər boyu nəinki öz vətənində, hətta Mərkəzi Asiya türkləri arasında məşhur olmuşdur. Xüsusilə tatarlar, başqırdlar, özbəklər, türkmənlər və digər türk xalqları tərəfindən son əsrlərə qədər bu əsərin tərcüməsiz oxunması o dövrdəki türk dilinin və türk ədəbi ənənələrinin ortaq olduğunun göstəricisidir.

## 6. QƏZNƏVİLƏR DÖVLƏTİ



Qəznəvi dövləti X–XII əsrlərdə mövcud olmuşdur. Qəznəvilərdən əvvəl Xorasan və Məvəraünnəhrdə Samanilər dövləti mövcud idi. Samanilərin tərkibinə Xorasan, Məvəraünnəhr və Yeddisunun qərb bölgələri (Taraz və onun ətrafları) daxil idi. Samanilərin hakimiyyəti dövründə

*Xəritə 4.4. Qəznəvilər*




İrandan Yeddisuya qədər uzanan geniş ərazilər vahid siyasi qurumda birləşdirilmişdi. Əhalinin böyük hissəsi müsəlmanlardan ibarət idi. Siyasi və sosial birlik ölkədə yüksək rifahı təmin etmişdi. Mavəraünnəhr və Xorasan islam dünyasının mədəniyyət mərkəzlərinə çevrilmiş, fars dili mədəni həyatda mühüm rol oynamağa başlamışdı. Bununla bərabər, türk hərbi qüdrəti getdikcə artmışdı. Samanilərin hakimiyyəti altında olan Əfqanıstanın bölgə və şəhərlərində idarəetməyə türkəsilli rəis və komandirlərin təyin edilməsi sonralar bu bölgələrdə türk sülalələrinin yaranmasına zəmin hazırlamışdı.

X əsrin ikinci son rübündə Samanilər sülaləsinin zəifləməsindən sonra türkəsilli Samani sərkərdəsi **Alp tigin** Qəznədə (Əfqanıstan) Qəznəvilər dövlətinin əsasını qoymuşdur. Alp tiginin kürəkəni **Səbük tiginin** (977–997) və onun oğlu **Mahmud Qəznəvinin** (998–1030) hakimiyyəti dövründə dövlət qüdrətinin ən yüksək zirvəsinə çatmış, Əfqanıstan, Xorasan və Şimali Hindistan (Pakistan) torpaqlarını da əhatə etmiş, imperiyanın sərhədləri Amudəryadan (Ceyhun) Hind çayına, oradan da sonralar Hind okeanına qədər uzanmışdı.

Mahmud Qəznəvinin oğlu **I Məsudun** (1031–1041) hakimiyyəti dövründə Qəznəvilər dövləti torpaqlarının bir hissəsini itirmişdir. Qərb bölgələrinin, demək olar ki, hamısı 1040-cı ildə baş vermiş Dəndənəkan (indiki Aşqabadın ətrafları) döyüşündən sonra Səlcuqlu dövlətinin əlinə keçmişdir. Qəznəvi dövlətinin nəzarətində yalnız Əfqanıstan, Bəlucistan və Pəncab bölgələri qalmışdır. 1157-ci ildə Səlcuqlu dövlətinin parçalanması Qəznəvilərə bir xeyir gətirməmişdir.

Bu gərgin vəziyyətdən istifadə edərək 1151-ci ildə əfqanəsilli Gurlular sülaləsi Qəznəvi hökmdarı **Bəhram şahı** (1117–1157) məğlubiyyətə uğratdılar

və dövlətin paytaxtı Qəznə şəhərini ələ keçirdilər. Bundan sonra Qəznəvilər Lahora (Pakistan) çəkilərək öz səylərini Hindistanın içəri bölgələrində islamı yaymağa yönəltmişlər. Sonuncu Qəznəvi hökmdarı **Xosrov Məlikin** (1160–1186) Gurlular tərəfindən 1187-ci ildə əsir götürülməsindən sonra Qəznəvilər dövlətinin mövcudluğuna birdəfəlik son qoyulmuşdur.

Qəznəvilər sülaləsinin ən məşhur hökmdarı Sultan Mahmud Hindistana çoxlu sayda yürüşlər təşkil etmiş və burada islam dinini yaymağa çalışmışdır. Məhz bu səbəbdən onun islam ölkələrində şöhrəti artmışdır. Ədəbi və tarixi əsərlərdə onu əsrlər boyu "Hindistanın fatehi" kimi tərənnüm etmişlər. Hindlilər Qəznəvilər sayəsində türkləri daha yaxından tanımağa başlamışlar.

## 7. BÖYÜK SƏLCUQLU DÖVLƏTİ

Bu dövlət XI–XII əsrlərdə mövcud olmuşdur. Başlanğıcda bir hökmdarın hakimiyyəti altında olan Səlcuqlu dövləti daha sonra Kirman Səlcuqluları, Suriya Səlcuqluları, Anadolu Səlcuqluları kimi eyni sülalənin müxtəlif qolları tərəfindən idarə olunmuşdur. Səlcuqlu dövlətinin sərhədləri Yaxın Şərq (İordaniya, Suriya, İraq) və Anadoludan Şərqi Türküstana (Qaşqar) qədər uzanmışdı.



Səlcuq bəy Oğuz Yabqu dövlətinin sərkərdəsi idi. Sonralar yabqu ilə anlaşa bilmədiyinə görə ona sadiq olan bir qrupla mərkəzdən ayrılıb Cənt şəhərində yerləşdi.

**Əbu Reyhan əl-Biruni**

Qəznəvilər Hindistanın islamlaşmasında böyük rol oynamışlar. Şərqin böyük mütəfəkkirlərindən olan Əbu Reyhan əl-Biruni Qəznəvilərin himayəsində bir çox elmə dair araşdırmalar aparmışdır. Qəznə şəhərində Biruni özünün Hindistan haqqında məşhur "Hindistan" əsərini yazmışdır. O həm də Hindistanda yaşayan türklərə dair dəyərli məlumatlar vermişdir. Xüsusilə Kəşmir və onun ətrafını *"Türk yurdu"*, *"Türklərin torpağı"* kimi təsvir etmişdir.



*Şək. 4.13. Əbu Reyhan əl-Biruni*

Yeni dövlətin qurucuları isə Səlcuq bəyin nəvələri **Toğrul bəy** və **Çağrı bəy** oldu. Ataları cavan yaşında vəfat etdi və Toğrul bəylə Çağrı bəy babaları Səlcuq bəyin himayəsində böyüdülər. Babalarının ölümündən bir müddət sonra onlar oğuzların başına keçərək dövlət qurmağa başladılar.

1040-cı ilə qədər Səlcuqlular Xorasanda Qəznəvilərə qarşı döyüşlərdə qalib gələrək müstəqillik əldə etdilər. Həmin ildə Dəndənəkan yaxınlığında baş vermiş döyüş Səlcuqluların Xorasana hakim olaraq Anadoluya yürüşlər etməsinə zəmin yaratdı.

Toğrul və Çağrı bəylərin qurduğu dövlətin ilk paytaxtı Nişapur şəhəri, birinci sultanı da Toğrul bəy oldu. Sonralar Səlcuqlu dövlətinin paytaxtı Rey və İsfahan şəhərləri olmuşdur.

Toğrul bəyin hakimiyyəti dövründə İran, Yaxın Şərq, Azərbaycan və Cənubi Qafqazdakı yerli sülalələrin varlığına son qoyularaq onların torpaqları Səlcuqlu dövlətinin tərkibinə qatıldı.

1048-ci ildə Ərzurum yaxınlığında Səlcuqlular Bizans-gürcü ordusunu məğlub etdilər.

İslam dünyasının dini lideri sayılan Abbasilər o dövrdə Bağdadı zəbt etmiş Buveyhi sülaləsinin siyasi təzyiqi altında idilər. 1055-ci ildə Toğrul bəy xəlifə Qaimin xahişi ilə Bağdada girib Buveyhiləri Xilafətin paytaxtından çıxarmış və buna görə "Sultan Rukn-ad-din" ("Hökmdar – dinin dayağı") adına layiq görülmüşdü. Bunun sayəsində Səlcuqluların İslam dünyasında nüfuzu xeyli artdı.

1063-cü ildə Toğrul bəyin ölümündən sonra taxta onun qardaşı Çağrı bəyin oğlu **Alp Arslan** (1063–1072) keçdi. Alp Arslan öz hakimiyyəti dövründə Səlcuqlu dövlətinin sərhədlərini daha da genişləndirdi. O, Anadoluda 1071-ci ildə *Malazgird* döyüşündə Bizans imperatoru Romen Diogeni məğlub edərək əsir götürdü. Malazgird döyüşünün tarixi əhəmiyyəti ondan ibarətdir ki, bu döyüş türklərə Anadolunun qapılarını açmış oldu. Anadolunun içərilərinə axınlarını davam etdirən Səlcuqlu sərkərdələri yeni torpaqlar fəth edərək orada özlərinin müstəqil bəyliklərini və dövlətlərini qururdular. Bunlardan bəziləri aşağıdakı xəritədə yer almışdır.

Alp Arslan 1072-ci ildə vəfat etdi və sonra Səlcuqlu dövlətinin başına oğlu **Məlikşah** (1072–1092) keçdi. Məlikşahın hakimiyyət illəri Səlcuqluların ən parlaq dövrüdür. Bu dövrdə dövlətin sərhədləri şərq-qərb xəttində Mərkəzi Asiyadan Anadoluya, şimal-cənub xəttində isə Qafqazdan Hicaza (Məkkə və Mədinə şəhərlərinin yerləşdiyi Ərəbistan bölgəsi) qədər genişlənmişdi.

Məlikşahın ölümündən sonra taxt-tac uğrunda gedən mübarizə nəticəsində dövlət zəifləməyə başladı. Məlikşahın oğlu Səncər (1118–1157) taxta oturandan

*Xəritə 4.5. Böyük Səlcuqlu dövləti*




sonra dövləti yenidən bərpa etməyə cəhd etsə də, müharibə və üsyanlar nəticəsində Səlcuqlu dövləti öz tənəzzül dövrünə qədəm qoydu. 1157-ci ildə Sultan Səncərin ölümündən sonra Böyük Səlcuqlu dövləti süqut etdi.

Səlcuqlu dövlətinin sayəsində türklər Malazgird zəfərindən sonra Anadoluda özlərinə yeni bir vətən qazandılar. Bu dövlət islam dininin yayılmasına öz töhfəsini vermiş və Səlib yürüşlərinə qarşı mücadilə apararaq islamıqoruma missiyasını öz üzərinə götürmüşdü.

Səlcuqlular Azərbaycan, İran, İraq, Suriya və Anadoluda hakimiyyət qursalar da, öz əcdadlarının yaşadığı torpaqlarla əlaqələrini üzməmişlər. Bunu orta əsrlərdə Anadolu və Azərbaycanda yazılan "Oğuznamə"lərdəki Türküstan, Sayram, Qazıqurd, Cənt, Taraz kimi qədim türk şəhər və bölgə adları da təsdiq edir.



*Şək. 4.14. Səlcuqlular dövrünə aid saxsı kuzə*



*Şək. 4.15. Səlcuqlu hökmdarlarına aid pul*

## *Türkiyə (Anadolu) Səlcuqlu dövləti*

Türklər Anadolunu Səlcuqlular dövründə türk yurdu halına gətirsələr də, əslində, onların bu bölgəyə səfərləri xeyli əvvəllərə təsadüf edir. IV əsrdə hunlar, VI əsrdə sabarlar Anadoluya



*Şək. 4.16. Cümə məscidi. Səlcuqlular dövrü. Rey, İran*

basqınlar etmişlər, lakin bu yürüşlər qısamüddətli olub, yurd salmaq məqsədi daşımırdı. Bundan başqa, türklər Anadoluya Abbasilər xilafəti ordusunun tərkibində gəlirdilər. Hərb sənəti ilə məşhur olan türklərin gücündən Abbasilər Bizansa qarşı döyüşlərdə istifadə edirdilər.

Çağrı bəyin başçılığı altında 1015–1021-ci illər arasında Anadoluya edilmiş ilk Səlcuqlu yürüşləri kəşf etmək və qənimət ələ keçirmək məqsədi daşıyırdı və bu, türk tarixində yeni dövrün müjdəçisi idi. Malazgird zəfərindən sonra Sultan Alp Arslan Bizansın əldə edilmiş anlaşmaya əməl etməməsi səbəbindən öz sərkərdələrinin üzərinə Anadoluda yeni torpaqlar fəth etmək öhdəliyi qoydu. Anadoluda fəthlər edən sərkərdələrdən biri də Qutalmışoğlu Süleymanşah idi. Süleymanşah Bizansdan İznik bölgəsini alaraq Türkiyədə Səlcuqlu dövlətinin əsasını qoydu (1077).

Süleymanşahdan sonra dövlətin başına onun oğlu I Qılınc Arslan keçdi. Türklərin Anadoluda qazandıqları fəthlər Bizansı çətin vəziyyətə saldı. Səlib yürüşlərinin başlanmasının bir səbəbi də bu oldu.

I Qılınc Arslan Birinci səlib yürüşü zamanı səlibçilərə qarşı uğurlu müharibələr aparmasına baxmayaraq, paytaxtı İznikdən Konyaya köçürməyə məcbur oldu (1096). Anadolu Səlcuq-

*Xəritə 4.5. İlk Anadolu bəylikləri*



luları sonra da səlibçilərlə mübarizələrini davam etdirdilər. Xüsusilə ilk üç səlib yürüşü onların mövqelərini möhkəmləndirdi. Səlibçilərdən başqa, Bizansla da mübarizə aparan Anadolu Səlcuqluları 1176-cı ildə II Qılınc Arslanın hakimiyyəti dövründə Miryokefalon zəfəri ilə Anadolunun türk yurdu olduğunu təsdiqlədilər.

Anadolu Səlcuqlularının ən parlaq dövrü **Sultan Ələddin Keyqubadın** (1220–1237) hakimiyyət illəri oldu. Bu dövrdə türklər Alanya kimi liman şəhərini tutdular və Aralıq dənizi hövzəsindəki ticarət yollarında söz sahibi oldular. Onlar Səlcuqluların inşa etdikləri karvansaraları və tacirlərin mallarını qorumaq üçün tətbiq etdikləri sığorta sistemi ilə ticarəti canlandırdılar.

Anadolu Səlcuqluları sadəcə siyasət və ticarət sahələrində uğurlar qazanmamışdılar. Onlar Konya, Ağsaray, Kayseri, Alanya, Sivas kimi şəhərləri mədəniyyət mərkəzi halına gətirdilər. Xüsusilə paytaxt şəhəri Konya o dövrün mədəniyyət mərkəzi idi. Bu şəhərlərdə tikilmiş məscid, mədrəsə və xəstəxanalar bölgədə sosial həyatın canlanmasına ciddi təsir göstərmişdi. Həmin dövrün Mövlana Cəlaləddin Rumi, Yunus Əmrə, Hacı Bektaş Vəli kimi görkəmli şəxsiyyətləri vardı. Onlar öz fəaliyyətləri və əsərləri ilə Anadoluda müsəlman türk mədəniyyətinin inkişafında önəmli rol oynamışdılar.

## 8. AZƏRBAYCAN ATABƏYLƏR (ELDƏNİZLƏR) DÖVLƏTİ

XII–XIII əsrlərdə Şimali və Cənubi Azərbaycanda hakimlik etmiş bu sülalə həm də **Azərbaycan Atabəyləri** adı altında məlumdur. Dövlətin əsasını qıpçaqmənşəli Səlcuqlu atabəyi **Şəmsəddin Eldəniz** (1136–1175) qoymuşdu. Dövlətin paytaxtı Naxçıvan idi.

Atabəylik sistemi türk dövlətçilik ənənələrinə xas idi. Türklər böyük imperiyalar yaradarkən bu cür idarəçilik üsullarından istifadə edirdilər. Səlcuqlu sülaləsinin hökmdarları *sultan,* yaxud *məlik* titullarını daşıyırdılar. Mərkəzdən uzaqda yerləşən bölgələrin bir hissəsi Səlcuqlu sülaləsinə aid olan vassal hakimlər tərəfindən, bir hissəsi isə Səlcuqlu sülaləsindən olmayan digər türk sülalələrinə mənsub irsi hakimlər tərəfindən idarə olunurdu. Bu vassal hakimlərdən bəziləri *atabəy*, onların idarə etdiyi vassal dövlətlər isə *Atabəylik* adlanırdı.

Lap əvvəllər, 1130-cu illərdə Eldəniz sultan Məsudun məmlükü (*məmlük* – hərfi mənada "kiməsə məxsus olmaq", "qul" deməkdir; saray nəzdindəki xüsusi qoşunları belə adlandırırdılar) olmuşdur.

Qısa müddətdə Eldəniz öz ağlı və istedadı ilə sultanın diqqətini cəlb edərək hərbi zümrənin tərkibinə salınmış və bir müddət sonra sultanın ən çox güvəndiyi əmirlərdən biri olmuşdur. Sultan onu qardaşı Toğrulun dul arvadı Möminə xatunla evləndirmişdir. Bu nikah nəticəsində Eldəniz Səlcuqlu sülaləsinin kürəkəni olmuş və atabəy vəzifəsini almışdır.

1140-cı illərdə Azərbaycanda baş verən hadisələr, Səlcuqlu əmirləri və atabəyləri arasında gedən mübarizə Eldəniz üçün əlverişli olmuş və o, Azərbaycanın ən güclü hakimi olaraq ömrünün sonunadək ölkəni atabəy kimi idarə etmişdir.

Eldənizin ölümündən sonra hakimiyyət böyük oğlu **Məhəmməd Cahan Pəhləvana** (1175–1186) keçmişdir. Onun hakimiyyəti dövründə dövlət iqtisadi və siyasi cəhətdən daha da güclənmişdir. Cahan Pəhləvanın hakimiyyəti dövründə dövlətin paytaxtı Həmədan şəhəri idi.

Atabəylər 50 min süvaridən ibarət güclü atlı ordu yaradaraq dövlətin cənub və şərq sərhədlərini genişləndirmişdir.

Cahan Pəhləvan bir neçə dəfə Gürcüstana hərbi yürüşlər təşkil etmişdir. Bir sıra qonşu ölkələrin hökmdarları Atabəylərin ali hakimiyyətini qəbul etmiş, məscidlərdə Cahan Pəhləvanın adına xütbə oxunmasına göstəriş vermişdilər. Həmsərhəd bölgələrin bəzi hakimləri öz pullarının üzərində Eldənizin adını yazdırmışdılar. Cahan Pəhləvanın qardaşı Qızıl Arslanın (1186–1191) hakimiyyəti dövründə tarixi Azərbaycanın mərkəzi Təbriz şəhəri dövlətin paytaxtına çevrilmişdir.

1175–1191-ci illər Atabəylərin yüksəliş dövrü olmuşdur. Bu zaman İran, İraq, Şərqi Anadolu və Qafqazın müəyyən hissəsi onların nəzarəti altında idi.



*Şək. 4.17. Möminə xatun türbəsi. Türk ənənələrini islam ruhu ilə birləşdirən memarlıq abidəsi. XII əsr. Naxçıvan, Azərbaycan*

Bu sülalənin axırıncı hökmdarları olan **Əbu Bəkr** (1191–1210) və **Özbəyin** (1210–1225) dövründə Səlcuqlu əmirlərinin və Xarəzmşahların (Anuştiginlər) müdaxiləsi nəticəsində dövlət zəifləmişdir. 1220-ci ildə Atabəylər monqollardan güclü zərbə almışdır. 1225-ci ildə isə xarəzmşah Cəlaləddin Məngü Berdi tərəfindən Atabəylərin siyasi varlığına son qoyulmuşdur.



*Şək. 4.18. Mərdəkan qalası (Abşeron). XII–XIII əsrlərdə Şirvanşahlar sülaləsi tərəfindən inşa edilən memarlıq abidələrindən biri. Bakı, Azərbaycan*

Şərqi Anadoluda **Artuklu** (1102–1409), Suriyada **Börülü** (1104–1154) və **Zəngi** (1127–1250), Ərbildə (Şimali İraq) **Begtegini** (1144–1233), İranda **Salqurlu** (1148–1286) sülalələri Səlcuqlu dövründə bu dövlətin ərazisində müstəqil dövlətlər qurmuşdular.

Eldəniz tərəfindən əsası qoyulan Azərbaycan Atabəylər dövləti atabəylik sisteminin mütərəqqi nümunəsi idi. Bu dövrdə Azərbaycanda və ətraf bölgələrdə iqtisadiyyat və mədəniyyət sürətlə inkişaf edirdi. Bir sıra memarlıq abidələri (məsələn Möminə xatun türbəsi) və ədəbi əsərlər o dövrün irsidir. Məşhur memar Əcəmi Naxçıvani və dahi Azərbaycan şairi Nizami Gəncəvi bu dövrdə yaşayıb-yaratmışlar.

### Nizami Gəncəvi

Nizami Gəncəvi (1141–1209) türk dünyasının klassik şairi və böyük mütəfəkkiridir. O, Azərbaycanın Gəncə şəhərində anadan olmuşdur. Nizami Gəncəvi kiçik yaşlarından elmləri çox tez mənimsəməsi ilə insanların diqqətini özünə cəlb etmişdir. O, riyaziyyat, tibb, musiqi, təsviri incəsənət, islam fəlsəfəsi və digər elmləri dərindən öyrənmişdir. Nizami Gəncəvi türk dili ilə bərabər, fars və ərəb dillərində də şeirlər yazmışdır. Onun yenilikçi və təkrarsız "Xəmsə"si ("Beşlik") dünya ədəbiyyatının nadir incilərindəndir. Nizami Gəncəvi "Xəmsə"yə daxil olan "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" adlı dastanlarını öz istəyi ilə hökmdarlara həsr etmişdir. Onun dahi əsərləri Şərq və Qərb poeziyasının inkişafına böyük təsir göstərmişdir.



*Şək. 4.19. Nizami Gəncəvi*

***Nizami Gəncəvinin şeirlərini öyrənin və bəyəndiyiniz şeirlərdən birini sinif yoldaşlarınız üçün oxuyun.***



*Şək. 4.20. Gövhər Nəsibə xəstəxanası*

### Gövhər Nəsibə xəstəxanası

Türkiyə Səlcuq sultanı I Qiyasəddin Keyxosrov vərəm xəstəliyinə düçar olmuş bacısı Gövhər Nəsibənin vəsiyyətini yerinə yetirərək xəstəxana (dar-üş-şəfa) tikdirmişdi. Kayseri şəhərində yerləşən bu xəstəxananın inşası 1206-cı ildə tamamlandı. Burada qadın, kişi, müsəlman, qeyri-müsəlman fərqi qoyulmadan hər kəs müalicə olunurdu. Xəstəxananın bütün xərcləri türk-müsəlman ənənələrinə uyğun olaraq xeyriyyə fondları (vəqf) tərəfindən ödənilirdi.

***Bu xəstəxanada dinindən asılı olmayaraq hər kəsə yardım göstərilməsi türk mədəniyyətinin hansı dəyərlərinə söykənirdi?***

### Mövlana Cəlaləddin Rumi



*Şək. 4.21. Mövlana Cəlaləddin Rumi*

Şair, mütəfəkkir və sufi Cəlaləddin Rumi 1207-ci ildə Bəlx bölgəsində anadan olmuşdur. Onun anası Bəlx əmiri Rüknəddinin qızı, nənəsi isə Xarəzmşahlar sülaləsindən bir türk şahzadəsi idi. O, Nişapur, Bağdad, Şam və Hələb şəhərlərində təhsil almışdır. Cəlaləddin Rumi 1220-ci ildə Konyaya (Türkiyə) köçmüş və ömrünün sonuna kimi burada yaşamışdır. O, fars, ərəb və türk dillərində sufi şeirləri yazmışdır. Rumi on yeddi min beytdən, altı dəftərdən ibarət olan "Məsnəvi-i mənəvi" ("Dərin mənəvi məna daşıyan ikimisralı beyt; məsnəvi – klassik Şərq poeziyasının ölçülərindən biri") adlı əsərini on ilə tamamlamışdır. Öz sufilik məktəbinin əsasını qoyan Rumiyə *Mövlana* (Əfəndimiz) adı verilmişdir. Onun əsərləri ilə bağlı Şərq və Qərb ədəbiyyatında çoxlu sayda araşdırmalar aparılmışdır. Cəlaləddin Rumi islama çox önəm verməklə bərabər, istər xristian olsun, istər yəhudi, hər kəsə sayğı göstərmiş və bu rəftarı ilə başqa dinlərin nümayəndələrinin də sevgisini qazanmışdı. O, 1273-cü ildə Konyada vəfat etmişdir.

***Mövlananın ən mühüm əsəri olan "Məsnəvi"ni öyrənin və bəyəndiyiniz beyti sinifdə dostlarınıza oxuyun.***

### Yunus Əmrə



*Şək. 4.22. Yunus Əmrə*

Yunus Əmrə (1240–1321) Əskişəhərdə anadan olmuşdur. Anadoluda türk şeirinin öncülü Yunus Əmrə sufi və filosof olaraq şeirlərini xalqa yaxın dildə qələmə almışdır. Bu səbəbdən onun “Divan”ında yer alan sufi şeirləri Anadolu və Balkanlarda böyük nüfuz qazanmışdır. Onun “Risalətün-Nushiyyə” adlı əsəri məsnəvi üslubunda yazılaraq din, sufilik və əxlaq mövzularını əhatə edir və “Nəsihətlər kitabı” mənasını daşıyır. Yunus Əmrənin şeirləri mövzu, forma və dil üslubu baxımından Mərkəzi Asiya və Ural-Volqa türkləri arasında yayılmış xalq ədəbiyyatına yaxındır.

## 9. XARƏZMŞAHLAR DÖVLƏTİ



Anuştiginlər dövləti kimi də tanınan Xarəzmşahlar dövləti XI–XIII əsrlərdə mövcud olmuşdur. Bu dövlətin əsasını əvvəllər Səlcuqlulara sərkərdələr kimi xidmət edən türkəsilli Anuştiginlər sülaləsinin nümayəndələri qoymuşlar.

Xarəzmşahların müstəqilliyi türkəsilli Anuş tiginin hakimiyyəti dövründən başlayır. 1128-ci ildə Xarəzmə vali təyin edilən **Atsızın** dövründə Anuştiginlər tam müstəqil idarəçilik yolunu seçmişdilər. 1142-ci ildə Atsız Xorasana hücum edərək Mərv və Nişapuru ələ keçirmişdi.

Atsız və **İl Arslanın** (1156–1172) hakimiyyəti dövründə Xarəzmşahlar həm İraq Səlcuqlularına, həm də qarakitaylara qarşı mübarizə aparmışdılar. 1157-ci ildə Sultan Səncərin ölümündən sonra Xarəzmşahlar dövləti müstəqil olduğunu elan etdi.

Xarəzmşahların dövlətinin yüksəlişi **Əlaəddin Təkəş** (1172–1200) dövründə olmuşdur. Xarəzmşah Əlaəddin Təkəş özünü Səlcuqluların varisi sayırdı və *Səncər* titulunu götürmüşdü. Təkəşin oğlu **Əlaəddin Məhəmmədin** (1200–1220) hakimiyyəti dövründə Xarəzmşahlar dövləti Xorasan, Mavəraünnəhr,

həmçinin Qafqaz və İranın bir hissəsini tutmuşdu. Əlaəddin Məhəmmədin əsas məqsədi Çini zəbt etmək idi. Onun kəşfiyyat qüvvələri Yeddisu və İli bölgələrinə qədər (Cunqariya darvazaları / Şərqi Türküstan) irəliləyərək bu torpaqlarda hökmranlıq edən qarakitaylara ağır zərbə vurmuşdu.

1220-ci ildə bütün Mərkəzi Asiya və ətrafları monqolların hücumuna məruz qaldı. Bu hücum Xarəzmşahlar dövlətinin varlığına son qoydu. 1221-ci ildə Xarəzmşahların paytaxtı olan Ürgənc şəhəri monqollar tərəfindən ələ keçirildikdən sonra Mərkəzi Asiyada monqolların hökmranlığı dövrü başlandı.

Əlaəddin Məhəmmədin oğlu **Cəlaləddin Məngü Berdi** monqollarla mübarizəni davam etdirərək cənuba geri çəkilmiş və Hindistana – Dehlinin hakimi, türkəsilli Eltutmuşun yanına getmişdi. Sonra o, İran və İraqdan keçərək Azərbaycana daxil olmuşdu. 1225-ci ildə o, Eldənizlər üzərində qələbə çalaraq Təbrizi tutmuş, Gürcüstanı işğal etmişdi. 1226-cı ildə Tiflisi tutduqdan sonra dövlətinin sərhədlərini Cənubi Qafqazdan Şərqi Anadoluya qədər genişləndirmişdi. 1230-cu ildə Yassıçəmən döyüşündə Anadolu Səlcuqluları tərəfindən məğlub edilən Cəlaləddinin vəfatından sonra (1231-ci il) Xarəzmşahlar dövləti süqut etdi.

Xarəzmşahlar dövləti qüdrətinin zirvəsində olarkən öz hakimiyyətini İran, Cənubi Qafqaz, Dağıstan, Oman dənizi, Əfqanıstan, Mavəraünnəhr, Xarəzm, həmçinin Balxaş gölü və Aral dənizi arasında yerləşən torpaqları əhatə edən geniş əraziyə yaymışdı. Xarəzmşahlar türk-müsəlman və İran mədəniyyətinin nümayəndələri idi. Onlarda dövlət idarəçiliyi sistemi Səlcuqlularınkı ilə oxşar idi. Xarəzmşahlar dövləti Mərkəzi Asiyada monqollardan əvvəlki dövrün sonuncu qüdrətli dövləti idi.

Bu dövrdə Ürgənc şəhəri (Xarəzm vahəsi) islam mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Xarəzmşahlar dövlətinin hərbi gücü, əsasən, oğuz, kanqlı və qıpçaq türklərindən ibarət idi.

Dövlətlərinin əldən çıxmasına baxmayaraq, Xarəzm türkləri on ildən çox bir müddət ərzində Hindistanda, İranda, Qafqazda və Şərqi Anadoluda monqollara qarşı mübarizə aparmışdılar. Cəlaləddin Məngü Berdinin rəhbərliyi ilə xarəzmli əsgərlərin göstərdikləri qəhrəmanlıqlar bir çox tarixi və ədəbi əsərlərin mövzusu olmuşdur. Çingiz xan öz oğullarına: "Cəsur oğul belə olar!" – deyə Cəlaləddini nümunə göstərmişdi. Şərqi Anadoluda şəhid olan bu cəsur şahzadənin döyüşçüləri burada məskən salıb yerli sakinlərlə qarışmışdılar. Anadoluda *Xorzum*, yaxud *Xarəzm* adlı kəndlərin mövcud olması buna sübutdur.

Xarəzm bölgəsi ədəbiyyat, elm və incəsənət baxımından türk dünyası tarixində önəmli yer tutur. Xarəzm mədəniyyəti mühitində yetişən Mahmud Zəmahşarinin (1074–1143) əxlaq, dil və fəlsəfəyə dair əsərləri, Süleyman Bakırqaninin (Həkim Ata) "Bakırqan kitabı" (XII əsr), Bürhanəddin Rabğuzinin "Qısas əl-ənbiyə-i Rabğuzi" (1301-ci il) əsərləri çox məşhurdur. Bu əsərlərin müəllifləri Xarəzmin mədəni mühitinə mənsub idilər. Xüsusilə, Bakırqani və Rabğuzinin adıçəkilən kitabları Xarəzm türkcəsində yazılmış ədəbi əsərlər olaraq Mərkəzi Asiya və İdil-Ural türkləri arasında geniş yayılmışdı.

Oğuz və qıpçaq ləhcələrinin elementlərini özündə daşıyan Xarəzm türkcəsi ədəbi dil kimi Dəşti-Qıpçaqda yayılmışdı. Xarəzm şairləri Qızıl Ordu ədəbiyyatının inkişafına böyük töhfə vermişdilər.



*Şək. 4.23. Çingiz xanın Cəlaləddin Məngü Berdini Hind çayını keçərkən təqib etməsi. Miniatür*

## 10. İLK TÜRK-MÜSƏLMAN DÖVLƏTLƏRİNDƏ SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HƏYAT

Oğuz və Qarluq yabquluqlarının əhalisi, əsasən, türklərdən və qismən də soqdilərdən ibarət idi. Sırdəryanın orta hövzələrindən İssıkgölə qədər olan şəhərlərdə müxtəlif ölkələrdən gəlmiş tacirlər onlarla birlikdə yaşayırdılar. Mahmud Qaşqarlının yazdığına görə, "*İsficabdan (Sayram) Balasaquna qədər olan şəhər və qəsəbələrdə türklərlə soqdilər birlikdə yaşamış, soqdilər həm türk, həm də soqdi dilində danışmışdılar*". Kimak dövlətinin ərazisində isə kimak və qıpçaq kimi köçəri türk tayfaları çoxluq təşkil etmişdir.

Qaraxanlı dövləti ərazisində fərqli etnik qruplara mənsub insanlar bir arada yaşamışdılar. Dövlətin Taraz, Balasaqun, Barsqan, Qaşqar kimi şəhərlərində şəhərli türk (qarluq, arqu və çigillərdən ibarət) və soqdilər, onların ətrafındakı yaylaqlarda isə çigil, qarluq, yağma, uyğur kimi türk tayfaları və etnosları yaşayırdı. Üzkənd, Fərqanə, Səmərqənd və Buxara şəhərlərində isə müsəlman əhali artıq fars mədəniyyətini qəbul etmiş soqdilərin törəmələri və yerli türklərdən ibarət idi. Həmin vaxt bir

çox qarluq tayfaları Yeddisu bölgəsindən gəlib Mavəraünnəhrə yerləşmişdilər. Şərqi Türküstanın Xotan və Turfan kimi baş şəhərlərində çoxlu müsəlman türk vardı.

Volqa Bulqar dövlətinin ərazilərində, əsasən, Volqa və Ural (Yaik) çayları hövzəsində bulqar, qıpçaq, başqırd türkləri ilə birlikdə slavyan və fin-uqor xalqları (mordva, udmurt, mari) yaşamışlar.

Qədim türk cəmiyyətindəki qadınlara sayğı, hörmət türk-müsəlman sülalələri dövründə də qorunub saxlanılmış, bu dövrdə dövlət və cəmiyyət həyatında əhəmiyyətli iz qoymuş çoxlu sayda türk qadın yetişmişdir. Məsələn, Səlcuqlu (1038–1157) və Xarəzmşah (1097–1231) sülalələrində Türkan xatunlar, Hindistan Türk-Məmlük sülaləsinə mənsub olan Raziyə Begüm (1236–1240), Misir Türk-Məmlük sülaləsinin ilk qadın hökmdarı Şəcər-üd-Dürr (1250-ci il) kimi tanınmış qadınlar dövlət idarəçiliyində söz sahibi olmuşlar. Türk cəmiyyətlərində məşhur memarlıq abidələrinin bir qismi də qadınların şərəfinə inşa edilmişdir. Məsələn, Qaraxanlı dövrünə aid olan Ayşə Bibi türbəsi (XII əsr, Taraz), Azərbaycan Eldənizlərinə aid Möminə xatun türbəsi (XII əsr, Naxçıvan), Qızıl Ordu məlikələrindən Törəbikə xanım türbəsi (XIV əsr, Köhnə Ürgənc), Əmir Teymurun tikdirdiyi Bibixanım məscidi (XV əsr, Səmərqənd), Baburlar dövrünə aid dünyaşöhrətli Tac-Mahal türbəsi (XVII əsr, Aqra) və başqalarını nümunə göstərmək olar.



*Şək. 4.24. Ayşə Bibi türbəsi. XII əsr. Taraz, Qazaxıstan*

Türklərin islamı qəbul etməsi ilə birlikdə onların şəhər mədəniyyəti də getdikcə daha sürətlə inkişaf etməyə başladı. Müsəlman türklərin karvanları Ərəbistan yarımadası, Hindistan, İran və Sibir, Volqa-Ural bölgələrinin qarşılıqlı ticarətində vasitəçi oldu.

Onlar uzaq şimal ölkələrindən xəz məmulatlarını gətirib müsəlman ölkələrində və ətraflarda satırdılar. Volqa Bulqar dövlətinin paytaxtı Bulqar şəhəri bölgənin ən iri iqtisadi və mədəni mərkəzinə çevrildiyi kimi, Səmərqənd, Buxara, Qaşqar, Balasaqun, Taraz şəhərləri də Qaraxanlıların başlıca siyasi və mədəni

mərkəzləri rolunu oynayırdı. Xüsusən də Səmərqənd və Buxara din və elm mərkəzləri olaraq İslam dünyasında məşhur idi. Dünyanın uzaq bölgələrindən bu şəhərlərin mədrəsələrində təhsil almaq üçün gəlirdilər.



*Şək. 4.25. Burana minarəsi. Qırğızıstan*

Bu dövrdə türk xalqlarının yaşadığı bölgələrin sərhədləri daha da genişlənmişdi. Türklər Asiya qitəsinin sadəcə mərkəzi və şimal-şərq hissəsində deyil, qitənin cənub-qərb hissəsində də əhalinin böyük hissəsini təşkil etməyə başlamışdılar. Bu dövrdə bir çox türk tayfaları yeni ərazilərə köç etmişdilər. Türklər Qəznəvi və Səlcuqlu dövlətlərinin hakimiyyəti altında olan ərazilərdə, Şimali Hindistan (indiki Pakistan), Əfqanıstan, İran, İraq və Suriya torpaqlarında yerləşərək buranın yerli əhalisi ilə bir arada yaşamağa başlamışdılar. Bununla bərabər, türk sülalələrinin idarə etdikləri ərazilərdə türklərin mədəniyyəti ərəb, hind, əfqan xalqlarının və Qafqazın yerli sakinlərinin mədəniyyəti ilə qarşılıqlı əlaqədə olmuşdur. Bu mədəni fonda adıçəkilən bölgələrin əhalisinin əksər hissəsinin eyni inanca, yəni islam dininə keçməsi baş verirdi. Bir çox türk alimlərinin öz əsərlərini fars və ərəb dillərində yazdığı, türk hakimlərinin Qəznə, Kabil, İsfahan, Rey, Bağdad, Şiraz, Təbriz və s. şəhərlərində mədrəsə, xəstəxana, məktəb, hamam, körpü və yollar inşa etdirdikləri məlumdur.

Bu dövrdə İpək yolunun Aralıq dənizindən Çinə qədər uzanan şimal və cənub xətləri türklərin nəzarəti altında idi. Türklərin şəhərlərarası yollarda təhlükəsizliyi təmin etməsi nəticəsində fars, ərəb, hind və çinlilərin ticarət karvanları öz ərzaq və mallarını uzaq məsafələrə maneəsiz çatdıra bilirdilər.

Türklərin məskunlaşdığı ərazilər erkən orta əsrlərə, xüsusilə türk xaqanlıqları (VI–IX əsrlər) dövrünə nisbətən xeyli genişlənmiş və türklər fərqli mədəniyyətlərlə tanış olmuşdular. Ərəb və fars mənbələrində Şərqi Avropadan Çinə qədər on min kilometrlərlə uzanan geniş ərazilərin *Bilad əl-Türk* (Türk ölkələri) kimi verilməsi bu dövrlərə təsadüf edir. Bu torpaqları qarış-qarış dolaşan Mahmud Qaşqarlı özünün "Divanü lüğat-it-türk" adlı əsərində türk tayfalarının yaşadıqları coğrafiyanı aşağıdakı kimi təsvir edirdi:

"Türklər iyirmi boydan ibarətdir. Bunların hamısı Nuh peyğəmbərin oğlu Yafəs, Yafəsin oğlu Türkdən törəyiblər... Rum (Bizans) ölkəsinə ən yaxın olan boy Peçeneqdir, sonra Qıpçaq, Oğuz, Yemek, Başqırd, Basmıl, Kay, Yabaku, Tatar, Qırğız boyları gəlir. Bu boyların hamısı Rum ölkəsi yanından şərqə doğru beləcə uzanıb gedir: Çigil, Tuhsi, Yağma, Uğrak, Çaruk, Çomul, Uyğur, Tanqut, Hıtay".



*Şək. 4.26. Mahmud Qaşqarlının Türk dünyası xəritəsi*

"Bir qismi də bütün Mavəraünnəhrin hər tərəfini türk ölkəsi saymışdır. Bu bölgə Peykənddən (Buxara) başlayır... Mavəraünnəhrdən, Peykənddən şərqə türk ölkəsidir. Səmərqəndə Semizkənd deyilir. Necə ki Şaş (Çaç) şəhərinə Daşkənd deyildiyi kimi, Üzkənd, Tünkənd adları da vardır... Bu şəhərləri türklər qurub, adlarını da özləri qoyublar".

***Mahmud Qaşqarlının "Divanü lüğat-it-türk" əsərində adı çəkilən türk tayfalarının məskunlaşdığı əraziləri xəritədə müəyyən edin. Adları qeyd olunan şəhərlərin bu gün hansı ölkələrdə yerləşdiyini araşdırın.***

**Əl-Xarəzmi**



*Şək. 4.27. "Beytül-Hikmə". Miniatür*

Məhəmməd ibn Musa əl-Xarəzmi IX əsrdə Xarəzmdə yaşamış alim, riyaziyyatçı və astronomdur. O, gənc yaşlarında yunan və hind elmlərini mükəmməl öyrənmişdi. Əsasını qoyduğu "Beytül-Hikmə"də (Müdriklər evi) bir çox tanınmış elm adamları ilə bərabər elmi araşdırmalar aparmışdı. Onun gördüyü işlər Avropada İntibah dövrü elminin inkişafında böyük rol oynamışdı. Əl-Xarəzmi ilk dəfə olaraq cəbri riyaziyyatın ayrıca bir sahəsi kimi təqdim etmişdir. *Cəbr* termininin özü onun "əl-Cəbr" əsərinin adından götürülüb, *əl-Xarəzmi* ləqəbi isə *alqoritm* adlı riyazi terminə çevrilmişdir.

Əl-Xarəzminin arifmetika (hesab) elminə aid əsərləri Avropa universitetlərində əsas dərs vəsaiti kimi istifadə olunmuşdur.

Əl-Xarəzmi sadəcə riyaziyyatla deyil, coğrafiya ilə də maraqlanmışdır. Onun coğrafiyaya həsr olunmuş "Yer kürəsi haqqında" əsəri bütün dünyada məşhurdur. Əl-Xarəzmi Yerin sahəsi ilə bağlı hesablamalar aparmış, astronomiya sahəsində mühüm kəşflər etmiş və göy cisimlərinin hərəkət prinsipini açıqlamışdır.

Əl-Xarəzminin yaratdığı dünya xəritəsi Ptolemeyin tərtib etdiyi xəritədən həqiqətə daha yaxındır.

***Əl-Xarəzminin riyaziyyat elminə verdiyi ən mühüm töhfə nədən ibarətdir?***

**Əl-Fərabi**


*Şək. 4.28. Əl-Fərabi*

Əbu Nəsr Məhəmməd ibn Tarhan ibn Uzluğ əl-Fərabi IX əsrdə yaşamış məşhur türk filosofu, riyaziyyatçısı və musiqi nəzəriyyəçisidir. Dahi alim Otrar (Fərab) şəhərində anadan olmuşdur. O, gənc yaşlarında Çaç, Səmərqənd, Buxara və Bağdad şəhərlərində mükəmməl, hərtərəfli təhsil almış, ərəb, fars, yunan və hind mədəniyyətlərinin nailiyyətləri ilə yaxından tanış olmuşdur.

Əl-Fərabi elmin müxtəlif sahələrinə aid 150-dən çox əsər yazmışdır. "Əl-Mədinətül-fazıla" ("Fəzilətli şəhər"), "əs-Siyasətül-mədəniyyə" ("Şəhər siyasəti"), "əl-Müsıkal-kəbir" ("Böyük musiqi") adlı əsərləri ən məşhurlarıdır.

Əl-Fərabinin əsərləri Qərb və Şərq ölkələrində elmin inkişafında böyük rol oynamış və bütün bəşəriyyətin fikir xəzinəsinə öz töhfəsini vermişdir. Ona görə də Fərabi yunan mütəfəkkiri Aristoteldən sonra "İkinci müəllim" ("Muallim-i Sani") ləqəbini daşımışdır.

***Əl-Fərabinin ən çox hansı əsərləri məşhurdur? Bu əsərlərdə, sizcə, nədən bəhs olunur?***

## DƏYƏRLƏNDİRMƏ ÜÇÜN SUALLAR

1. Mərkəzi Asiyada islam dini necə yayılmışdı?
2. İlk türk-müsəlman dövlətlərindən hansıları Mərkəzi Asiya xaricində qurulmuşdur?
3. Talas döyüşünün türk tarixində əhəmiyyəti haqqında danışın.
4. Mahmud Qəznəvinin Hindistana etdiyi hərbi yürüşlərin səbəbi nə idi?
5. Səlcuqluların əcdadları hansı bölgədə yaşayırdılar?
6. Orta əsr türk dövlətləri dövründə mədəni həyat necə idi?

# V BÖLMƏ

# TÜRK-MONQOL DÖVLƏTLƏRİ

## ƏSAS MÖVZULAR

1. MONQOL İMPERİYASI
2. QIZIL ORDU DÖVLƏTİ
3. CIĞATAY DÖVLƏTİ
4. MOĞOLUSTAN DÖVLƏTİ
5. ELXANİLƏR (HÜLAKÜLƏR) DÖVLƏTİ
6. XUBİLAY XANIN DÖVLƏTİ
7. TÜRK-MONQOL DÖVLƏTLƏRİNDƏ SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HƏYAT

*Xəritə 5.1. Asiya Türk-Monqol imperiyaları dövründə (1206–1368)*



## 1. MONQOL İMPERİYASI

XIII–XIV əsrlərdə mövcud olmuş bu dövlətin qurucuları dünya tarixində **Çingiz xan** adı ilə tanınan **Timurçin** və onun törəmələri idi. Ən qüdrətli dövründə bu imperiya Monqolustan, Çin, Koreya, Cənubi Sibir, Mərkəzi Asiya, İran, Kiçik Asiya, Qafqaz və Şərqi Avropanı əhatə etmişdir.

XIII əsrin əvvəllərində indiki Monqolustanın ərazisində türkdilli nayman, kerey (kereyit), cəlairi, konqurat, monqol, tatar xanlıqları və siyasi birlikləri vardı. Kiyat monqol tayfasına mənsub olan Timurçin bu siyasi qurumları ləğv edərək 1206-cı ildə *Çingiz xan* ləqəbi ilə Onon və Kerulen çayları arasındakı bölgə üzərində öz hakimiyyətini qurmuşdu. 1207–1208-ci illərdə onun böyük oğlu Cuci Yenisey bölgəsini, Cənubi Sibiri, Turfanı, həmçinin Çinin şimal və qərb hissələrini ələ keçirmişdi. Şərqi Türküstan (indiki ÇXR-in SUMR-u) və Yeddisunu tutduqdan sonra Çingiz xan Mərkəzi Asiyanın başqa bölgələrini də öz ərazilərinə qatmaq üçün hazırlıq işləri görməyə başlamışdı. "Otrar faciəsi" adı ilə tarixə düşmüş hadisə bu planın həyata keçirilməsi üçün bir bəhanə olmuşdu. 1218-ci ildə Çingiz xanın

*Xəritə 5.2. Çingiz xanın yürüşləri*



göndərdiyi 450 nəfər və 500 dəvədən ibarət olan ticarət karvanı Otrar şəhərinə girən zaman şəhərin hakimi Kair xan xarəzmşahla əlbir olaraq karvanı əsir almış və tacirləri öldürmüşdü.

Monqollar 1219-cu ildən başlayaraq, Xarəzmşahların əsas şəhərləri olan Otrar, Səmərqənd, Buxara və Ürgənci ələ keçirib, 1219–1224-cü illərdə bütün Mərkəzi Asiyanı nəzarət altına almışdılar. Bu hərbi uğurlardan sonra Çingiz xan tabeliyində olan torpaqları dörd oğlu arasında bölüşdürmüşdü. Şərqdə İrtış çayından başlayaraq, qərb tərəfi Avropaya qədər uzanan "at dırnağı dəyən bütün torpaqlar" onun böyük oğlu Cucinin payı olmuşdu. İkinci oğlu Cığataya Şərqi Türküstan (indiki ÇXR-in SUMR-u), Yeddisu, indiki Cənubi Qazaxıstan torpaqları, həmçinin Mavəraünnəhr və Xorasanı, üçüncü oğlu Ugedeyə Qərbi Monqolustan, Altaylar, Tarbaqatay və İrtış çayının yuxarı hövzəsindəki torpaqlar, dördüncü oğlu Tuluya isə Monqolustanı vermişdi.

Çingiz xanın Xubilay və Hülakü adlı nəvələrinin hərbi yürüşləri nəticəsində Çin, İran, Azərbaycan, Cənubi Qafqaz, İraq torpaqları da yeni yaranmış monqol Elxanilər dövlətinə qatılmışdı. Beləliklə, Çingiz xan və onun törəmələri tərəfindən əldə edilmiş torpaqlarda sonralar tarixdə *Qızıl Ordu dövləti, Cığatay dövləti, Monqolustan xanlığı, Elxanilər dövləti və Xubilay xanlığı (Yuan imperiyası)* kimi uluslar-dövlətlər yaranmışdı.

## 2. QIZIL ORDU DÖVLƏTİ



Tarixdə Uluq Ulus ("Böyük dövlət") kimi tanınan bu imperiya 1240-cı illərdə Çingiz xanın böyük oğlu Cucinin Ulusu əsasında Monqol imperiyasının qərb hissəsində yaranmışdı. Onun əraziləri Şərqi Avropa, Şimali Qafqaz, Cənubi Rusiya bölgələri və Dəşti-Qıpçaqı əhatə edirdi. Ən qüdrətli dövründə Qızıl Ordu dövləti öz hakimiyyətini Şərqi Avropada Dnepr çayının sağ sahillərindən Ural dağlarına və Sibirə qədər yaymışdı. Qızıl Ordunun sərhədləri cənubda Qara dəniz, Qafqaz dağları və Elxanilər dövlətinin hakimiyyəti altında olan Azərbaycana çatmışdı. Bulqar (Qazan), Saray-Batı (indiki Həştərxan yaxınlığı) və Saray-Bərkə (indiki Volqoqradətrafı) şəhərləri Qızıl Ordu dövlətinin inzibati mərkəzləri olmuşdur.

Cucinin böyük oğlu **Batı xanın** (1227–1256) Şərqi Avropaya uğurlu hərbi yürüşləri sayəsində dövlətin ərazisi genişlənmişdi. Şərqi Avropa dövlətləri və rus knyazlıqları Qızıl Ordudan asılılıqlarını qəbul edərək xərac verməli olmuşdular.



*Şək. 5.1. Özbək xanın adına Azovda zərb olunan, üzərində qədim türk yazıları olan pul. XIV əsr*

**Bərkə xan** (1258–1266) islam dinini qəbul etdi. O, 1260-cı ildə İdil çayının aşağı hövzəsində orta əsrlərin ən böyük şəhərlərindən biri sayılan Saray-Bərkə şəhərinin əsasını qoydu. Bərkə xan bütün monqol dövlətləri hökmdarlarının yığışdığı qurultaya getməkdən imtina etdi. Qızıl Ordu mərkəzdən asılı olmayan tam müstəqil dövlət oldu. O həm də başqa monqol sülaləsi ilə, Elxanilərlə (Hülakülərlə) vuruşurdu. Bərkə xan Misir məmlüklərinin sultanı Bəybarsla ittifaqa girərək Hülakünün başçılığı altında monqolların Hicazı işğal etmələrinin qarşısını almışdı.

Bərkə xanın ölümündən sonra **Məngü Teymur xan** (1266–1282), **Toxta xan** (1290–1312), **Özbək xan** (1312–1342) və **Canıbəy xan** (1342–1357) Qızıl Ordunun gücünü və qüdrətini qorumuşlar.

Canıbəy xanın ölümündən sonra taxt uğrunda mübarizə başladı.

Toxtamış xan 1380-ci ildə Əmir Teymurun dəstəyi ilə taxta çıxmış və bununla hakimiyyət uğrunda qarşıdurmalara son qoymuşdur. Sonralar Əmir Teymurun Qızıl Orduya qarşı yürüşlər təşkil etməsi və taxt uğrunda mübarizələrin yenidən başlaması dövlətin zəifləməsinə səbəb olmuşdur. Bu çəkişmələr nəticəsində zəifləyən Qızıl Ordu ərazilərində Çingizi şahzadələri tərəfindən bir neçə xanlıq qurulmuşdur. Bir qədər sonra Qızıl Orduda baş verən daxili çəkişmələr nəticəsində Moskva knyazlığı müstəqillik əldə etmişdir. Moskva knyazlığından qərbdəki əraziləri Krım xanlığı ələ keçirmiş və 1502-ci ildə Qızıl Ordu dövlətinin mövcudluğuna son qoyulmuşdur.



*Şək. 5.2. Cuci (Joşı) xan türbəsi. XIII əsr.*
*Ulı Tau (Ulu Dağ). Qazaxıstan*

Özbək xanın hakimiyyəti dövründə islam dini dövlət dini olaraq qəbul edilmişdir. Bununla bərabər, qədim türk ənənələri qorunmuş, uyğur əlifbası ilə türk dilində əmr və fərmanlar yazılmışdır. Bundan başqa, Şimali Qafqazla Krım arasındakı Azov bölgəsində Özbək xanın adına üzərində Orxon-türk əlifbasında yazılar olan gümüş pullar zərb olunmuşdur.

Qızıl Ordunun tarixindən başlanan dövlətçilik ənənələri sonralar İdil-Yayık (Volqa-Ural), Krım və Mərkəzi Asiya ərazilərində yaranmış bir çox türk, monqoləsilli sülalələr üçün ümumi ənənə oldu.

Qızıl Ordunun yerində XV–XVII əsrlərdə Qazan xanlığı, Krım xanlığı, Həştərxan xanlığı, Qasım xanlığı, Tümen xanlığı (Sibir), Özbək xanlığı (Əbülhayr) Şeybanilər, Qazax xanlığı, həmçinin Noqay Ordusu kimi siyasi qurumlar ortaya çıxmışdır.

Qızıl Ordu hökmdarları ölkənin mədəni həyatına böyük əhəmiyyət verirdilər. Onlar Dəşti-Qıpçaqın bir çox bölgələrində şəhərlər salaraq, buralara şair, fəqih (ilahiyyatçılar), sənətçi və alimləri dəvət etmişdilər. Belə siyasət nəticəsində Qızıl Ordunun Bulqar, Saray-Bərkə, Yeni Saray, Hacı Tarxan (Həştərxan) və Ürgənc kimi əsas şəhərlərində əsərlərini ədəbi qıpçaq türkcəsində yazan şair, ozan və tarixçilər yetişmişdi. XIV əsrdə yaşamış şairlərdən Seyfi Sarayinin "Gülüstan bit-Türki" ("Türk dilindəki Gülüstan"), Xocabəy Xarəzminin "Məhəbbətnamə", Qütbün "Xosrov və Şirin", Durbəyin "Yusif və Züleyxa" kimi əsərləri, Asan Kayqı və Kaztuğan-Cırav kimi xalq ozanlarının şeirləri, Ötəmiş Hacının "Çingiznamə" (XVI əsr) əsəri, Qızıl Ordu xanlarının uyğur əlifbası ilə yazılan fərmanları, "Edige dastanı" bu dövrün parlaq ədəbi və tarixi əsərləridir.

XIV əsrə aid qədim qıpçaq türkcəsi və latın hərfləri ilə yazılmış "Codex Cumanicus" ("Kuman/qıpçaq kitabı") və Mahmud Bulqarinin "Nəhcül-Fəradis" ("Cənnətə açıq yol") əsərləri Qızıl Ordu dövrünün dil və mədəniyyətini əks etdirən əsərlərdəndir. Xalq şairi (akın) Asan Kayqının əsərlərində bir çox türk cəmiyyətləri üçün Qızıl Ordu mədəniyyətinin ortaq olmasından bəhs edilir. Noqaylar, qazaxlar, qaraqalpaqlar, başqırdlar, qumuqlar, qırğızlar və Krım türkləri arasında qorunan Asan Kayqı şeirlərindən birində bu ortaqlığa dair belə sözlər yer alır:

"*Nogay, Kazak, Başkurt tübimiz bir,*
*Altay, İrtış, Uralnı kıdırğanımız*".

(Noqay, qazax, başqırd – kökümüz bir.
Altay, İrtış və Ural torpaqları güzərgahımız).



*Şək. 5.3. Özbək xan məscidi (1333). Solhat, Krım*

### Seyfi Sarayi

Qızıl Ordu ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Seyfi Sarayi 1321–1391-ci illərdə yaşamışdır. O özünün "Gülüstan bit-Türki" ("Türk dilindəki Gülüstan") əsərini Sırdərya sahillərində yazmağa başlamış, Misir Türk-Məmlük sülaləsi ərazisində, Nil çayı sahilində başa çatdırmışdır. Bu əsər məşhur fars klassik şairi Sədi Şirazinin "Gülüstan" adlı kitabının sərbəst tərcüməsidir. Əsərdə cəmiyyət və ailə, xeyir və şər, qəddarlıq və mərhəmət, ata və oğul, doğru və yalan, hökmdar və kəndli, ər və arvad, kiçik qardaşla böyük qardaş münasibətləri barədə suallara cavab verilir.

### Qütb

Şair Qütb Dəşti-Qıpçaqın əsas siyasi və mədəni mərkəzlərindən biri olan Saray şəhərində yaşayıb-yaratmışdır. Onun ədəbi yaradıcılığı XIV əsrin ortalarına təsadüf edir. Qızıl Ordu və Misir Məmlükləri kimi iki böyük türk sülaləsinin sıx mədəni əlaqələr yaratmasında əməyi olan Qütb sonralar Misirdə yaşamışdır. Onun "Xosrov və Şirin" adlı poemasının (N.Gəncəvinin eyniadlı əsərinin ilk sərbəst tərcüməsi) qədim türk (uyğur) və ərəb hərfləri ilə ədəbi qıpçaq dilində yazılması türk mədəniyyəti tarixində böyük əhəmiyyətə malikdir. Bu əlifbalar Qızıl Orduda rəsmi qaydada istifadə olunurdu və hökmdarların fərmanları, əmrləri bu hərflərlə yazılırdı.

***Sizcə, nə səbəbdən Seyfi Sarayi özünün "Gülüstan bit-Türki" əsərində cəmiyyət və ailə münasibətlərindən söz açır?***

### Codex Cumanicus (Kodeks Kumanikus)

"Kuman/qıpçaq lüğəti" kimi tanınan bu əsər XIII əsrin ortalarından XIV əsrin ortalarına qədər, təxminən 100 il ərzində italyan və almanların Qara dənizin şimalındakı qıpçaq türkləri arasından topladıqları qıpçaq dilinə aid məlumatlar əsasında yazılmışdır. İki bölmədən ibarət olan kitabın birinci bölməsi qıpçaqca-farsca-latınca, ikinci bölməsi isə qıpçaqca-almanca və qıpçaqca-latınca lüğətlərdən ibarətdir. "Codex Cumanicus"da yer alan sözlərə aid cümlələr, qıpçaq dilinə çevrilmiş xristian dualar, ilahilər, 47 qıpçaq tapmacası verilmiş və qıpçaq qrammatikasına aid bəzi qaydalar şərh olunmuşdur.

Bu əsər ilk türk-Avropa dilləri lüğəti kimi tanınmaqla bərabər, qədim qıpçaq türk dilinin inkişaf etmiş ədəbi bir dil olduğunu təsdiq edir.



*Şək. 5.4. "Codex Cumanicus"un bir səhifəsinin fotosu*

***"Codex Cumanicus" əsərinin əhəmiyyətini müzakirə edin.***

## 3. CIĞATAY DÖVLƏTİ



Cığatay xanlığı əvvəllər Çingiz xanın monqol imperiyasının tərkibində idi. Xanlıq ticarət şəhərlərində yaşayan oturaq xalqların məskunlaşdığı Yeddisu, Şərqi Türküstan və Mavəraünnəhr kimi əkinçilik üçün əlverişli olan bölgələrdən ibarət olmuşdur. Çingiz xan ölümündən əvvəl bu əraziləri oğlu **Cığataya** vermişdi. Cığatayın həmin torpaqlarda 1227-ci ildə əsasını qoyduğu xanlıq 1370-ci ildə Teymur tərəfindən dağıdılana qədər varlığını qoruyub saxlamışdır.

1242-ci ildə Cığatay xanın ölümündən sonra onun varisləri Mərkəzi Asiyanın şimal-şərq bölgələrini əhatə edən Monqol imperiyasına qarşı mübarizəyə başlamışdılar. 1266-cı ildə taxta çıxan **Mübarəkşah** islam dinini qəbul edən ilk Cığatay xanı olmuşdur. Cığatay dövləti ən parlaq dövrünü **Kebek xanın** (1320–1326) hakimiyyəti dövründə yaşamışdır. Kebek xan köçəri həyatdan imtina edərək özünə Karşı şəhərində saray tikdirmiş və oturaq həyat tərzinə

keçmişdir. Bu dövrdə iqtisadiyyat inkişaf etmiş, Kebek tərəfindən ilk Cığatay pulları zərb olunmuşdur. Bu oturaq həyat tərzi və şəhərləşmə ilə birlikdə əhalinin islamlaşması ilə türkləşməsi prosesi baş vermişdir.

Bu dövrdə Mavəraünnəhrdə məskunlaşmış və şəhər mədəniyyətinə uyğunlaşaraq türkləşmiş Qərbi Cığatay xanlığının əhalisi özlərini *Cığataylı* adlandırmağa başlamışdır. Bəzi tarixçilər onları həm də *Cığatay türkləri*, danışdıqları ədəbi dili isə *Cığatay dili* və ya *Cığatay türkcəsi* adlandırmışlar.

XIV əsrdə Cığatay dövləti parçalandı: Altışəhr (Yarkənd xanlığı), Moğolustan (Yeddisu – Şərqi Türküstan) Mavəraünnəhr bölgələri eyni sülalənin müxtəlif qolları tərəfindən idarə olunmağa başladı. Dövlətin şərqində taxta çıxan **Tuğluq Teymur** qərb bölgələrini birləşdirərək Cığatay xanlığının ərazisini yenidən bərpa etdi.

Cığatay dövlətinin siyasi həyatında barlas, cəlairi, arlat, konqurat, arqın, duqlat kimi türk-monqol tayfalarından olan sərkərdələr böyük nüfuza malik idilər. Hərbi xidmətləri qarşılığında onlara *"soyurqal"* adlanan (hədiyyə olunmuş torpaq) əlverişli torpaqlar verilirdi. Sonralar dövlətin Yeddisu və Şərqi Türküstan bölgələrində *dulatlar*, Mavəraünnəhrdə isə *barlaslar* dövlət idarəsində böyük nüfuza malik oldular.

## 4. MOĞOLUSTAN DÖVLƏTİ

Cığatay dövləti dağıldıqdan sonra onun şərq hissəsində Cənub-Şərqi Qazaxıstan, Qırğızıstan və Şərqi Türküstan hüdudlarındakı ərazilərdə XIV əsrin ortalarından XVI əsrin əvvəllərinə qədər Moğolustan xanlığı mövcud olmuşdur. Əvvəlcə dövləti dulat tayfasından olan **Bolatşı** idarə edirdi. Dulat, kereit, arqın, barlas, kanqlı, cəlairi, həmçinin qırğız tayfaları dövlətin əsasını təşkil edirdi. 1348-ci ildə **Tuğluq Teymur** taxta çıxdı. Dövlətin paytaxtı İli çayının yuxarı hövzəsində yerləşən Almalıq şəhəri idi. Tuğluq Teymur 1360–1361-ci illərdə Mavəraünnəhrə yürüş edib qayıtdıqdan sonra hakimiyyəti oğluna tapşırıb tez bir zamanda vəfat etdi. Bundan sonra taxta İlyas Xoca çıxdı. 1365-ci ildə Daşkənd yaxınlığında onunla Əmir Teymur arasında şiddətli döyüş baş verdi. Bu döyüşdə Əmir Teymur məğlub oldu. Bundan sonra Əmir Teymurun yürüşləri davam etdiyinə görə, Moğolustan dövləti tamamilə zəiflədi. 1405-ci ildə Əmir Teymurun ölümündən sonra Moğolustan yenidən müstəqil dövlət oldu. XVI əsrin əvvəllərinə doğru Moğolustan dövləti parçalanmağa başladı.

"Tarixi-Rəşidi" adlı əsərdə Moğolustan dövlətinin ərazisi belə təsvir olunur: "Moğolustan adlanan ölkənin uzunluğu və eni yeddi-səkkiz aylıq yoldur. Şərqdə Barısgöl, Emel və İrtış da daxil olmaqla kalmıkların torpaqları ilə, şimalda Gökçədəniz (Balxaş), Türküstan və Daşkəndlə, cənubda isə Fərqanə vilayəti, Qaşqar, Ağsu, Çalış və Turfanla həmsərhəddir".

## 5. ELXANİLƏR (HÜLAKÜLƏR) DÖVLƏTİ



XIII–XIV əsrlərdə hökm sürmüş və ilk vaxtlar Çingiz xan imperiyasının bir hissəsi olmuş bu dövlətin mərkəzi torpaqlarını tarixi Azərbaycan ərazisi təşkil edirdi, paytaxtı isə Təbriz şəhəri idi. Bu dövlət Çingiz xanın nəvəsi (Tuluyun oğlu) **Hülakü** (1256–1265) tərəfindən qurulmuşdu və Hülakü xanın daşıdığı *elxan* (ilhan) titulu ilə bağlı olaraq Elxanilər dövləti adlanırdı.

1256-cı ildə Azərbaycanın bütün tarixi ərazilərini tutan monqollar 1258-ci ildə Bağdadı ələ keçirmiş və bununla Abbasilər xilafətinin varlığına son qoymuşdular. Elxanilər Suriya və Fələstini işğal etdikdən sonra Misirə doğru irəliləməyə başlamışdılar.

Beləliklə, Elxanilər dövləti imperiyaya çevrilmişdir. İmperiyanın mərkəzi tarixi Azərbaycan idi. İran, İraq, Kiçik Asiya və Cənubi Qafqaz bu dövlətin hakimiyyəti altında, yaxud nüfuz dairəsində olmuşdur. Bu dövrdə əhalisinin əsas hissəsi Oğuz türklərindən ibarət olan dövlətin tərkibinə Çingiz xanın nəsilləri ilə bərabər, bir çox türk-monqol tayfaları da daxil olmuşdur. Lakin Oğuz mədəniyyəti öz nüfuzunu qoruyub-saxlamış, nəticədə, bu tayfaların tədricən assimilyasiyasına gətirib çıxarmışdır. Elxanilər dövlətinin rəsmi dili türk, monqol və fars dilləri olmuşdur.



*Şək. 5.5. Elxanilər dövrünün hakim zümrəsi. Miniatür*

**Qazan (Mahmud) xanın** (1295–1304) hakimiyyəti dövründə Elxanilər islam dinini qəbul etmişdilər. Bundan əvvəl Elxani hökmdarları Tibet buddizmi və nestorianlığın (xristianlıqda təriqət) yayılmasına dəstək vermişdilər. XIV əsrin əvvəllərində baş vermiş daxili çəkişmələr nəticəsində Elxanilər dövləti parçalanmağa başlamış, 1335-ci ildə **Əbu Səid Bahadırın** (1316–1335) ölümündən sonra bu proses xüsusilə sürətlənmişdir.



*Şək. 5.6. Elxanilər dövrünün miniatür sənəti*

## 6. XUBİLAY XANIN DÖVLƏTİ



XIII–XIV əsrlərdə mövcud olmuş Xubilay xanın dövləti də əvvəl Çingiz xanın Monqol imperiyasının bir parçası idi. Paytaxtı Çindəki Xanbalıq (Pekin) şəhəri idi. Dövlət Çingiz xanın nəvəsi (Tuluyun oğlu) Elxanilər dövlətinin qurucusu Hülakü xanın böyük qardaşı **Xubilay xan** (1264–1294) tərəfindən qurulmuşdu. Sonralar bu dövlət *Yuan imperiyası* adı ilə də tanınırdı.

Xubilay gənclik illərində Çin dilini öyrənmiş və Çin mədəniyyətinə böyük maraq göstərmişdi.

1271-ci ildə Xubilay öz dövlətini Çin dilində *Yuan* adlandırmış, Xanbalıq (Çin dilində *Dadu*, indiki Pekin) şəhərini paytaxt seçmişdi.

1276-cı ildə Yuan imperiyası cənubda Sonq səltənətinə son qoyaraq Çin torpaqlarını birləşdirmişdi.

Xubilayın hakimiyyəti dövründə Çinə çoxlu sayda avropalı səfər etmişdi. Onlardan ən məşhuru Marko Polo idi. O, Yuan imperiyasının və gəzdiyi başqa bölgələrin siyasi, iqtisadi və mədəni həyatına dair bir çox maraqlı məlumatlar qeyd etmişdir. Xubilay sülaləsi dövründə dövlət monqol, türk və Çin ənənələrinə uyğun idarə olunmuş, lakin müəyyən bir müddətdən sonra Çin mədəniyyəti üstünlük təşkil etməyə başlamışdı. Əvvəlcə monqollar dövlət işlərində Mərkəzi Asiyadan gələn tacirlərə, yaxud yeni işğallarda monqollara kömək edən müsəl-

manlara üstünlük vermişdilər. Xarəzmli qədim tacirlər nəslindən olan Mahmud Yalavac bunun parlaq nümunəsidir. Sədaqətli xidmətlərinə görə ona Yuan dövlətinin paytaxtı Xanbalıq (Pekin) şəhərinin valisi vəzifəsini vermişdilər.

Çingiz xan və onun törəmələri dünya tarixində ən böyük imperiya qurduqları zaman qədim türk dövlət ənənələrini mənimsəyərək monqol ənənələri ilə birləşdirmişdilər. Bu türk-monqol siyasi birliyində, başqa türk dövlətlərində olduğu kimi, hökmdarlar *xaqan*, *xaan*, yaxud *xan* adlandırılırdı. Həmin dövrdə monqollara xas olan “nökər”lik (monqolca “dost”; daimi xidmətdəki əsgərlik) və “noyon”luq (sərkərdəlik) sistemi yaranmışdır.

## 7. TÜRK-MONQOL DÖVLƏTLƏRİNDƏ SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HƏYAT

Çingiz xan dövründə türk-monqol tayfa və xanlıqları bir-biri ilə qonşuluqda yaşamışlar. Onlar heyvandarlıqla bərabər, ovçuluqla da məşğul olmuşlar. Çingiz xan Cənubi Sibir, Altay və Mərkəzi Asiyanın digər bölgələrindəki türk-monqol tayfalarından ibarət sərt nizam-intizamı olan güclü bir ordu yaratmışdı. Nayman, kerey, konqurat, cəlairi, manqıt, tatar, kıyat, barlas, dulat, kidan kimi türk, monqol və tunquzmənşəli tayfalar Çingiz xanın ordusunun özəyini təşkil edirdi. Onun ordusu mərkəz, şərq və qərb qollarından ibarət olub, tümən (onminlik), minlik, yüzlük və onluqlara bölünürdü. Bu quruluş Hun və türk imperiyalarının tarixi və ənənəvi davamı idi.

Monqol imperiyasının sərhədləri Macarıstandan Koreyaya, Şimali Hindistan, Fars körfəzi, Suriya və Anadoludan Şərqi Avropa, rus knyazlıqları və Sibirə qədər genişlənmişdi. Ona görə də Monqol imperiyasında yüzlərlə müxtəlif xalq və tayfaların bir yerdə yaşamaları heç də təəccüblü deyil. Bunların arasında türk tayfalarının, demək olar, hamısı, çinlilər, tibetlilər, koreyalılar, ruslar, farslar, ərəblər, kürdlər və Qafqaz xalqları, həmçinin yunanlar, macarlar, Şərqi Avropa slavyanları və başqaları vardı. İqtisadi və mədəni həyatlarına görə bu xalqlar bir-birindən fərqlənirdi. İmperiyanın əsas əhalisi və hakim zümrənin önəmli hissəsi türklərdən ibarət olmuş və bu, sonralar qərbdəki uluslarda yaşayan monqolların bir çoxunun öz dillərini unudaraq türkləşməsinə yol açmışdır.

Elxanilər tərəfindən idarə olunan İran və Cənubi Qafqaz ərazisində isə farslar, türklər, ərəblər və başqa xalqlar bərabər yaşamışdılar. Onlar həm oturaq, həm də köçəri həyat sürmüşlər.

Qızıl orduda kargüzarlıq işlərində, rəsmi yazışmalarda qədim türk (uyğur) yazısından istifadə etmişlər. Hökmdar sarayında eyni vaxtda həm türk, həm də monqol dili işlənirdi. Dövlətlərarası münasibətlərdə isə başqa yerli dillərdən də istifadə olunurdu.

Monqol istilasının ilk dövrlərində bir çox şəhərlər yandırılıb dağıdılmışdı. Sonralar karvan yollarında təhlükəsizliyin təmin edilməsi və ölkələr arasında əlaqələrin asanlaşması ilə iqtisadi və mədəni həyat canlanmağa başlamışdı. Gömrük sisteminin və nəzarətin başqa növlərinin sadələşdirilməsi sayəsində Şərqi Avropadan Çinə qədər uzanan on min kilometrdən artıq məsafəni bir neçə aya qət etmək imkanı yaranmışdı. Bu o zaman idi ki, bir-biri ilə çəkişmələr, mücadilə aparan Avropada sərhəd problemləri və digər anlaşılmazlıqlar üzündən minkilometrlik məsafəni üç aydan da çox müddətə güclə qət edirdilər.

Qızıl Ordu dövründə İdil (Volqa) çayının aşağı hissələrində iyirmidən çox şəhər salınmışdı. Bu şəhərlərdən ən böyüyü olan Saray-Bərkənin əhalisinin sayı təxminən yüz mindən çox olmuşdur. Qızıl Ordu əhalisinin bir hissəsi İdil (Volqa) və Yayık (Ural) çaylarının hövzələrində yerləşən Saray, Qazan, Həştərxan kimi böyük şəhərlərdə ticarət edirdi. Əhalinin xeyli hissəsi köçəri heyvandarlıqla məşğul olurdu. Bu dövrdə torpaqlar, otlaqlar, əsasən, monqol və türk zadəganlarına məxsus idi. Əhali bu torpaqları becərir, məhsulun müəyyən bir hissəsini vergi olaraq öz bəylərinə verirdi.

Cığatay xan və onun törəmələri tərəfindən idarə olunan Mavəraünnəhr və Yeddisu bölgələrində daha çox oturaq həyat tərzi üstünlük təşkil etmişdi. Bu dövrdə Karşı, Səmərqənd, Buxara, Taraz və Qaşqar şəhərləri iqtisadi və mədəni mərkəzlər idi. Elxanilər dövlətində isə Təbriz şəhəri dünyanın ən öndə gedən ticarət və mədəniyyət mərkəzi olmuşdu.

Bu dövrdə Çan-Çun (Daos rahibi, əsl adı Çyu Çyutzi idi), Rubruklu Uilyam, Marko Polo, İbn Bəttutə kimi səyyahlar türk-monqol ölkələrini gəzmiş, bu xalqların dili, yaşam tərzi, adət-ənənələri və başqa mədəni xüsusiyyətləri haqqında məlumat toplamışdılar. Bu səyyahların əsərləri sayəsində dünyanın digər xalqları, ilk növbədə Avropa və Yaxın Şərq xalqları türk-monqol mədəniyyəti ilə yaxından tanış olmuşlar.

Həmin dövrdə yaşamış tarixçi və dövlət xadimləri Əlaəddin Ata Məlik Cüveyni "Tarixi Cihan-Güşa" ("Cahan fatehinin tarixi") və Rəşidəddin Fəzlullah Həmədani "Cami üt-Təvarix" ("Tarixlərin cəmi") əsərlərini yazaraq türk-monqol xalqlarını dünyaya tanıtdırmışlar. Nəsirəddin Tusi riyaziyyat və astronomiyaya dair əsərləri ilə məşhurdur.

"Hökmdar xalqın rifahının qeydinə qalmalı, onun üçün qayğılanmalı və ədalətli olmalıdır. Dövlət yalnız ədalətli olduğu zaman uzun müddət yaşaya bilər. Ədalətin birinci şərti xalqın müxtəlif qrupları arasında ahəng yaratmaqdır".

*Nəsirəddin Tusi. "Əxlaqi-Nasiri". Bakı, 2005, səh. 228*

***Siz Nəsirəddin Tusi dövrünün hökmdarı olsaydınız, hansı idarəçilik prinsiplərinə diqqət yetirərdiniz?***

### Əlaəddin Ata Məlik Cüveyni

Cüveyni 1226-cı ildə Xorasanın Cüveyn şəhərində anadan olmuş və 1243–1256-cı illərdə Elxani əmiri Arqun Aka xanın sarayında yaşamışdır. 1250-ci illərdə Cüveyni və Arqun Aka xan birlikdə iki dəfə minlərlə kilometr yolu qət edərək Monqolustana səfər etmişdilər. 1251–1252-ci illərdə isə Cüveyni daha uzun müddətə Qaraqoruma getmişdir. Burada qaldığı zaman dostları onu monqolların fəthlərini əbədiləşdirən "Tarixi Cihan-Güşa" adlı əsərini qələmə almağa razı salmışdılar.

### Rəşidəddin Fəzlullah Həmədani

Rəşidəddin Həmədani (1247–1318) həkim, yazıçı, tarixçi, dövlət xadimi və Elxanilər dövlətinin vəziri olmuşdur. Onun yazdığı "Cami üt-Təvarix" adlı qiymətli əsər Adəm dövründən başlayaraq monqol dövrünə, elxani hökmdarı Mahmud Qazan xanın hakimiyyəti zamanınadək olan bütün tarixi hadisələrdən bəhs edir.

Kitabın ikinci cildini təşkil edən "Tarixi Oğuzan və Türkan" ("Oğuzların və türklərin tarixi") adlı hissə qədim türklərin keçmişi və mifologiyasını öyrənmək baxımından əhəmiyyətlidir. Rəşidəddin yazılı şəkildə ona gəlib çatan "Tarixi Oğuzan"ı dəyişdirməmiş, yalnız bura "Qurani-Kərim"dən ayələr, bəzi tarixi məlumatlar əlavə etmiş, onu fars ədəbiyyatından və "Şahnamə"dən şeirlərlə bəzəmişdir. Dastanın qədim dövrlərə aid olan bölmələrində Mərkəzi Asiya ilə Çin arasındakı əlaqələr haqqında ətraflı məlumatlar verilir. Ola bilər ki, bu məlumatlar xalqın yaddaşında qalmış rəvayət və əfsanələrə əsaslanmışdır.

Oğuz xaqanın yürüşləri arasında Həmədaninin diqqətini ən çox onun Ön Asiyaya (İran, Mesopotamiyaya) yürüşü cəlb etmişdi.

## DƏYƏRLƏNDİRMƏ ÜÇÜN SUALLAR

1. Çingiz xan imperiyası necə yaranmışdı?
2. Çingiz xan öz dövlətini oğulları arasında necə bölüşdürmüşdü?
3. Qızıl Ordunun Avrasiya tarixində rolu nədən ibarətdir?
4. Cığatay dövlətində yaşayan xalqlar haqqında danışın.
5. Elxanilər dövlətinin mədəni həyatında Təbriz şəhərinin əhəmiyyəti nədir?
6. Türk-monqol imperiyaları dövründə hansı türk tayfaları və etnosları siyasi həyatda mühüm rol oynamışdı?

# VI BÖLMƏ

# TÜRK DÜNYASI (XIII–XV ƏSRLƏR)

## ƏSAS MÖVZULAR

1. DEHLİ SULTANLIĞI
2. MİSİR TÜRK-MƏMLÜK DÖVLƏTİ
3. OSMANLI İMPERİYASI
4. TEYMURİLƏR DÖVLƏTİ
5. QARAQOYUNLU DÖVLƏTİ
6. AĞQOYUNLU DÖVLƏTİ



# 1. DEHLİ SULTANLIĞI

Daha çox Dehli sultanlığı kimi tanınan bu dövlət 1206–1526-cı illərdə mövcud olmuşdur.

Hindistanda əfqanmənşəli Gurlular sülaləsinin hakimiyyəti dövründə (XI–XII əsrlər) tarixi meydanda Mərkəzi Asiyadan gəlmiş türkəsilli sərkərdələr peyda olmuşdu. Onlar güclənərək dövlət idarəsini nəzarət altına almışdılar. Onları *Məmlüklər* adlandırırdılar. Bu dövrdə *məmlük* sözü "mülk edilən, kölə" mənası ilə bərabər, daha çox hökmdar qvardiyasına mənsubluğu bildirirdi.

Gurlular sülaləsindən sonra bir əsrdən artıq müddət ərzində Hindistanın şimal hissələrini türkəsilli məmlüklər idarə etmişdilər.

**Qütbəddin Aybəkin** (1206–1210) Dehlidə əsasını qoyduğu bu türk dövləti 320 ilə yaxın mövcud olmuş və bir-birinin ardınca dörd türk sülaləsi – Məmlüklər, Halaçlar, Tuğluqlar və Seyyidlər tərəfindən idarə olunmuşdur. Halaç türkləri bu günə kimi Azərbaycan və Anadolu torpaqlarında yaşayırlar.

Bir çox alim, şair, yazıçı və sənətkarı himayəsinə alan Dehli sultanları mədəniyyət və incəsənətin inkişafına böyük xidmət göstərmişdilər. Balaban sultanın hakimiyyət dövrü elm və incəsənət baxımından xüsusilə əhəmiyyət-

*Xəritə 6.1. Dehli sultanlığı*



lidir. Bu dövrdə tanınmış alim Əmir Xosrov Dəhləvi sultan sarayından böyük dəstək almışdı. Onun atası Keşdən (Şəhrisəbz / indiki Özbəkistanın cənubu), türk *Laçın* nəslindən idi. Xosrov Dəhləvinin özü isə Hindistanda şeirlərini fars dilində yazan ən böyük şairlərdən biri sayılırdı.

Dehli sultanları çoxlu sayda memarlıq abidələri tikdirmişdilər. Onların bir çoxu bu günümüzə qədər gəlib çatmışdır. Məsələn, Qütbəddin Aybək hündürlüyü 72,6 metrə çatan Qütb minarəsi tikdirmişdi. Bu abidə dünyada ən böyük minarə kimi tanınır. Halaçlar sülaləsinin hakimiyyəti dövründə Hindistanın müsəlman memarlığı Səlcuqlu texnikası və üslubunun təsiri altında inkişaf etmişdir. Tuğluqlardan olan Firuz şah tərəfindən çoxlu tikinti və abadlıq işləri görülmüş və Hisar, Caypur və Firuzabad kimi şəhərlər salınmışdır.



*Şək. 6.1. Qütb minarəsi. Dehli, Hindistan*

**Sultan Raziyə**

Sultan Raziyə İslam dünyasının ilk qadın hökmdarı idi və onda hökmdara aid olan bütün xüsusiyyətlər vardı.

*Mirzə Nəsrullah xan. "Türk Tazan-i Hind", I c., səh. 261.*

Sultan Raziyə atası İltutmuşun sevimli qızı idi. Hələ atasının sağlığında o, dövlət işləri ilə məşğul olurdu. Sultan İltutmuş onu özünün vəliəhdi elan etmişdi. Saray əyanları buna narazılıq edir: "Sənin yetkinlik yaşına çatmış oğulların ola-ola neyə qızını vəliəhd edirsən?" – deyirdilər. İltutmuş cavab verirdi: "Mənim oğullarım eyş-işrətə və şəraba qurşanıblar, onlar dövləti idarə etməyə qadir deyillər. Məndən sonra taxta çıxmağa yalnız Raziyə layiqdir. O, qadın olsa da, mənim oğullarımdan daha üstündür".

*Nizaməddin Əhməd. "Tabakat-i Əkbəri". I c., səh. 66;*
*Cuzcani. "Tabakat-i Nasiri". I c., səh. 458.*

Raziyə taxta çıxdıqdan sonra atasının yolu ilə gedərək onun qoyduğu qayda-qanunu və ənənələri bərpa etdi.

***İltutmuşun qızı Raziyəni vəliəhd təyin etməsinin səbəbi nə idi?***

## 2. MİSİR TÜRK-MƏMLÜK DÖVLƏTİ

Misirdə məmlüklərdən əvvəl də burada türkəsilli sülalələr – **Tulunilər** (868–905) və **İhşidlər** (935–969) hakimiyyətdə olmuşdur. Tulunilər Misir və Suriyada Abbasi xilafətindən asılı olmayan ilk yerli sülalə idi.

Tulunilər və İhşidlərdən sonra Misirdə qurulan Misir türk-məmlük dövlətinin əsasını **Muizzuddin Aybək** (1250–1257) qoymuşdu. Dövlətin paytaxtı Qahirə şəhəri idi. İki əsrdən artıq müddətdə məmlüklər Misirdə və Ön Asiyada (İordaniya, Fələstin, Suriya və s.) siyasi nüfuza malik olmuşdular.

Bəzi mənbələrdə adı *əd-Dövlətüt-Türkiyə* (Türk dövləti) kimi verilən Misir məmlükləri mənşəcə daha çox Mərkəzi Asiya, xüsusən də Dəşti-Qıpçaqın türk tayfaları ilə sıx bağlı olmuşlar. İstedadlı türk sərkərdələr Abbasi dövlətində böyük nüfuz qazanmış, Avropa səlib yürüşünə qarşı mübarizədə uğurlar əldə edərək Ön Asiya ölkələrində söz sahibi olmuşlar.

*Xəritə 6.2. Misir Türk-Məmlük dövləti*



Dövlətin qurucusu Muizzuddin Aybək (1250–1257) oğuzəsilli (türkmən) türk idi. O, Misirdə məmlük əsgəri kimi yetişdirilmiş və öz istedadı sayəsində əmir vəzifəsinə yüksəlmişdi.

Yaxın və Orta Şərqdə mövcud olan Əyyubilər dövlətinin (1171–1250) hökmdarı Saleh Əyyubinin ölümündən sonra onun dul qadını, Qafqaz türklərindən olan **Şəcər-üd-Dürr** Muizzuddin Aybəkə ərə getmiş və taxtı ona vermişdi. Beləliklə, Misirdə Əyyubi sülaləsi süqut etmişdi. Sultan Aybək Misirə hücum edən Suriya Əyyubiləri üzərində qələbə çalmış və bundan sonra onlar Misiri tərk etməyə məcbur olmuşdular.

**Seyfəddin Kutuzun** hakimiyyəti dövründə məmlüklər İslam dünyasını monqol təhlükəsindən müdafiə etmişdilər. 1260-cı ildə Fələstindəki Aynı-Calud döyüşündə məmlük qoşunu Kutuzun başçılığı ilə monqolların ordusunu məğlubiyyətə uğradaraq onların irəliləməsinin qarşısını almışdı. Nəticədə, Suriyanın bir hissəsi, Hicaz (müqəddəs Məkkə və Mədinə şəhərlərinin yerləşdiyi bölgə) və Misir monqol işğallarından xilas olmuşdu.

Ən məşhur məmlük hökmdarlarından biri olan **Baybarsın** (1260–1277) hakimiyyət illəri Məmlük sultanlığının ən parlaq dövrüdür. Bu dövrdə xilafətin mərkəzi Misirə köçürülmüşdü. Baybars Qızıl Ordunun hökmdarı Bərkə xanın qızı ilə evlənmişdi.

1276-cı ildə Baybars Anadolu türk bəyliklərinə kömək etmək üçün Kiçik Asiyaya yollanmış və Anadolu türkləri ilə birgə monqollara qarşı vuruşaraq, Elbistan döyüşündə onların üzərində ikinci dəfə qələbə çalmışdı. Bu dövlət səlibçilərə qarşı mübarizəni davam etdirmiş, Suriyada onların son qalıqlarını məhv etmiş və Antakyadakı səlibçiləri də uzaqlaşdırmışdı.

Məmlük dövləti 1517-ci ildə Osmanlı sultanı Yavuz Sultan Səlim tərəfindən zəbt olunmuşdur.

Məmlüklər dövründə türk dili Ərəbistan və Şimali Afrikada da yayılmağa başlamış, çoxlu sayda ərəb-türk lüğəti yazılmışdır. Misir məmlükləri öz ata yurdları olan Ural-İdil (Volqa) bölgəsi və Mərkəzi Asiya ilə əlaqələrini kəsməmişdilər. Onların Qızıl Ordu və Teymurilərlə qarşılıqlı səfirlikləri və hədiyyə mübadilələri bunun sübutudur. Qahirədə, Fələstində və Suriyada yerləşən bir sıra memarlıq abidələri məmlük hökmdarları tərəfindən inşa edilmişdir.

## 3. OSMANLI İMPERİYASI

Əsası 1302-ci ildə qoyulmuş bu dövlət 1922-ci ilədək mövcud olmuşdur. Altı əsrdən artıq yaşayan Osmanlı dövləti ən uzunömürlü türk dövlətidir. Dövlətin qurucusu Oğuz türklərinin Qayı boyuna mənsub olan Ərtoğrul Qazinin oğlu **Osman Qazi** olmuşdur. Bu sülalənin əcdadları XIII əsrin birinci yarısında Mərkəzi Asiyanın cənub-qərb bölgələrindən Azərbaycana, sonra da Anadoluya köç etmişdilər.

1243-cü ildə Səlcuqlu dövləti Kösədağ döyüşündə məğlubiyyətə uğradıqdan sonra Anadolunun siyasi birliyi pozuldu. Dövlətin parçalanması prosesində Qaramanoğulları, Aydınoğulları, Əşrəfoğulları, Kərəsioğulları, İsfəndiyaroğulları, Mentəşəoğulları kimi müstəqil bəyliklər yarandı. Onlardan biri də Osmanlı bəyliyi idi.

1281-ci ildə Ərtoğrul Qazi özünün bəyliyini oğlu Osman Qaziyə vəsiyyət etdi. Osman Qazi əvvəlcə Anadolu Səlcuqlu dövlətinin ona Söyüt və Domançı bölgələrində sərhədyanı bəylik kimi ayırdıqları vilayətdə hakimlik edirdi. 1302-ci ildə Türk

*Xəritə 6.3. Anadolu bəylikləri*



Səlcuqlu dövlətinin zəifləməsi nəticəsində Osman Qazi müstəqillik elan edərək öz dövlətinin əsasını qoydu.

Paytaxt Söğüt və ətraflarında çox mühüm qələbələr qazanaraq, Osman Qazi öz bəyliyinin sərhədlərini, xüsusən Bizans imperiyası istiqamətində genişləndirdi. 1326-cı ildə Bursanın alınması iqtisadi və siyasi cəhətdən böyük nailiyyət oldu.

Bursanın fəthindən sonra Osmanın oğlu Orxan bəyin əsas məqsədi Dardanel boğazından (Çanaqqala) keçib, Rumelini (Balkanların tarixi adı) zəbt etmək idi. İznik və İzmit kimi mühüm Bizans şəhərlərinin tutulması Osman Qazi bəyliyinin sərhədlərini Qara dəniz və Üsküdara qədər genişləndirdi. Orxan bəy, həmçinin öz ərazilərinə Karesi bəyliyini birləşdirdi, Balıkəsir və Çanaqqalanı, Mərmərə dənizinin cənub sahillərini tutdu. Başqa bəyliklərin torpaqlarının ələ keçirilməsi Osmanlı dövlətinin dənizdə gücünün artmasına və hətta Avropa ərazisinə keçməsinə zəmin hazırladı. Bizansda baş verən qarışıqlıqdan istifadə edərək 1353-cü ildə Osmanlılar Avropa tərəfində yerləşən Çimpe qalasını tutdular. Beləliklə, gələcəkdə Vyanaya qədər fəthlər üçün önəmli addım atılmış oldu.

Osmanlıların əsas məqsədi Anadoludakı türk-müsəlman bəylikləri ilə mücadilə deyil, islam dinini yaymaq idi. Ona görə də onlar Bizans imperiyası və Avropanın başqa xristian dövlətlərini işğal etməyə çalışırdılar. Bununla da monqol hücumları səbəbindən Anadoluya köç edən türk tayfaları üçün yeni vətən əldə etməyə imkan yaranırdı.

**Qırğızlar türbəsi**



*Şək. 6.2. Qırğızlar türbəsi. İznik*

Bu gün İznik şəhərində *Qırğızlar türbəsi* adlı tarixi abidə vardır. Türbənin tikilməsinə dair iki fərqli fərziyyə mövcuddur. Birinci fərziyyəyə görə, bu bina 1331-ci ildə İznikin türklər tərəfindən fəthi zamanı Osmanlılara yardımlarına görə qırğız türklərinin şərəfinə Orxan Qazi tərəfindən tikilmişdir. Başqa bir fərziyyəyə görə isə, bina Orxan Qazi zaviyəsinə (ibadətgah) xidmət edən Mərkəzi Asiyadan gəlmiş qazilərin şərəfinə ucaldılmışdır.

***Qırğızlar türbəsinin nümunəsində Türk dünyası məkanında daha hansı ortaq mədəni dəyərlərdən danışa bilərsiniz?***

**Sultan I Muradın** əsas siyasi məqsədi Osmanlını qüdrətli bir dövlət halına gətirmək idi. Bu dövrdə I Murad məcbur qalmadıqca Anadolu bəylikləri ilə hərbi toqquşmaya girməməyə çalışırdı. Osmanlıların Balkanlarda irəliləməsi Osmanlı dövlətinə qarşı səlib yürüşlərinin təşkilinə gətirib çıxardı. I Muradın hakimiyyəti dövründə baş vermiş I Kosovo döyüşləri osmanlıların qələbəsi ilə nəticələndi. 1389-cu ildə taxta çıxan **İldırım Bəyazid** Niqbolu döyüşündə (1396-cı il) səlibçilərin birləşmiş qüvvələrini məğlubiyyətə uğratdı, lakin Ankara döyüşündə (1402-ci il) Teymura uduzdu. Onun əsir düşməsi və ölümündən sonra dövlət parçalanma təhlükəsi ilə qarşılaşdı, lakin **I Mehmet** ölkədə qayda-qanunu yenidən təmin etdi (1413-cü il). Dövlətin şərq və qərb istiqamətlərində genişlənməsi **II Murad** dövründə davam etdi, oğlu II Mehmetin hakimiyyəti dövründə bu proses daha da sürətləndi.

**Mehmet** (1451–1481) 1453-cü ildə İstanbulu (Konstantinopol) fəth edərək Şərqi Roma (Bizans) imperiyasının mövcudluğuna son qoydu. İstanbulun işğalı ilə Osmanlı dövlətinin İslam və Türk dünyasında nüfuzu yüksəldi. Osmanlılar Asiya və Avropa qitələrindəki əraziləri birləşdirməklə Anadolu və Balkanlardakı hakimiyyətlərini gücləndirdilər. Digər tərəfdən, onlar Qara dənizi Aralıq dənizi ilə birləşdirən dəniz yolunu nəzarət altına alaraq iqtisadi cəhətdən gücləndilər.

Bu dövrdə II Mehmet İstanbulu dövlətin yeni paytaxtı elan etdi. O, İstanbula alimlər, incəsənət adamları və tacirləri gətirtməklə bu şəhəri mədəniyyət və ticarət mərkəzinə çevirdi. İstanbulun fəthi şərəfinə o özünə *"fəth edən"* mənasını verən *Fateh* ləqəbi götürdü.

İstanbulun fəthi Avropa tarixini də dəyişdirdi. Güclü toplarla şəhərləri əhatə edən qalın qala divarlarını dağıtmağın mümkünlüyünü görən Avropadakı krallar da eyni üsuldan istifadə etdilər. Onlar qalın qala divarları olan qəsrlərdə yaşayan feodalların hakimiyyətinə son verdilər. Beləliklə, Avropada feodalizm rejimi çökərkən mərkəzi krallıqlar formalaşmağa başladı.



*Şək. 6.3. Fateh Sultan Mehmet*

İstanbulun fəthindən sonra Bizans alimlərinin bir hissəsi İstanbulu tərk edərək İtaliyaya köç etdi. Yunan və Roma sivilizasiyaları haqqında biliklərə malik olan alimlərin İtaliyaya getməsi bu ölkədə İntibah dövrünün başlanmasına öz təsirini göstərdi.

Köhnə ticarət yollarının türklərin nəzarəti altına keçməsi avropalıları yeni yollar axtar-



*Şək. 6.4. İstanbulun fəthi*

mağa vadar etdi. Bu axtarışlar nəticəsində böyük coğrafi kəşflər gerçəkləşdi. Bununla əlaqədar, bəzi tarixçilər İstanbulun fəthini orta əsrlərin sonu, yeni eranın başlanğıcı hesab edirlər.

Fateh Sultan Mehmet bundan sonra da bir çox fəthlər etdi. Belə ki, onun Yunanıstan və Trabzonu (Trapezund) işğal etməsi ilə Bizansın bərpası mümkünsüz oldu. Sonralar Osmanlı dövlətinin sərhədlərinə bir sıra başqa ərazilər də qatıldı.

Fateh Sultan Mehmet 1481-ci ildə özündən sonra ərazisinin sahəsi 2 milyon kv. km olan dövlət qoyub getmişdi. Sonrakı dövrlərdə də dövlətin əraziləri genişlənməkdə davam edərək dünyanın ən qüdrətli imperiyalarından birinə çevrildi.

*Xəritə 6.4. Fateh Sultan Mehmet və II Bəyazid dövründə Osmanlı imperiyasının sərhədləri*





*Şək. 6.5. Topqapı sarayı. İstanbul*

## Osmanlı imperiyasında sosial, iqtisadi və mədəni həyat

Osmanlı dövləti türk-müsəlman dövlətçiliyi ənənələri çərçivəsində inkişaf edirdi. Hökmdarlar dövlətin qurucusu olan Osman bəyin nəslindən olmalı idilər.

Osmanlı hökmdarları idarəetmə gücünü Allahdan aldıqlarına inanırdılar və ölkəni onun adından idarə edirdilər. İnanclarına görə, xalq Allahın onlara bir əmanəti idi. Hökmdar hansı din və ya etnik qrupa mənsub olmasından asılı olmayaraq, bütün Osmanlı vətəndaşlarının haqlarını təmin etməli idi. Bu baxımdan Osmanlı dövləti qədim türk dövlət ənənələrini davam etdirirdi.

Osmanlı hökmdarları ilk vaxtdan etibarən islam dinini yaymağa çalışırdılar. Onların fikrincə, dünyanın hər yerində sabitliyin və nizam-intizamın hökm sürdüyü bir idarəetmə sistemi qurulmalı idi. Osmanlı dövlətinin sürətlə böyüməsi və öz hökmranlığını üç qitə üzərində əsrlərlə saxlamasında onun idarə üsulunun böyük rolu vardı. Osman Qazinin öz oğlu Orxan Qaziyə nəsihəti Osmanlıların dövlət idarəetmə anlayışını əks etdirir.

**Osman Qazinin oğlu Orxan Qaziyə nəsihəti**

Kimsə səndən Allahın əmrinə zidd olan işi görməyi xahiş etsə, qəbul etmə.
Allahın əmrlərindən başqa iş görmə.
Bilmədiklərini islam alimlərindən soruşub öyrən.
Həqiqətini, mahiyyətini bilmədiyin bir işə başlama.
Tabeliyində olan insanlarla yaxşı davran, onları sevindir.
Əsgərlərini doydur, onlardan yaxşılığı əsirgəmə.

*Mehmed Neşri. “Kitabi-Cihannüma”. Ankara, 1995, səh. 147–148*

***Sizcə, nə üçün dövlətdə ədalət vacibdir?***

Osmanlıların uzunömürlü bir dövlət qurmalarında istedadlı hökmdarlara sahib olmalarının da böyük rolu vardı. Hökmdarlar *şahzadə* adlandırılan övladlarını xüsusi müəllimlərin nəzarəti altında ciddi tərbiyə edirdilər. Şahzadələr erkən yaşlarından oxuma, yazma, əsas islam əxlaqı və hüquq dərsləri alırdılar. Ən əsası da, xüsusi müəllimlərin nəzarəti altında *sancaq* adlanan əyalətlərdə dövlət idarəetməsini təcrübi yolla öyrənirdilər. Gələcəyin hökmdarı olacaq uşaqlar burada dövlət idarəetmə prinsiplərinin əsaslarına və diplomatik yazışma qaydalarına yiyələnir, cəmiyyətlə yaxından tanış olmaq imkanı qazanırdılar.

Yaxşı təhsil və tərbiyə alaraq yetişən Osmanlı hökmdarlarının ən önəmli vəzifəsi ölkəni ədalət prinsipləri çərçivəsində idarə etmək idi. İşğal edilən torpaqlarda qeyri-müsəlman əhaliyə qarşı tolerantlıq nümayiş etdirilirdi. Qeyri-müsəlmanlar öz dinlərinə sərbəst etiqad edə bilir, əsla din dəyişdirməyə məcbur edilmirdilər. Din azadlığı hüquqi tənzimləmələrlə qorunurdu. Fateh Sultan Mehmetin Bosniya xristianlarına verdiyi haqlardan bəhs edən fərman bunun əyani nümunəsidir.



*Şək. 6.6. Fateh Sultan Mehmetin Bosniya fərmanı*

**28 may 1463-cü il, Milodraz**
**Dünya fatehi, möhtəşəm və Ulu Sultanın parlaq möhürlü və imzalı fərmanı**

Mən, Fateh Sultan xan, bütün dünyaya elan edirəm ki, barələrində bu padşah fərmanı verilən bosniyalı fransiskenlər (bosniyalılar) himayəm altındadır və əmr edirəm:

Heç kim adıçəkilən insanları, onların kilsələrini narahat etməsin və onlara zərər vurmasın. İmperiyamda hüzur içərisində olsunlar və bu köçkün vəziyyətinə düşən insanların azadlıq və əmin-amanlıq şəraitində yaşamaları təmin olunsun. Bu insanlar imperiyama daxil olan bütün məmləkətlərə dönüb qorxmadan öz monastırlarına yerləşsinlər.

Saray adamlarından, vəzirlərdən və ya məmurlardan, qulluqçularımdan, ölkəmin vətəndaşlarından heç kim bu insanların qürurunu sındırmayacaq və onlara zərər verməyəcəkdir.

Heç kim bu insanların həyatlarına, mallarına və kilsələrinə toxunmasın, xor baxmasın və ya onları təhlükə altına salmasın.

Bu insanlar hətta başqa ölkədən dövlətimə birini gətirərsə, onlar da eyni haqlara sahibdirlər.

Bu padşah fərmanını elan edərək burada yerlərin, göylərin yaradıcısı və əfəndisi Allah, onun elçisi əziz peyğəmbərimiz Məhəmməd və 124 min peyğəmbər adına qurşandığım qılınca and içirəm ki, əmrimə əməl edib mənə sadiq qaldıqları müddətdə xalqımdan heç kim bu fərmanda yazılanların əksinə hərəkət etməyəcəkdir.

***Sizcə, Bosniya fərmanında Fateh Sultan Mehmetin elan etdikləri onun uğurlarına necə kömək etmişdi?***

Osmanlı dövlətinin tolerant mühitdə yaşayan qeyri-müsəlman əhalisinin bir hissəsi (məsələn, bosniyalılar və albanlar) dözümlülük şəraitində islamı qəbul etmişdilər.

Dövlət türk əhalisini Avropanın yenicə işğal olunan ərazilərində yerləşdirir və buraların türklər üçün əsl vətən olması üçün səy göstərirdi. Dövlətin əsası qoyulduğu dövrdə Mərkəzi Asiyanın qərb bölgələrindən gələn türklər də yeni tutulmuş ərazilərdə məskunlaşırdılar.

Osmanlı torpaqlarına əkinçilik üçün əlverişli olan bir çox məhsuldar vadilər, vahələr daxil idi və bunun sayəsində Osmanlı imperiyası öz dövrünün ən iri iqtisadi mərkəzinə çevrilmişdi. Adriatik, Qara dəniz, Aralıq dənizi və Qırmızı dəniz kimi dünyanın ən önəmli su yolları uzun müddət Osmanlıların nəzarəti altında olmuşdu. Tacirlər Osmanlı limanları vasitəsilə üç qitə ölkələrinə gedib çata bilirdilər. İstanbul şəhəri  bir çox əcnəbi tacirin davamlı olaraq gəldiyi məkan idi.

Osmanlı türkləri özlərindən əvvəl mövcud olmuş dövlətlərin adət-ənənə və mədəniyyətlərindən çox təsirlənmişdilər. Belə təsirlərdən birinin nəticəsi Osmanlı mədəniyyətinin ən əsas qurumlarından biri olan vəqflərin (fondların) yaradılmasıdır. Vəqflər, sultan da başda olmaqla, dövlət xadimləri və varlı adamlar tərəfindən qurulurdu. Vəqflərin sayəsində ölkədə çoxlu sayda xeyriyyə, təhsil (məktəb və mədrəsə) və dini qurumlar meydana gəlmişdi. İslam ənənələri əsasında mühüm təhsil ocağı olan mədrəsələr yaranıb inkişaf etdirilirdi.

Fateh Sultan Mehmet İstanbulu fəth etdikdən sonra bu şəhəri dünyanın ən böyük elm mərkəzinə çevirmək istəyirdi və bu məqsədlə məşhur *Sahnı-Seman* (Səkkiz Mədrəsə) mədrəsəsini açdırmışdı. Mədrəsənin tələbələri orada yaşayır və pulsuz təhsil alırdılar. Fateh Sultan Mehmet İstanbuldakı mədrəsələrdə dərs demək üçün məşhur riyaziyyatçı Əli Quşçunu İstanbula dəvət etmişdi.

**Əli Quşçu**

Türk astronomu və riyaziyyatçısı Əli Quşçu Teymurilər dövründə Səmərqənddə təhsil almış, sonralar isə Osmanlı imperiyasında böyük şöhrət qazanmışdı. Onun XV əsrin əvvəllərində Səmərqənddə anadan olduğu təxmin edilir. Əli Quşçu Ağqoyunlu hökmdarı Həsən padşah tərəfindən Fateh Sultan Mehmet sarayına səfir kimi göndərilmişdi. Zəkasına heyran olan Fatehin israrı ilə Əli Quşçu səfirlik missiyasını başa çatdırdıqdan sonra İstanbula qayıtmış, böyük hörmət və təmtəraqla qarşılanmışdı. Sonralar o, Ayasofya mədrəsəsinə müdərris (müəllim) təyin edilmişdi. Bu təyinetmə İstanbulda riyaziyyat və astronomiya sahəsində aparılan tədqiqatların inkişafına təkan vermişdi. Əli Quşçunun mühazirələrini hətta alimlər də gəlib dinləyirdilər.

Əli Quşçunun üzərinə, eyni zamanda Fateh tərəfindən əsası qoyulmuş *Sahnı-Seman* mədrəsələrinin proqramını tərtib etmək vəzifəsi də qoyulmuşdu. Məlumdur ki, o, İstanbulun yerləşdiyi, əvvəllər 60 dərəcə kimi müəyyən edilmiş coğrafi uzunluğu dəqiqləşdirib onun 59 dərəcə, coğrafi enliyin isə 41 dərəcə 14 dəqiqə olduğunu təsbit etmişdir. Fateh məscidində Əli Quşçunun Günəş saatı qalmaqdadır.

Əli Quşçu 1474-cü ilin dekabrında İstanbulda vəfat etmiş və Əyyub Sultan türbəsinin yanında dəfn olunmuşdur. Onun tələbələri arasında ən tanınmışları nəvəsi Mirim Çələbi və Molla Lütfidir.

Əli Quşçu astronomiya, riyaziyyat, islam hüququ, dilçilik və başqa sahələrə aid çoxlu sayda əsərlər qələmə almışdır.

*Çingiz Aydın. "Əli Quşçu".*
*Türkiyə Dəyanət Vəqfi İslam Ensiklopediyası, 1989, II c., səh. 408–410*

***Sizcə, Əli Quşçunun hansı şəxsi keyfiyyətlərinə görə hər iki hökmdar ona hörmət edirdi?***

Osmanlı türkləri hələ Osmanlı dövlətinin yaranmasından çox-çox əvvəl mövcud olmuş ərəb və fars müsəlman mədəniyyətlərinin, dil və ənənələrinin təsirinə məruz qalmışdı. Osmanlı dövləti imperiyaya çevriləndən sonra başqa mədəniyyətlərlə qarşılıqlı əlaqə xüsusilə gücləndi. Saray ədəbiyyatı sürətlə inkişaf etdi, Osmanlı sarayında yüzlərlə şair və yazıçı çalışmağa başladı. Bununla belə, Anadolu, Balkan və Yaxın Şərq türkləri qədim vətənləri olan Mərkəzi Asiyadan gətirdikləri milli-mədəni dəyərləri qoruyub saxlamışdılar. Rəsmi dövlət dili türk dili idi.



*Şək. 6.7. Sarayevodakı Başçarşı. (Bosniya və Hersoqovina)*

Osmanlıların dövründə memarlığa böyük əhəmiyyət verilirdi. İstanbul başda olmaqla, Balkan, Yaxın Şərq, Misir, Tunis və Əlcəzairdə yüzlərlə məscid, mədrəsə, karvansara, bazar, körpü və başqa tikililər inşa edilmişdi. Osmanlıların hakimiyyəti dövründə İstanbul, Bursa, Sarayevo, Sofiya, Skopye, Dəməşq, Bağdad, Məkkə, Mədinə, Qüds, Qahirə və onlarla başqa şəhərlər elm və mədəniyyət mərkəzlərinə çevrilmişdi.

Azərbaycan mədəniyyətinin Anadolunun türkmən bəyliklərinin xalq mədəniyyətinə təsiri inkaredilməzdir. Abdalan-i Rumun (Abdal-Kalenden təriqətinə mənsub olan Anadolu dərvişləri) ən tanınmış nümayəndələri Azərbaycandan gələnlər idi. Türkmənlərin hökmranlıq etdikləri bölgə (Azərbaycan–Şərqi Anadolu–İraq) XIII–XV əsrlərdə, hələ Yavuz Səlimin istilalarına qədər olan uzun müddət ərzində vahid siyasi-mədəni birlik təşkil edirdi. Türk dilində yazıb-yaradan görkəmli şair (Nəsimi, Füzuli) və yazıçılar (İdrisi, Bitlisi) Təbrizdən Şərqi Anadolu və Kərbəlaya qədər uzanan bu türkmən bölgəsində yaşamış və yüksək osmanlı mədəniyyətinin inkişafında mühüm rol oynamışlar.

*Osmanlılar: istilalar, imperiya,*
*Avropa ilə münasibətlər. Həlil İnalcık, səh.262.*

## 4. TEYMURİLƏR DÖVLƏTİ



XIV–XVI əsrlərdə mövcud olmuş Teymurilər dövləti Barlas türk tayfasından olan **Teymur** (1370–1405) tərəfindən qurulmuşdur.

Cığatay xanlarının sərkərdələrindən biri olan Teymur getdikcə zəifləyən Cığatay dövlətini möhkəmləndirmək və yenidən qurmaq məqsədilə hərbi yürüşlər təşkil etmişdir. O, 1370-ci ilə qədər hakimiyyət iddiasında olan türk-monqol əmirləri ilə müharibələr aparmış və həmişə qalib gəlmişdir. Teymur Mərkəzi Asiya, Şimali Hindistan, İran, Yaxın Şərq, Anadolu və Qafqaz, Qara dənizin şimalı, Dəşti-Qıpçaq, Volqa-Ural və başqa bölgələrdə hərbi uğurlar qazanaraq öz dövlətini nəhəng imperiyaya çevirmişdir. Paytaxtı Səmərqənd və Heratda yerləşən bu dövlət onun nəslindən olanların hakimiyyəti dövründə türk-müsəlman mədəniyyətinin mərkəzi olmuşdur.

Teymur 1370–1405-ci illər arasında hərbi yürüşlər edərək zəfərlər qazanmışdır. O, həyatını uzaq ölkələrdə müharibələrdə keçirərək şimalda Avrasiya çölləri, şərqdə Yeddisu, cənubda Hindistan, qərbdə ərəb ölkələri və Kiçik Asiya (Anadolu) torpaqlarına hakim olmuşdur.

1395-ci ildə Teymur Dəşti-Qıpçaqın daxili ərazilərinə yürüş edərək Qızıl Ordu hökmdarı Toxtamış xanı məğlub etmişdir. 1398–1399-cu illərdə Hindistanda türkəsilli Tuğluqlar sülaləsinin hakim olduğu Dehli sultanlığını zəbt etmişdir.

1402-ci ilə qədər etdiyi dörd yürüşlə Teymur İraq, Suriya və Cənub-Şərqi Anadolunu ələ keçirmişdir. 1402-ci ildə apardığı Ankara döyüşündə Osmanlı sultanı İldırım Bəyazidi məğlub edərək, Osmanlı dövlətini dörd osman şahzadəsi arasında bölüşdürmüşdür. Əslində, türk olan iki böyük hökmdarın bir-biri ilə savaşması o dövrün Türk dünyasına vurulan böyük zərbə olmuşdur. Bu iki hökmdarın Ankara savaşında bir-birinin üzərinə qoşun yeritməsinin əsas səbəblərindən biri Anadoluda hakimiyyət uğrunda mübarizə idi. Eyni şəkildə Qızıl Ordunun parçalanmasının da türk dövlətləri və xalqları üçün siyasi, iqtisadi və sosial cəhətdən mənfi nəticələri olmuşdur.

Anadoludan sonra 1405-ci ildə Çin səfərinə çıxan Teymur Otrarda xəstələnərək vəfat etmişdir. Teymurun ölümündən dərhal sonra dövlətin ərazisi

*Xəritə 6.5. Teymurilər dövləti*





*Şək. 6.8. Əmir Teymurun portreti*



*Şək. 6.9. Uluqbəy adından zərb olunmuş pullar. XV əsr. Səmərqənd, Özbəkistan*

onun oğulları və nəvələri arasında bölüşdürülmüşdür. Nəvəsi Xəlil Sultan Səmərqəndə, digər nəvələri Pir Məhəmməd və İsgəndər İrana, üçüncü oğlu Miranşah Bağdad və Azərbaycana, ən kiçik oğlu Şahrux isə Xorasana hakim təyin edilmişdir. Sonralar **Şahrux** (1405–1447) Mavəraünnəhri zəbt edərək Herat şəhərini paytaxt elan etmiş, öz hakimiyyətini İran və Azərbaycanda bərqərar etmişdir. Onun hakimiyyət dövrü Türküstanda parlaq bir mədəni həyatın başlanğıcı olmuşdur.

Şahruxun paytaxtı Herata (Əfqanıstan) köçürdüyü dövrdə onun Səmərqənddə oturan oğlu **Uluqbəy** (1447–1449) Amudərya hövzəsinin şimal hissəsinin yarımmüstəqil hakimi olmuşdur. Uluqbəy elmin inkişafına böyük əhəmiyyət vermiş, xüsusilə astronomiya və riyaziyyat elmləri sahəsində bir çox elmi traktatların və mühüm əsərlərin müəllifi kimi böyük şöhrət qazanmışdır. Onun Səmərqənddə tikdirdiyi Uluqbəy mədrəsəsi və onun nəzdindəki rəsədxana 1449-cu ildən dağılana qədər dünyanın ən qabaqcıl rəsədxanası sayılırdı.

Teymurilər sülaləsindən olan **Hüseyn Bayqaranın** (1470–1506) hakimiyyəti dövründə Xorasan türk



*Şək. 6.10. Uluqbəy rəsədxanası. XV əsr. Səmərqənd, Özbəkistan*

ədəbiyyatının inkişafında ən yüksək zirvəyə çatdığı bir bölgəyə çevrilmişdir. Mərkəzi Asiyanın tarixində əsas mədəni mərkəzlərdən biri olmuş paytaxt Heratda ən məşhur türk şairləri və alimləri çalışırdı.

Məhəmməd Şeybani xanın əvvəlcə Səmərqəndi, sonra isə 1507-ci ildə Heratı ələ keçirməsi Teymurilər sülaləsinin tənəzzülünə səbəb olmuşdur. Bu sülalənin nümayəndəsi **Babur** Türküstanda uğur qazanmayıb Hindistana yollanmış və burada o, Böyük Moğol imperiyasını yaratmışdır.

Teymurilər imperiyası türklərin Mərkəzi Asiyada yaratdığı ən böyük dövlətlərdən biri idi. O dövrdə Türküstan və Xorasan islam memarlığının çiçəklənməsi dövrünü yaşayırdı.

XV əsrin sonundan başlayaraq, Türküstan, Krım, Qazan və Azərbaycanda Cığatay türkcəsi yüksək bir mədəniyyət dili halına gəlmişdir.

Din, elm və incəsənətin qoruyucusu olan Teymurilər Mavəraünnəhr və Xorasanda türk dilinin, türk incəsənəti və mədəniyyətinin fars mədəniyyəti təsiri altında assimilyasiyaya uğramasının nəinki qarşısını almış, hətta hakim olmasını təmin etmişdir. Türk xalqlarının qiymətli ədəbi əsəri olan Yusif Balasaqunlunun "Qutadqu Bilik" ("Səadət gətirən elm") əsərinin yenidən (Herat, Fərqanə və Vyana nüsxələrinin) Teymurilər dövründə qədim türk (uyğur) və ərəb əlifbası ilə yazılması bu sülalənin türk milli kimliyinə nə dərəcədə önəm verdiklərini göstərir. Bu dövrdə türk ədəbiyyatı əhəmiyyətli dərəcədə inkişaf etmiş, incəsənət, elm və ədəbiyyat ən parlaq zamanlarından birini yaşamışdır.

Teymurdan sonra hökmdarlıq taxtına çıxmış oğulları və nəvələri də eyni şəkildə mədəniyyətin inkişafı ilə məşğul olmuşlar. Teymurun oğlu Şahrux, nəvəsi Uluqbəy və digər xələflərinin hakimiyyəti dövründə inkişaf edən incəsənət və elm dünyası həmin dövr türk tarixində xüsusi yer tutur. Teymurilərin hakimiyyəti zamanında Səmərqənd, Buxara, Şəhrisəbz, Yassı (Türküstan), Herat kimi şəhərlərdə dövrümüzə qədər gəlib çatmış onlarca heyrətamiz memarlıq abidəsi inşa edilmişdir.

Teymurilər sülaləsindən olan hökmdarlar arasında Uluqbəy elm və biliyə xüsusi əhəmiyyət verməsi ilə birlikdə, türk milli dəyərlərinə də sahib çıxmışdır. Onun zərb etdirdiyi pulların üzərində ərəb hərfləri ilə türkcə "Emir Timur Küreqan (damad) Himmetindin Uluq Bey Küreqan Sözüm" ("Əmir Teymur Küreqan (*"küreqan"* – Teymur və onun nəsillərinin daşıdığı titul olub, hərfi mənada *xanın kürəkəni* deməkdir) nəslindən olan Uluqbəy Küreqanın sözü") cümləsi yazılmışdır. Məlum olduğu kimi, əvvəllər türk-müsəlman hökmdarlarının adından zərb olunan pulların üzərində yazılar, əsasən, ərəb və fars dillərində verilirdi.

Uluqbəyin yazdığı "Tarih-i Erba Ulus" ("Dörd ulusun tarixi") əsəri Çingiz xanın törəmələri tərəfindən idarə olunan dörd türk-monqol ulusunun tarixinə həsr olunub.



*Şək. 6.11. Uluqbəy rəsədxanasının alt hissəsi. XV əsr.*
*Səmərqənd, Özbəkistan*

**Teymurun dövlət anlayışı**

Teymur öz dövlətini *Turan* və *Türküstan* adlandırırdı. Onun adı ilə bağlı olan "Tüzükat-i Timuri" ("Teymurun qanunları") əsərində belə bir ifadə var:

*"Biz kim, Melik-i Turan, Emir-i Türküstanız. Biz kim, milletlerin en eskisi ve en büyüğü (olan) türkün baş halkasıyız"*.

("Biz ki Turanın hökmdarı, Türküstanın əmiriyik. Biz ki millətlərin ən qədimi və ən böyüyü olan türkün baş halqasıyıq".)

***Teymurun bu ifadəsini milli hisslər baxımından şərh edin.***

**Teymurun türkcə "Ulıtau Bitiği"**
**("Uludağ kitabəsi")**

Teymur 1391-ci ildə Qızıl Ordu hökmdarı Toxtamış xana qarşı yürüş etmişdir. Bu tarixi hadisəni xatirələrdə əbədiləşdirmək üçün o, Ulıtau (Uludağ) dağlarında abidə olaraq daş üzərinə qədim türk (uyğur) yazısı ilə bir neçə cümlə həkk etdirmişdir.

Bu abidə Sankt-Peterburqda Ermitaj muzeyində saxlanılır. Kitabədə yer alan ifadələrin orijinal halı və bugünkü türkcəyə tərcüməsi aşağıdakı kimidir.

***Teymur hansı səbəbdən uyğur yazısından istifadə etmişdir?***



*Şək. 6.12. Teymurun Ulıtaudakı türkcə kitabəsi (1391). Ulıtau, Qazaxıstan*

**“Tarih yeti yüz toqsan üçte qoy yılı yaznıŋ ara ay Turannıŋ sultanı Temir-beg üç yüz miŋ çerig bile ismi üçün Toqtamış xan Bulgar xanığa yorıdı. Bu yerge yetip belgü bolsun tep bu tobanı qopardı. Teŋri nisfat bergey inşa-Allah. Teŋri el kişige rahmet qılgay bizni dua bile yad qılgay”.**

(“Yeddi yüz doxsan üç qoyun ilinin yazının orta (aprel) ayında Turanın sultanı Teymur bəy üç yüz min əsgəri ilə şöhrəti artsın deyə Toxtamış xana, Bulqar xanlığına yürüş etdi. Bura çatınca, məndən sonraya bir iz qalsın deyə, xatirə olaraq bir abidə qoydurdu. İnşallah, Tanrı nəsib etsin, Tanrı hər kəsə rəhmət etsin, bizi də dua ilə xatırlasın”).

*Sərtqaya O.F. “Teymur bəyin Toxtamış xana hicri 793-cü ildə (miladi 1391-ci il) etmiş olduğu yürüşünün ərəb və uyğur hərfli kitabələri” (Qarsaqbəy kitabəsi). İstanbul, 2007, səh. 36–37.*
*Sodikov K. “Erkən və orta əsrlərdə türk sənədləri”. Daşkənd, 2016, səh. 143*

***Bu mətndəki vaxt hansı təqvimə aiddir? İzah edin.***

## *Teymurilər dövründə sosial, iqtisadi və mədəni həyat*

Teymurilər dövlətinin sərhədləri çox geniş olduğundan bu imperiyanın torpaqlarında əsas türk əhalisindən əlavə, həm də müxtəlif etnik qrupa və dinə mənsub olan xalqlar yaşamışdır. Bu dövrdə fars və türk dili Teymurilərin əsas yazışma dilləri olaraq istifadə olunmuşdur. Tarixi əsərlər daha çox farsca yazılsa da, fərman və əmrlərin qədim uyğur əlifbası ilə türk dilində yazılmasına diqqət yetirilmişdir. Ərəb dili isə daha çox elmi və dini sahələrdə istifadə olunmuşdur.

Teymur Səmərqəndi imperiyanın paytaxtı etdikdən sonra orada möhtəşəm memarlıq abidələri tikdirmiş, hərbi yürüşlərdə ələ keçirdiyi ərəb, fars ölkələri, Hindistan və başqa bölgələrdən Səmərqəndə çoxlu sayda memar, sənət adamları və alimlər gətirtmişdir. Bundan əlavə, onun Qara dənizin şimalına etdiyi yürüş zamanı Avropa xalqlarının nümayəndələri də Mavəraünnəhrə köçürülmüşdür.

Teymurilər dövlətinin iqtisadi həyatında oturaq mədəniyyət üstünlük təşkil etmişdir. Bu dövrdə də əvvəlki türk-monqol dövlətlərində olduğu kimi, İpək yolunun, demək olar ki, bütün xətlərinin Teymurilərin nəzarəti altında olması beynəlxalq iqtisadi və mədəni əlaqələrin inkişafını təmin etmişdir.



*Şək. 6.13. Xoca Əhməd Yasəvi türbəsi. Türküstan, Qazaxıstan*



*Şək. 6.14. Uluqbəy dövrünə aid mədrəsə.*
*Səmərqənd, Özbəkistan*



*Şək. 6.15. Registan kompleksi. Teymurilər və Şeybanilər dövrü.*
*Səmərqənd, Özbəkistan*

Teymurilər dövründə Səmərqənd, Buxara, Yassı (Türküstan), Bəlx, Herat, Kabil, Səbzivar, Şiraz şəhərləri ticarət mərkəzlərinə çevrilmişdir. Bu şəhərlərdə Teymurilərin hökmdarları tərəfindən onlarla mədrəsə, məscid, xəstəxana, hamam, körpü, yol və başqa memarlıq tikililəri inşa edilmişdir. 1403-cü ildə Azərbaycanın Beyləqan şəhərində də inşa işləri aparılmışdır.

Tikinti və ticarətlə bərabər Teymur əkinçiliyə də diqqət yetirirdi.

Əhalisinin əksər hissəsi köçəri həyat tərzi sürən Türküstan şəhərlərinin inkişafına Teymurilər böyük əhəmiyyət vermişdir. Onlar su kanalları çəkərək əkinçiliyi inkişaf etdirmişdilər. Teymurilər ticarət yollarında yerləşən böyük şəhərləri qovşaq məntəqələrinə çevirmiş, çoxlu sayda kitabxana və mədrəsə tikdirmişdilər. Bu baxımdan XIV–XV əsrlər Səmərqəndin qızıl dövrü kimi tarixə düşmüşdür.

Teymurilər dövründə Türküstan dünya sivilizasiyasının önəmli mərkəzlərindən birinə çevrilmişdir və bu, Teymurilər dövlətində yaşayan müxtəlif xalqların qarşılıqlı təsiri sayəsində mümkün olmuşdur.

**Əlişir Nəvai**


*Şək. 6.16. Əlişir Nəvai*

XV əsrin ikinci yarısında yaşayan və mədəniyyət tarixində parlaq iz qoymuş böyük türk şairi Əlişir Nəvai (1441–1501) türk dili və poeziyasının inkişafında mühüm yer tutur.

Nəvai “Muhakemet-ül-Lüğateyn” (“İki dilin mühakiməsi”) adlı əsərində türk və fars dillərini müqayisə edərək türk dilinin fars dilindən daha üstün olduğunu söyləmişdir.

Əlişir Nəvainin “Lisanut-Tayr” (“Quşların dili”) əsərindən bir parça:

*“Türk nazmıda çü men tartıb aalem,*
*Eyledim ol memleketni yek-kalem.*
*Dehr ara Şeh çü Türk vakıdur,*
*İl ara Türk lafzı şayidür”.*
(Türk şeirində mən bayraq açıb,
O məmləkətləri tək qələm eylədim.
Dünyada padşahlar türkdür,
Ölkələrdə türk dili məşhurdur.)

***Şeirin mənasını araşdırın və bu barədə esse yazın.***

**Fərhad və Şirin dastanından bir parça:**

*“Eger bir kavm, ger yüz, yoksa mingdür,*
*Muayyen Türk ulusu hud, meningdür.*
*Alıp men taht-i fermanımga asan,*
*Çerig çekmey Hıtadan ta Horasan.*
*Horasan dimegil, Şiraz u Tebriz,*
*Ki kılmışdur neyi-i kilkim şeker-riz.*
*Köngül bermiş sözüme Türk, can hem,*
*Ne yalguz Türk, belkim Türkman hem”.*

(“Əgər bir, yüz və ya min qövm (millət) olsa belə, bütün Türk ulusu mənimdir. Qoşun çəkmədən Çindən ta Xorasana qədər türk ölkələrini qələmimlə fəth etmişəm və onlar mənim fərmanımdadır. Təkcə Xorasanı deyil, Şiraz və Təbrizi ram etmişəm. Sözlərimə bütün türklər könül vermişlər. Yalnız buranın türkləri deyil, İraq və Anadolu türkləri də məni dinləyirlər”).

*Dadaboyev H., Həmidov Z., Holmanova Z.*
*“Özbək ədəbi dili tarixi”. Daşkənd, 2007, səh.76*

***“Ölkələri qələmlə fəth etmək” ifadəsini necə başa düşürsünüz?***

## 5. QARAQOYUNLU DÖVLƏTİ



XIV–XV əsrlərdə hakimlik edən bu sülalənin əsasını Yivə oğuz-türk tayfasından olan **Bayram Xoca** qoymuşdur. Mərkəzi Azərbaycanda yerləşən bu dövlətin mövcud olduğu dövrdə İran, İraq və Cənubi Qafqazda türk əhalinin sayı artmışdı.

Qaraqoyunlu tayfası əvvəlcə Azərbaycanda, sonralar isə Dəclə və Fərat çaylarının yuxarı axarlarındakı ərazilərdə yaşamışdır. Qaraqoyunlu tayfa birliyinə daxil olan Baharlı tayfasının başçısı Bayram Xoca türk-monqoləsilli Cəlairilərin hakimiyyəti altında olarkən öz hakimliyini yaratmışdır. Onun qardaşı **Murad Xoca** isə Cəlairilərin Mosuldakı canişini idi. 1365-ci ildən onlar Cəlairilər dövlətinin tabeliyində olmuşlar. Bayram Xocanın ölümündən sonra onu oğlu **Qara Məhəmməd** əvəz etmişdir. O, Cəlairilər hakimiyyətinə sadiq qalaraq atasının əvvəllər idarə etdiyi bəylik və əraziləri əlində saxlamışdır.

1389-cu ildə bu feodal hakimliyinin başına Qara Yusif keçdi. 1400-cü ildə Qara Yusif Cəlairilərin tərəfində çıxış etsə də, Teymurilər onu məğlub etdikdən sonra Osmanlı dövlətinə sığındı. Teymurun ölümündən sonra Qara Yusif Təbrizi və Azərbaycanı tutaraq Ağqoyunlu hakimi Qara Yuluq Osmanın üzərində qələbə çaldı. O, Təbrizi paytaxt, özünü isə hökmdar elan etdi. 1410-cu ildə Qara Yusif Cəlairilər hökmdarını məğlub edərək Bağdadı ələ keçirdi.

Tarixi mənbələrdə Qara Yusif "Turanın aslanı", ədalətli və mərhəmətli şəxs kimi səciyyələndirilir. O, dövləti ədalətlə idarə edir, zülmkarları cəzalandırır, məzlumları öz himayəsinə götürərək müdafiə edirdi. Qara Yusif kənd təsərrüfatının inkişafına və dövləti ərzaqla təmin edən kəndlilərin rifahına böyük diqqət və qayğı göstərirdi. Ölkənin və yolların qorunması üçün təmiz, vicdanlı və bacarıqlı məmurları təyin edirdi.

*Xəritə 6.6. Qaraqoyunlu dövləti*



Qaraqoyunlular Teymuri hökmdarı **Şahrux** tərəfindən məğlubiyyətə uğradılmışdır. Şahrux geri döndükdən sonra **Qara İsgəndər** (1420–1436) güclənməyə başlamışdır. O, Ağqoyunlu hökmdarı Qara Yuluq Osman üzərində qələbə çaldıqdan sonra öz hakimiyyətini Şərqi Anadolu üzərində bərqərar etmişdir, 1435–1436-cı illərdə Şahrux Qara İsgəndərə qarşı yürüş təşkil edərək taxt-tacı onun əlindən almış, əvəzinə isə ona sadiq olan **Cahan şahı** Təbrizə canişin təyin etmişdir.

Cahan şahın hakimiyyəti dövründə Gürcüstan, İsfahan, Fars və Kirman tutulmuşdur. 1458-ci ildə Heratı ələ keçirməklə (yalnız beş ay müddətinə) Cahan şah böyük əraziləri öz nəzarəti altına almışdır.

Qaraqoyunlu dövlətinin varlığına 1468-ci ildə Ağqoyunlu Həsən bəy (Uzun Həsən) tərəfindən son qoyulmuşdur.

Qaraqoyunlu dövründə dini memarlıq abidələrinə nümunə olaraq Vanda Ulu Camini (Böyük məscid), İsfahanda Cümə məscidi, həmçinin Təbrizdə Göy məscid və mədrəsəni göstərmək olar.

Osmanlı hökmdarı Fateh Sultan Mehmetin Qaraqoyunlu Cahan şaha "Əziz atam Cahan şah" sözləri ilə başlayan məktubunda deyilir: "Osmanlı dövləti tərəfindən edilən fəthlər Azərbaycan tərəfindən edilən fəthlər kimi qiymətləndirilməlidir. Bizim tərəfin fəthi sizin tərəfin fəthi deməkdir və ya əksinə".

*Firidun bəy. "Münşeat". I c., səh. 223–224*

***1. Nə üçün Osmanlıların fəthlərini Azərbaycan tərəfindən edilən fəthlər kimi qiymətləndirmək lazımdır? Sinifdə müzakirə edin.***

***2. Bugünkü türk dövlətləri arasındakı oxşar qarşılıqlı mədəni münasibətləri araşdırın və buna misallar gətirin.***

## 6. AĞQOYUNLU DÖVLƏTİ



Oğuz türklərinin Bayandurlu boyuna mənsub olan Ağqoyunlu bəyliyinin əsası XIV–XV əsrlərdə **Qara Yuluq Osman tərəfindən** qoyulmuş, paytaxt Diyarbəkir olmuşdur.

Qaraqoyunlularla qohum tayfadan olan Ağqoyunluların başçısı Qara Yuluq Osman məmlük sultanına xidmət etmiş, sonra 1400-cü ildə

*Xəritə 6.7. Ağqoyunlu dövləti*




Teymur Anadoluya hücum etdiyi zaman ona dəstək vermişdir. Bu dəstəyinə qarşılıq olaraq o, Malatyanı, 1402-ci ildə Ankara döyüşündəki dəstəyinə görə isə Diyarbəkir bölgəsini almışdır. 1403-cü ildə Qara Yuluq Osman özünü Diyarbəkirin hakimi elan etmişdir. O, 1435-ci ildə Qaraqoyunlularla döyüşdə həlak olmuşdur.

Osman bəyin ölümündən sonra oğulları arasında hakimiyyət uğrunda mübarizə başlamış, 1453-cü ildə onun nəvəsi **Həsən bəy** (1453–1478) Diyarbəkiri ələ keçirərək hakimiyyət uğrunda gedən mübarizələrə son qoymuşdur.

1468-ci ildə Həsən bəy Qaraqoyunlu sülaləsini məğlubiyyətə uğratmış və paytaxtı Diyarbəkirdən Təbrizə köçürtmüşdür. Bu dövrdə Ağqoyunlu dövlətinin ərazisi şərqdə Xorasandan qərbdə Fərat çayına, şimalda Qafqazdan cənubda Ərəbistan dənizinə qədər uzanırdı. Fateh Sultan Mehmetin Trabzonu fəth

etməsi Osmanlılar ilə Ağqoyunlular arasında müharibələrə səbəb olmuşdur. Bu məğlubiyyətdən sonra Ağqoyunlu dövləti öz siyasi və hərbi nüfuzunu xeyli dərəcədə itirmişdir. Bununla belə, 1474–1477-ci illərdə Həsən padşah Gürcüstana hücum etmiş, gürcü çarı ilə müqavilə bağlamışdır. Müqaviləyə əsasən, Şərqi Gürcüstan, Tiflis də daxil olmaqla, Ağqoyunluların hakimiyyəti altına keçmişdir. 1478-ci ildə Həsən padşahın ölümündən sonra onun oğlanları arasında hakimiyyət uğrunda mübarizə başlamış və bu, Ağqoyunlu dövlətinin zəifləməsinə gətirib çıxarmışdır. 1503-cü ildə Ağqoyunlu dövləti başqa bir türk hökmdarı Şah İsmayıl Səfəvi tərəfindən tamamilə süqut etdirilmişdir.



*Şək. 6.17. Həsən padşah*

"Həsən padşah qanunları" kimi tanınan Uzun Həsən qanunlarının Osmanlı dövləti və Səfəvi dövləti tərəfindən də tətbiq olunduğu məlumdur. Qeyd etmək lazımdır ki, dövlətdəki maliyyə vəziyyəti ilə bağlı qaydaları göstərən bu qanunlar xalqın rifahını yaxşılaşdıran maddələri əhatə edirdi.

Uzun Həsənin anası Sara xatun XV əsrdə Ağqoyunlu dövlətində apardığı ölçülüb-biçilmiş xarici və daxili siyasət sayəsində dövrünün ən görkəmli şəxsiyyətlərindən biri idi. Sara xatun qonşu dövlətlərin hökmdarları ilə gedən danışıqlarda fəal iştirak edirdi, sazişlər bağlayır, sülhü bərqərar edirdi. Türk tarixində o, ən nüfuzlu qadın-diplomatlardan biri olmuşdur. Özünün yerinə yetirdiyi bütün diplomatik vəzifələrindən əlavə, Sara xatun həm də məscidlər, zaviyələr (sufilərin ibadətgahları) və pulsuz yeməkxanalar tikdirərək dövlətin idarəetməsində fəal iştirak edirdi.

***Həsən padşahın qanunlarını öyrənin. Bu qanunlar çərçivəsində insanların rifahının yaxşılaşdırılmasını nəzərdə tutan maddələri qeyd edin.***

## İmadəddin Nəsimi



Nəsimi (1369–1417) Azərbaycan türkcəsi, fars və ərəb dillərində şeirlər yazan şair və mütəfəkkirdir. Onun doğulduğu yer haqqında müxtəlif fərziyyələr mövcuddur. Bu yerlər arasında Bursa, Diyarbəkir, Bağdad, Təbriz, Bakı, Şamaxı şəhərlərinin adları çəkilir, ancaq Nəsiminin Azərbaycanın Şamaxı şəhərində doğulduğuna dair fikirlər daha çox yayılmışdır. Öz azad düşüncələri ilə Nəsimi Azərbaycan, Yaxın Şərq, Anadolu, Mərkəzi Asiya şair və mütəfəkkirlərinə güclü təsir göstərmişdir. Onun özünün də böyük türk mütəfəkkiri Hacı Bektaşi Validən təsirləndiyi bildirilir.

Məşhur şair və dövlət xadimi Əlişir Navainin Nəsimi haqqında təriflər söyləməsi, həm də onun böyük türkmən şairi və mütəfəkkiri Məhtimqulunun şeirlərinə mövzu olması Nəsiminin Mərkəzi Asiya türk dünyasında önəmli bir şəxs olduğunu sübut edir.

***Nəsiminin hansısa bir şeirini seçib sinfə təqdim edin.***

## DƏYƏRLƏNDİRMƏ ÜÇÜN SUALLAR

1. Nəyə görə Misir məmlükləri Volqa–Ural və Mərkəzi Asiya bölgələri ilə dostluq münasibətləri saxlamağa çalışırdılar?
2. Osmanlı dövlətinin uğurlu idarəçiliyi özünü nədə göstərirdi?
3. İstanbulun fəthinin türk və dünya tarixi baxımından əhəmiyyəti nədir?
4. Teymurilər dövründə Səmərqənd, Buxara, Herat və Yassı (Türküstan) şəhərlərində hansı memarlıq abidələri inşa edilmişdir?
5. Elm və mədəniyyətin inkişafı üçün Uluqbəy nə etmişdi?
6. Əlişir Nəvai türk mədəniyyətinin inkişafına hansı töhfələri vermişdi?
7. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yerləşdiyi ərazilər haqqında danışın.

# VII BÖLMƏ

# TÜRK DÜNYASININ ORTAQ MƏNƏVİ VƏ MƏDƏNİ İRSİ

## ƏSAS MÖVZULAR

1. TÜRK XALQLARININ ORTAQ DASTANLARI
2. TÜRK XALQLARININ ORTAQ MƏNƏVİ DƏYƏRLƏRİ
3. TÜRK XALQLARININ ORTAQ MADDİ MƏDƏNİYYƏTİ
4. TÜRK XALQLARININ ORTAQ MİLLİ OYUNLARI



*Şək. 7.1. Qarabağ xalçası. Azərbaycan*

Türk xalqları sadəcə ortaq tarixə deyil, başqa sahələrdə də müştərək dəyərlərə sahibdirlər. Türklərin maddi və mənəvi baxımdan ortaqlığı şifahi və yazılı ədəbiyyatlarında və mədəniyyətlərinin özünəməxsusluğunda da əks olunmuşdur. Türklərin həyat tərzində, ədəbiyyat, folklor, adət-ənənə, milli bayram, geyim və bəzək əşyalarında, əyləncə və oyunlarında ortaq elementlər çoxdur.

## 1. TÜRK XALQLARININ ORTAQ DASTANLARI



*Şək. 7.2. Oğuz xaqan*

**"Oğuz xaqan", "Kitabi-Dədə Qorqud", "Alpamış", "Koroğlu", "Manas", "Törəyiş"** və **"Köç"** Türk dünyasının ortaq qəhrəmanlıq dastanlarıdır. Bunlardan "Oğuz xaqan" dastanı bütün Türk dünyasında tanınır. Belə ki, bu dastan Mərkəzi Asiya, Azərbaycan və Anadolu türkləri arasında məşhurdur. Bunu orta əsrlərə aid yazılı mənbələr, həmçinin həmin bölgələrdə bu dastanın yazılı və şifahi hissələrinin mövcud olması sübut edir. "Dədə Qorqud" dastanında Oğuz türklərinin yaşantılarından, qəhrəmanlıqlarından bəhs olunur. "Manas" dastanı qırğız türklərinə aid olub, dünyanın ən həcmli dastanıdır. *Alpamış* ifadəsi Anadolu və Qafqaz türklərində *Alp-Bamsı*, İdil-Ural bölgəsində *Alpamşa*, qazax, noqay və qaraqalpaqlarda *Alpamıs*, özbəklərdə *Alpamış*, Altay türklərində *Alp-Manqaş*, yaxud *Alp-Mamış* olaraq milli dastan kimi qiymətləndirilir. Anadoluda və Qafqazda




*Şək. 7.3. Dədə Qorqud. Naxçıvan, Azərbaycan*

*Koroğlu*, Mərkəzi Asiyada *Göroğlu* kimi tanınan "Koroğlu" dastanı ortaq dəyərlərimizdən biridir. Türk dastanlarındakı Manas və Koroğlu kimi qəhrəmanların türk tayfalarını bir araya toplayaraq düşmənlərə qarşı mübarizə apardıqları əsrlərdən bəri ozanlar və aşıqlar tərəfindən söylənilir.



*Şək. 7.4. Koroğlu. Bakı, Azərbaycan*

Söz ustası və ədalət simvolu olan **Nəsrəddin Xoca** Mərkəzi Asiyadan Anadoluya qədər uzanan böyük ərazidə məskunlaşan türk xalqları arasında çox sevilir. O, Azərbaycanda *Molla Nəsrəddin*, Mərkəzi Asiyada *Xoca Nesriddin efendi/apendi*, yaxud *Koja Nasır* adı ilə tanınır.

Türk dünyasının ortaq xarakterlərindən biri də *Keloğlandır*. O, Mərkəzi Asiyada *Tazşa-bala*, Azərbaycanda Keçəl kimi məşhurdur.

***Molla Nəsrəddin lətifəsi***

**Ye, çuxam, ye**



*Şək. 7.5. Molla Nəsrəddin. XVII əsr. Miniatür*

Günlərin birində Molla Nəsrəddin bir məclisə gedir. Əyin-başına o qədər də fikir verməyən və gündəlik geyimlərindən birini geyinib həmin məclisə gedən Mollaya heç kim diqqət yetirmir, sanki yoxmuş kimi davranırlar. Molla məclisi yarımçıq tərk edir, evə gedib çox bahalı geyim geyinir və yenidən məclisə qayıdır. Bir az əvvəl Mollaya salam verməyənlər indi təzim edərək onu məclisin baş tərəfində əyləşdirirlər. Süfrəyə düzülən naz-nemətdən onun qabağına gətirirlər. Bu zaman Molla yeməklərdən əlinə götürür və çuxasına baxaraq deyir: "Ye, çuxam, ye". Bunu görən insanlar: "Ay Molla, bu nə deməkdir, çuxa da yemək yeyərmi?" – deyə sual verirlər.

Molla deyir: "Məclisə ilk gəldiyimdə əynimdəki libasıma görə mənə verilən qiyməti görüb evə qayıtdım. Bu bahalı geyimləri geyinib təkrar bura gəldim və tamam başqa bir səhnə ilə qarşılaşdım. Anladım ki, məclisdə mənə deyil, əynimdəki çuxaya qiymət verildi. Ona görə də mən çuxama müraciət edərək yeməkləri onun yeməsini istədim. Buradakı hörməti mən yox, çuxam gördü, yeməyi də qoy o yesin".

***İnsanın xarici görünüşü deyil, mənəvi simasının vacibliyi haqqında esse yazın.***

### “Oğuz xaqan” dastanı

“Oğuz xaqan” dastanı Hun dövründən məlumdur. X əsrdə yazıya alınmasına baxmayaraq, türk tayfaları bu dastanı qədim zamanlardan bilirlər. “Oğuz xaqan” dastanı əfsanə və rəvayətlər, əsatir və nağıllardan ibarət böyük bir əsərdir. Dastanda Oğuz xanın türk tayfalarının birləşməsi uğrunda apardığı mübarizədən danışılır. Əsərdə türklərin yaşadığı yer adları, onların nəsilləri, türk dövlətçilik ənənələri və qədim türk inancları haqqında məlumatlar var. “Oğuz xaqan” dastanında Oğuz, Ulu Türk, Qarluq bəy, Dəmirçi Halaç, Kanqlı, Ulu Ordu, Qıpçaq bəy kimi qəhrəmanların obrazları təsvir olunub. Oğuz xaqanın övladlarının adlarının Günxan, Ayxan, Ulduzxan, Göyxan, Dağxan, Dənizxan olması dastanın bilinməyən müəlliflərinin ümumdünya təfəkküründən xəbər verir.

Oğuz xaqan öz dövlətini oğulları arasında bölüşdürərək onların üzərinə müxtəlif vəzifələr qoymuşdu.




“Bir gün Oğuz xaqan böyük toy məclisi təşkil edir. Xalqı yığıb qonaqlıq verir, sonra da öz bəylərinə və camaata belə buyurur:

| | |
|---|---|
| *“Ben sizlere oldum Kağan!* | (“Mən sizlərə oldum Xaqan! |
| *Alalım yay ile kalkan.* | Götürək yay ilə qalxan. |
| *Nişan olsun bize buyan,* | Hədəfimiz rifah olsun, şənlik olsun, |
| *Bozkurt olsun bize uran,* | Bozqurd döyüşə çağırışımız, |
| *Demir kargı olsun orman,* | Dəmir mizraq meşəmiz olsun, |
| *Av yerinde yürüsün kulan,* | Ov yerində qulan gəzsin, |
| *Daha deniz, daha müren,* | Dəniz olsun, gur çay olsun, |
| *Güneş bayrak, gök kurıkan”.* | Günəş bayraq, göy alaçıq olsun”.) |

Oğuz xaqan bu sözləri deyərək dünyanın dörd bir tərəfinə elçilər göndərib bütün hökmdarların ona tabe olmasını tələb edir. O öz fərmanlarında yazırdı: “Mən türklərin xaqanıyam, dünyanın dörd bir tərəfinə hakim olmalıyam. Sizlərin mənə tabe olmağınızı istəyirəm. Kim mənim əmrimə baş

əysə, hədiyyələrini qəbul edər, onu özümə dost sayaram. Kim mənə boyun əyməzsə, üzərinə ordu göndərərəm, darmadağın, məhv edərəm...”

Oğuz xaqan böyük toy məclisi quraraq oğulları arasında vəzifə bölgüsü aparır: O, dövləti “Boz Oxlar” adlandırdığı böyük oğulları – Ayxan, Ulduzxan və Günxan arasında bölüşdürür. “Üç Oxlar” adlandırdığı kiçik oğulları – Göyxan, Dağxan və Dənizxana isə deyir: “Sizlər də “Boz Oxlar”ın himayəsi altında bəyliklər yaradın”. (Uyğunlaşdırılmışdır.)

***1. “Oğuz xaqan” dastanının əsasında türklərin müstəqillik və dünya hökmranlığı barədə təsəvvürlərini şərh edin.***

***2. Sizcə, hansı səbəbdən Oğuz xaqan dövləti öz oğulları arasında bölüşdürmüşdü?***

### *“Manas” dastanı*

“Manas” dastanı qırğız xalqının qəhrəmanlıq dastanıdır. Dastanda xalqın öz azadlığı, birliyi, xoşbəxt həyat uğrunda mübarizə aparmasının vacibliyi vurğulanır. Bu eposda təbii şəkildə qırğız şifahi ədəbiyyatının zənginliyi, onun müxtəlif janrları ifadə olunub. “Manas” dastanı “Manas”, “Semetey” və “Seytek” adlanan üç bölmədən ibarətdir. Bu bölmələrdə qırğız xalqının xarici düşmənlərə qarşı apardığı mübarizələrlə birlikdə, ölkə içərisindəki ziddiyyətlər, adət-ənənələr, gündəlik həyatın xüsusiyyətləri təsvir olunur. “Manas” dastanında qırğız xalqının yaşadığı müxtəlif tarixi hadisələr, qədim türk adət-ənənə məişət və inancları əks olunub. Dastanın baş qəhrəmanı Manas Batır öz xalqının azadlığı uğrunda yorulmadan mübarizə aparır. O, qəhrəmanlıq, şücaət, mərdlik və vətənsevərlik mücəssəməsidir. “Manas” dastanının 70-dən çox variantı yazılmışdır. Bu dastan dünyanın ən həcmli dastanı olaraq “Ginnesin rekordlar kitabı”na düşmüşdür. 2013-cü ildə “Manas” eposu UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil olunub.



*Şək. 7.6. İstanbuldakı Manas heykəli*

## 2. TÜRK XALQLARININ ORTAQ MƏNƏVİ DƏYƏRLƏRİ

Türk xalqlarını birləşdirən daha bir xüsusiyyət onların tarixi adət və ənənələrə bağlı olan milli bayramlarının ortaq olmasıdır. Bunlar "Novruz" bayramı, on iki heyvanla bağlı olan türk təqvimi, xalq rəqsləri, oyunlar və başqalarıdır.

### *Novruz bayramı*

Bu bayram Şərqi Türküstandan Balkanlara qədər bir çox bölgədə "Novruz", "Navruz", "Nevruz", "Növrüz", "Nauruz", "Nooruz" kimi adlarla məlumdur. Ən qədim bahar bayramlarından biri olan Novruz bayramı hər il martın 21-dən başlayaraq bir neçə gün keçirilir. Bu bayram Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Əfqanıstan, İran və Tacikistanla bərabər, Tatarıstan, Başqırdıstan, Çuvaşıstan və Şimali Qafqazda ənənəvi olaraq ilin başlanğıcı və baharın gəlişi kimi qeyd olunur. Novruz bayramı günlərində ləziz milli xörəklər bişirilir, qonaqlar qəbul edilir, ənənəvi oyunlar və yarışlar keçirilir.



*Şək. 7.7. Novruz. Bayram xonçası*




*Azərbaycan*



*Qazaxıstan*



*Özbəkistan*



*Qırğızıstan*



*Türkmənistan*




*Tatarıstan*

Mahmud Qaşqarlının "Divanü lüğat-it-türk" əsərində Novruz bayramı ilə bağlı şeir parçaları vardır. Aşağıda verilən dördmisralıq şeirdə təbiətin ilin əvvəlində oyanmasından bəhs olunur.

*Türlü çiçek saçıldı,*
*Güllü kilim yayıldı,*
*Alem cennetsi oldu,*
*Artıq dönmez soğuklar.*

Azərbaycan şairi Şəhriyarın "Heydərbabaya salam" şeirində Novruz bayramı belə təsvir olunub:

*Bayram yeli çardaxları yıxanda,*
*Novruzgülü, qar çiçəyi çıxanda,*
*Ağ buludlar köynəklərin sıxanda*
*Bizdən də bir yad eləyən sağ olsun,*
*Dərdlərimiz qoy dikəlsin, dağ olsun.*

Qazax şairi Mukaqali Makatayevin "Naurız duman" şeirindən bir parça:

*Novruz ayı gələndə*
*Şənlik olur burada.*
*Verilir bayram payı*
*Səfərçi oğlanlara*
*Novruz ayı gələndə.*

***1. Sizcə, niyə Novruz türk xalqları üçün böyük əhəmiyyət kəsb edir? Sinif yoldaşlarınızla müzakirə edin.***
***2. Yuxarıda verilmiş şeirlərin əsasında Novruzun bayram kimi qeyd edilməsinin səbəblərini müəyyən edin***



*Şək. 7.8. 12 heyvanla bağlı türk təqvimi*

***On iki heyvanla bağlı olan türk təqvimi***

Hunlar dövründən məlum olan bu təqvim Göytürk kitabələri və qədim uyğur sənədlərində qeyd olunmuşdur.

*"Kül tegin kon yılka yeti yegirmeke uçdı*
*Tokuzınç ay yeti otuzka yog ertürtümiz*
*Barkın bedizin bitig taşın biçin yılka yetinç ay yeti otuzka kop alkdımız".*

("Kül tigin qoyun ilinin on yeddinci günündə dünyasını dəyişdi. Doqquzuncu ayın iyirmi yeddinci günündə yas mərasimi keçirdik. Onun türbəsini, rəsmini, kitabə daşını meymun ilinin yeddinci ayının iyirmi yeddinci günündə tamamladıq").

*User H.Ş. "Göytürk və Ötükən Uyğur xaqanlığı kitabələri. Söz varlığı incələməsi". Konya, 2009, səh. 451–452*

***Mətnə əsasən təqvimin yaranmasının hansı tələbatlarla bağlı olmasını izah edin.***

Mahmud Qaşqarlının məşhur əsərində də öz əksini tapmış bu türk təqvimi Mərkəzi Asiya, Sibir, İdil-Ural və Qafqaz türklərində geniş yayılıb. Mahmud Qaşqarlının əsərində on iki heyvanla bağlı təqvimdən aşağıdakı kimi bəhs olunur:

*Türk xaqanlarından biri bir neçə il öncə baş vermiş müharibə ilə maraqlanır, lakin müharibənin olduğu ili yada sala bilmirlər və çaşıb qalırlar. Xaqan yığıncaq çağırıb deyir: "Biz bu tarix haqqında necə yanıldıqsa, bizdən sonra gələcək nəsillər də belə yanılacaqlar. İndi biz on iki ayı və on iki bürcü nəzərə alaraq on iki ilə ad verək ki, bu illərin dəyişməsi ilə tarix hesablansın və əbədi bir xatirə olsun". Xalq xaqanın bu təklifini qəbul edir.*

*Beləliklə, xaqan ova çıxır və əmr edir ki, vəhşi heyvanları böyük bir çay olan İli çayına tərəf qovsunlar. Camaat heyvanları çaya tərəf qovur. Bu heyvanların bir hissəsi suya atılır və onlardan on ikisi çayı keçir. Hər çayı keçən heyvanın adı bir ilə ad olaraq verilir. Heyvanlardan birincisi siçan olur. İlk olaraq suyu keçən heyvan olduğu üçün birinci il siçanın adı ilə bağlı olaraq "siçan ili" adlandırılır. Bundan sonra suyu keçən heyvanların adları ardıcıl olaraq növbəti illərə verilir:*

*Ud yılı (öküz və ya inək ili)*
*Pars yılı (pələng və ya bəbir ili)*
*Tavışgan yılı (dovşan ili)*
*Nek yılı (əjdaha və ya timsah ili)*
*Yılan yılı (ilan ili)*
*Yund yılı (at ili)*
*Koy yılı (qoyun ili)*
*Biçin yılı (meymun ili)*
*Takagu yılı (xoruz və ya toyuq ili)*
*İt yılı (it ili)*
*Tonquz yılı (qaban və ya donuz ili)*

*İl sayı qaban ilinə çatdıqdan sonra yenidən siçan ilindən başlayır.*

Qaşqarlı Mahmud. "Divanü lüğat-it-türk". Red. A.B.Ercilasun, Z.Ağqoyunlu, Ankara, TDK, 2014, səh. 149

***1. Bu mətndə söhbət hansı təqvimdən gedir? İzah edin.***
***2. Bu təqvimdə heyvan adlarından istifadə edilməsi səbəbini türklərin ictimai və iqtisadi həyatı baxımından qiymətləndirin.***

Aşağıda on iki heyvanla bağlı təqvim haqqında qazax nağılı verilmişdir:

**Təqvimdə birinci olmaq istəyən heyvanlar haqqında nağıl**

Qədim zamanlarda heyvanlar təqvimdə birinci olmaq üçün öz aralarında mübahisə etməyə başlayırlar.

At deyir:

– Mən uzaqları yaxın edə bilirəm. Mənim gücümdən faydalanır, südümdən içir, hətta tükümdən sap kimi istifadə edirlər. İnsanlara məndən çox xeyir verən heyvan yoxdur. Ona görə də təqvimdə birinci mən olmalıyam.

Dəvə deyir:

– Sən insanların işini görürsən, yediyin saman üçün onlara kölə olursan. Mən isə sənin daşıya bilmədiyin ağır yükləri daşıyır və aylarla uzaq məsafələrə gedə bilirəm. Ac olduqda arpa, buğda istəmirəm. Nə tapıramsa, onu yeyirəm. Su tapanda içirəm, tapmayanda səhrada onsuz keçinirəm. Təqvimdə birinci olmağa mən layiqəm.

İnək (və ya öküz) deyir:

– İnsan tarlada əkin əkirsə, məndən istifadə edir, südümü içir və ondan yağ düzəldir. Ona görə də təqvimdə birinci mən olmalıyam.

Qoyun deyir:

– Əgər mən olmasaydım, qazaxlar öz alaçıqlarını nə ilə örtərdilər? Onlar mənim yunumdan keçə düzəldir, paltar tikir, ip və sap əyirirlər. Məndən faydalısı yoxdur.

İt deyir:

– Mən olmasaydım, bir çoxunuz ya oğurlanar, ya da qurd-quşa yem olardınız. Mən hamınızın qoruqçunuzam, düşmən görəndə hürür, sahibimə xəbər verirəm.

Xoruz deyir:

– Mən olmasaydım, insanlar tezdən yuxudan dura bilməz, yatıb qalardılar. Mən onlara səhərin açılmasını bildirirəm. Axşam düşəndə isə yatmaq vaxtının gəldiyini xəbər verirəm.

Onları dinləyən siçan nə deyəcəyini bilmir. O, bir hiylə düşünüb deyir:

– Bu mübahisədən bir şey çıxmaz. Gəlin günəşin çıxmasını gözləyək, kim onu birinci görsə, qoy o da təqvimdə birinci olsun.

Hamı fikrə gedir. Dəvə öz hündür boyuna güvənərək fikirləşir: "Kim məndən tez görə bilər ki?!" Sonra siçanın sözlərini dəstəkləyir. Bir müddət keçəndən sonra siçan dəvənin belinə çıxıb onun hörgücündə oturur. Heyvanlar bir-biri ilə ilk kimin günəşi görə biləcəyi haqqında mübahisə edərkən hamıdan yüksəkdə oturan siçanı görəndə dərhal susurlar.

Beləliklə, günəşin çıxmasını birinci siçan görüb xəbər verir və təqvimdə birinci olur. Öz hündür boyuna arxalanan dəvənin isə ümidləri boşa çıxır.

*Qazax nağılları. II c., Almatı, 1962, səh. 190–191*

***Sizcə, bu nağılda nədən bəhs olunur? Sinifdə yoldaşlarınızla müzakirə edin.***

## *Xalq rəqsləri*

Türk xalqlarının yaşadığı hər bölgənin özünəməxsus musiqisi və rəqsləri var. Xalq rəqsləri sahəsində ortaq xüsusiyyətlər qorunmaqla bərabər, Qafqaz, Yaxın Şərq, Anadolu, Balkanlar, Krım, Mərkəzi Asiya, Volqa-Ural və Sibir kimi bölgələrin hər birinin özünəməxsus üslubu formalaşmışdır. Bölgəyə görə türk xalqlarının musiqi və rəqslərində həm oxşarlıq, həm də fərqliliklər var. Bununla belə, bir-biriləri ilə həmsərhəd olan bölgələrin mədəni dəyərləri tədricən bir-birinə keçərək vahid ənənələr zənciri yaratmışdır.

Türk xalqlarında xalq rəqslərinin çoxlu sayda növləri mövcuddur. Anadolu və Yaxın Şərqdə "Halay", Azərbaycanda "Yallı", özbəklərdə "Ləzgi", qazax və qırğızlarda "Qara corqa", Krım tatarlarında "Qaytarma" və s. rəqs növləri var. "Halay" və "Yallı", "Ləzgi" və "Qaytarma" rəqsləri arasında çox oxşarlıq var. Qərbi Anadoluda yayılmış "Zeybək" rəqsi isə bir çox cəhətdən Mərkəzi Asiya və Sibir xalq rəqslərinə oxşayır.

## *"Yallı" rəqsi*

Azərbaycan mədəniyyətində əhəmiyyətli yer tutan bu rəqs qədim mifologiya ilə bağlıdır. Qobustan qayalıqlarında bizim eradan əvvəlki dövrlərə aid olan təsvirlər vardır. Bu qayaüstü rəsmlərdə çoxlu sayda insanların əl-ələ tutub rəqs etmələrini görmək olar.



*Şək. 7.9. "Yallı" rəqsi. Qobustan qayaları. Azərbaycan*

"Yallı" rəqsini ifa edənlər kainatın əbədi dövr etməsini, hərəkətliliyini, dinamizmini simvolizə edən mistik bir dairə boyunca sıx şəkildə düzülürlər. Rəqsin sonrakı hissələrində qaçışır və birdən-birə yerə uzanırlar. Bu hərəkətlərin hamısının ayrıca mənası vardır.

Bu xalq rəqsinin Cənubi Qafqaz türkləri, Anadolu və Yaxın Şərq türklərinin rəqslərinə oxşarlığı vardır.



*Şək. 7.10. "Naz eləmə" rəqsi. Azərbaycan*



*Şək. 7.11. "Zeybək" rəqsi (İzmir, Türkiyə)*



*Şək. 7.12. Azərbaycan xalq rəqsi "Yallı"*



*Şək. 7.15. Krım tatarlarının xalq rəqsi*



*Şək. 7.13. Özbək xalq rəqsi (Xarəzm)*



*Şək. 7.16. Qırğız xalq rəqsi*



*Şək. 7.14. Qazax xalq rəqsi*



*Şək. 7.17. Türkmən xalq rəqsi*

## 3. TÜRK XALQLARININ ORTAQ MADDİ MƏDƏNİYYƏTİ

Qədim türklərdən bu günümüzə gəlib çatan evlər *(alaçıq, eb, otav, keçə ev)*, bunlarla bağlı ifadələr (ev alətləri üçün istifadə olunan ifadələr, simvolik fəxri kürsü – *tör*) və bəzək əşyalarının ortaq olduğu məlumdur.

Milli geyimlər və əl sənəti hər türk xalqında özünəxas xüsusiyyətlər daşıdığına baxmayaraq, onlar üçün istifadə olunan termin və ifadələrdə, forma, rəng seçimi, bəzək işləri, xalçatoxuma və naxışlarda ortaqlıq gözə çarpır.



*Şək. 7.18. Qazax çadırı (otağ)*

Bu ortaqlığı türk xalçaçılıq ənənələrində də görmək olur. Əksər türk xalqlarının xalçalarında həndəsi naxışlarla bərabər, həm də heyvan təsvirləri və ya buynuzları vardır.

Bundan başqa, toylarda, doğum və ölümlə bağlı mərasimlərdə tətbiq olunan adətlərdə çoxlu oxşarlıqlar müşahidə etmək olur. Məsələn, demək olar, əksər türk xalqlarında evlilik (nikah) mərasimi *toy* adlandırılır. Toylarda verilən yemək-içməklərdə, xalq oyunlarında və təbriklərdə bu oxşarlıq özünü aydın büruzə verir. Toylarda *vəkil ata*, *ökil ata*, *sağdış* adında təmsilçilərin olması, uşaq doğulduqda *beşik toyu* adı ilə tədbir keçirilməsi, sünnət toylarında uşağın dayısı tərəfindən *dayça* (at balası) hədiyyə edilməsi bunlara nümunədir. Elçilik adətlərində də oxşarlıq var.

Türk xalqlarının musiqi mədəniyyəti və xalq oyunlarında hər bir bölgənin özünəməxsusluğu fərqlilik kimi görünsə də, ortaq xüsusiyyətlər daha çoxdur. Bu xüsusilə bəzi çalğı alətlərinin eyni adla adlandırılmasında gözə çarpır. Məsələn, *dombra, qopuz* (kobuz), *çan-kobuz*, *sipsi* (sıbızğı), *davul* (tabıl), *zurna* (sürney), *boru* (burğu).

Sibir türkləri və başqırdlarda nəğmə sənətinin boğazlaoxuma adlı xüsusi növü mövcuddur. Belə oxuma tərzi əsasən epik dastanlarda istifadə olunur. Boğazlaoxuma Altay türklərində "kaay", xakaslarda "xaay", tıvalılarda "xoomey" və "karqıraa", yakutlarda "xabarqa ırıata", başqırdlarda isə "uzlən" adları ilə tanınır.



*Şək. 7.19. Qazax sırmağı (naxışlı keçə xalça)*



*Şək. 7.20. Qopuz*



*Şək.7.21. Dombra*

## 4. TÜRK XALQLARININ ORTAQ MİLLİ OYUNLARI

Milli oyunlar və idman növlərində də ortaqlıq müşahidə olunur. Məsələn, türklərin əsas idman oyunu olan güləş *(kureş, küres, güreş)* Mərkəzi Asiya, Volqa-Ural, Qafqaz, Anadolu və Balkan türkləri arasında geniş yayılmışdır. Bu idman oyunu toylarda, bayram və şənliklərdə həyata keçirilir.

Azərbaycan türklərində *çövkən (çovqan)*, qırğızlarda *kökbörü*, qazaxlarda *kökpar*, özbəklərdə *kökpari* və ya *oğlak*, türkmənlərdə *oğlakkapdı* adları ilə tanınan atüstü idman növü türk xalqlarının sevimli oyunudur. Atüstü oyunun çoxlu sayda növlərinə Anadolu və Qafqazda da rast gəlinir. Bununla bərabər, *payqa* və ya *bayqa (bayge)* kimi tanınan ənənəvi at yarışları da məşhurdur.



*Şək. 7.22. Azərbaycan milli oyunu "Çövkən"*

*Çövkən* adı ilə bilinən atüstü oyun komanda oyunu olub, müasir polo oyununun bir növüdür. "Qarabağ atı ilə oynanılan çövkən oyunu" 2013-cü ildə UNESCO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ Siyahısına daxil edilmişdir.

Bununla bərabər, uşaq oyunları və oyuncaqlarında da çox oxşarlıq vardır. Oyunlar üçün istifadə olunan ifadələr (*dokuz kumalak / doqquz daş, ak terek, ak süyek / ak çölmök, kurçak/ koqurçaq, asık /aşıq)* və oyun qaydalarındakı oxşarlıq ortaq köklərin olduğunu sübut edir.



*Şək. 7.23. "Doqquz daş" oyununun qədim və yeni taxtaları*



*Şək. 7.24. "Aşıq-aşıq" oyunu*

## *Güləş*

Güləşçi (*güreşçi*, *pəhlivan*, *paluan* və s.) adı qazanmış insanlar türk mədəniyyətində mühüm yer tuturlar. Bəzi dastanlarda əsərin qəhrəmanı evlənmək istədiyi qıza görə öz rəqibləri ilə güləşərək onlara qalib gəlmək istəyir. Cəsur igidlər altı yaşından güləşir və böyüdükdə güclü bir güləşçi olurlar. “Manas” dastanının qəhrəmanı Koşay xan dünyanın ən bacarıqlı güləşçisi kimi ad qazanır. “Alpamış” dastanında isə baş qəhrəman Alpamış doxsan kalmık güləşçisinə qalib gələrək şöhrət qazanır.

Mərkəzi Asiyada güləş ənənəsi toyların sayəsində yayılmışdı. Toylarda güləş yarışları keçirilir, güləşçilər böyük mükafatlar alırdılar. Bu da həmin ənənənin qorunub saxlanmasına səbəb olmuşdu.



*Şək. 7.25. Güləş*



*Şək.7.26. "Yağlı güləş". Qırxpınar*

Bu gün türk xalqları yaşadıqları Anadoludan Sibirə qədər uzanan geniş məkanda güləşi, bir qayda olaraq, ənənəvi bayramlarda (*Novruz, Sabantoy* və s.) və xüsusi əhəmiyyətli günlərdə keçirirlər. Hər il iyun ayında Türkiyədə keçirilən "Qırxpınar yağlı güləşləri", Tatarıstan, Başqırdıstan və Çuvaşıstanda yayın əvvəlində ənənəvi *Sabantoy* bayramında keçirilən "Köreş/Köreşü" yarışları buna nümunə ola bilər. Özbəkistanın təşəbbüsü ilə hər il dünyanın müxtəlif ölkələrində həyata keçirilən beynəlxalq "Özbek kureşi" yarışları, Qazaxıstan tərəfindən təşkil olunan beynəlxalq "Kazak küresi" yarışları və Qırğızıstanda keçirilən "Köçmön oyundarı" (Köçəri oyunları) kimi əcdadlarımızdan bizə irs qalan bu idman növünün türk xalqları üçün nə dərəcədə dəyərli olduğunun əyani sübutudur.

### *Kökbörü*

"Kökbörü" oyunu Mərkəzi Asiya xalq mədəniyyətində, xüsusilə türk xalqlarında at yarışı növlərindən biridir. Bu oyun iki komanda arasında *oğlağın* (keçi balası) at belində müəyyən məsafəyə qədər aparılması şəklində keçirilir. Oğlağı aparan atlı



*Şək. 7.27. Kökbörü oyunu*

ilə bərabər, digər oyunçular da oğlağı onun əlindən almaq üçün yarışırlar. Bu oyunu ən çevik və atını yaxşı idarə edən komanda qazanır.

Orta Asiya türklərində "Kökbörü" oyunu "kökbörü" – "bozqurd" ifadəsi ilə bağlıdır.

## DƏYƏRLƏNDİRMƏ ÜÇÜN SUALLAR

1. "Oğuz xaqan" dastanında dövlət necə təsvir olunur?
2. Dədə Qorqud haqqında hekayələrin türk mədəniyyəti baxımından əhəmiyyəti nədir?
3. Türklərdə hansı ənənəvi idman növləri mövcuddur?
4. Novruz bayramının Türk dünyasında keçirilməsi haqqında məlumat verin.
5. On iki heyvanla bağlı təqvimin qədim türklərin sosial və iqtisadi həyatı ilə bağlılığını müzakirə edin.

# LÜĞƏT

## - A -

**Abbasilər** – Əməvi sülaləsindən sonra hakimiyyətə gələrək xəlifəliyi beş əsrdən artıq (750–1258) əlində saxlayan sülalə olmuşdur.

**Altaylar** – türk xalqlarından biridir. Çox hissəsi Rusiya Federasiyasındakı Altay Respublikasında və Altay diyarında, bir hissəsi Tuva və Monqolustanda yaşayır.

**Altay dağları** – Orta Asiyada, Qazaxıstan, Rusiya (Sibir), Monqolustan və Çinin sərhədlərində yerləşən sıra dağlardır. Uzunluğu qərbdən şərqə doğru 2000 km-dir.

**Altay dil ailəsi** – türk, monqol, tunquz-mançu, yapon, Koreya dil qruplarından ibarətdir. Bu dillər Avropadan Yaxın Şərqə və Mərkəzi Asiyadan Uzaq Şərqə qədər uzanan ərazidə danışılan dilləri əhatə edən bir dil ailəsidir.

**Amudərya** – tarixi adları "Amu" və "Ceyhun"dur. Pamir dağlarından başlayır, Tacikistan, Özbəkistan və Əfqanıstanın şimal-şərq sərhədlərindən keçdikdən sonra Türkmənistan və Özbəkistandan keçərək Aral gölünə tökülür.

**Anadolu** – digər adı "Kiçik Asiya"dır. Asiya qitəsinin qərbində, Qara dəniz, Aralıq dənizi, Egey dənizi arasında yerləşən yarımadadır. Türkiyənin Asiya qitəsində qalan ərazisini təşkil edir.

**Aral gölü** – Qazaxıstan–Özbəkistan (Qaraqalpaqıstan) sərhədləri içərisində olan Mərkəzi Asiyadakı ən böyük göldür.

**Atabəy** – Səlcuqlu dövlətində şahzadələri öyrədib yetişdirən dövlət adamları olmuşdur. İlk dəfə Səlcuqlularda istifadə olunmuş, ancaq əvvəlki türk-müsəlman dövlətlərində də bu vəzifəni daşıyanlar olmuşdur.

**Atabəylər sülaləsi** – digər adı Eldənizlərdir. 1136–1225-ci illər arasında Şimali və Cənubi Azərbaycanda hökm sürmüşdür. Dövlətin paytaxtı əvvəlcə Naxçıvan, sonra Təbriz olmuşdur.

**Avesta** – zərdüştiliyin müqəddəs kitabıdır. İyirmi bir kitabdan ibarət olsa da, Böyük İsgəndərin işğalından sonra yox olan kitablardan yalnız Yasna, Visparad və Vendidad qalmışdır.

**Avrasiya** – Avropa ilə Asiyanı əhatə edən coğrafi bölgəyə verilən addır. Avropa və Asiya sözlərinin birləşməsidir.

**Azov dənizi** – Qara dənizin şimal-şərqində yerləşir. Kerç boğazı ilə Qara dənizə bağlanan, Rusiya ilə Ukrayna arasındakı daxili dənizdir.

## - B -

**Balxaş gölü** – Qazaxıstanın mərkəzi hissəsində yerləşir. Gölün mənbələri İli, Karatal, Lepsi, Ağsu və Ayaköz çaylarıdır.

**Baktriya** – digər adı Toharıstandır. Hindiquş dağları və Amudərya çayı arasında yerləşən, mərkəzi Bəlx şəhəri (Şimali Əfqanıstan) olan tarixi bölgədir. Cənubi Özbəkistan, Cənubi Tacikistan və Şimali Əfqanıstanı əhatə etmişdir.

**Bəsrə körfəzi** – "Fars körfəzi" də adlanır. Ərəbistan yarımadası ilə İranın cənub-qərbi arasında qalan, Hind okeanına bağlı olan körfəzdir.

**Baykal gölü** – dünyanın ən dərin gölüdür. Qədim türkcədə "Bayköl" kimi qeyd edilir. Sibirin şərqində, Rusiya Federasiyasına aid olan İrkutsk vilayəti və Buryatiya arasında yerləşir.

**Bizans** – digər adı Şərqi Roma imperiyasıdır. Kiçik Asiya və onun ətraflarında hökm sürmüşdür. Bizansın yaranması Roma imperiyasının iki hissəyə bölünməsi ilə bağlıdır.

**Buddizm** – bu gün təxminən 500 milyondan çox üzvü olan bir dindir. Əvvəlcə Hindistanda meydana gəlmiş, sonralar tədricən Cənub-Şərqi və Şərqi Asiyada (Çin, Yaponiya, Koreya, Monqolustan, Nepal, Şri-Lanka, Tailand, Tibet) yayılmışdır.

**Böyük Bulqar xaqanlığı** – Bizans mənbələrinə görə, “Onoquriya” adlanır. Göytürklərin dağılması və avarların zəifləməsi nəticəsində müstəqillik əldə etmişdir. Bulqarlar türk tayfalarının birləşməsi ilə 630-cu ildə meydana çıxmışdır. Kubrat xan tərəfindən qurulan dövlət onun ölümü və Xəzərlərin hücumu nəticəsində dağılmışdır.

**- C -**

**Cəlairilər** – 1340-cı illərdə bugünkü İraq və İran torpaqlarında Böyük Həsən tərəfindən qurulmuş dövlətdir. Böyük Həsən əvvəlcə Elxanilər dövlətində mühüm mövqeyə sahib olan türk-monqol Cəlairi tayfasının başçısı olmuşdur.

**Cunqariya** – Mərkəzi Asiyada şimalda Altay ilə cənubda Tanrı dağlarının şərq kəsimi arasında yerləşən quraqlıq bölgədir. Çindəki Sincan-Uyğur Muxtar Rayonunun (Şərqi Türküstan) şimal yarısını əhatə edir.

**- Ç -**

**Çu çayı** – Mərkəzi Asiyada şimalda Qırğızıstan və cənubda Qazaxıstandan keçən, uzunluğu 1300 km olan bir çaydır.

**- D -**

**Dəşti-Qıpçaq** – farsca “Qıpçaq çölü” mənasını daşıyır. Dnestr və şərqdə İrtış çayları arasındakı çöl zonasının tarixi adıdır.

**Dəclə çayı** – Türkiyədən başlayıb, İraq ərazisindən keçərək orada Fərat çayı ilə birləşir və Şəttül-ərəbdə Bəsrə körfəzinə tökülür.

**Don çayı** – Rusiya Federasiyasının başlıca çaylarından biridir. Orta dövr türkcəsində adı “Tın”dır. Moskvanın cənub-şərqindən başlayaraq Azov dənizinə tökülür.

**Dunay çayı** – Mənbəyi Almaniyadan başlayır, Mərkəzi, Şərqi və Cənubi Avropanın bir sıra ölkələrinin (Macarıstan, Slovakiya, Rumıniya, Bolqarıstan və s.) ərazisindən keçərək Qara dənizə tökülür.

**Dunhuanq** – Çinin Qansu əyalətində yerləşən tarixi bölgədir.

**- E -**

**Elbistan** – Türkiyədə Qəhrəmanmaraş vilayətinin tərkibində olan ən böyük bölgədir. Aralıq dənizi, Mərkəzi və Şərqi Anadolu bölgələrinin kəsişdiyi nöqtədə yerləşir.

**- Ə -**

**Əfqanıstan** – Mərkəzi Asiyanın cənubunda yerləşir. Cənub-şərqdə Pakistan, qərbdə İran, şimalda Türkmənistan, Özbəkistan və Tacikistan, şərqdə kiçik bir sahə ilə Çinlə həmsərhəddir.

**Əhəməni sülaləsi** – qədim fars dövlətidir. Sülalə e.ə. 550–330-cu illərdə Asiyanın qərb hissəsində hökm sürmüşdür.

**Əməvilər** – dörd xəlifə dövründən (632–661) sonra müsəlman ərəb dövlətinə

hakim olan sülalə olmuşdur. Abbasilər tərəfindən dağılana qədər 661–750-ci illər arasında hökm sürmüşdür.

**Ərdəbil** – Cənubi Azərbaycanda yerləşən Ərdəbil əyalətinin inzibati mərkəzi olmuş şəhər, müasir İranda əyalət mərkəzidir.

**Ərəblər** – Yaxın Şərqin ən çox saylı (400 milyona yaxın) əhalisidir. Aralıq dənizinin cənub-şərqi, Şimali Afrika, Böyük səhra və Sudan, İraq və Ərəbistan yarımadasını əhatə edən geniş bir ərazidə yaşayırlar.

**Ərəbistan yarımadası** – Asiyanın cənub-qərbi və Afrikanın şimal-şərqində yerləşən yarımadadır.

**- F -**

**Fəqih** – islam hüququ ilə məşğul olan adamdır.

**Fərat çayı** – Türkiyə, Suriya və İraq torpaqlarından keçərək Dəclə çayı ilə birləşib Şəttülərəbi əmələ gətirir və Bəsrə körfəzinə tökülür.

**- G -**

**Gürqan** – digər adı "Cürcan"dır. İranın şimal-şərqində, Xəzər dənizinin cənub-şərqində yerləşən indiki Gülüstan əyalətindəki tarixi bölgədir.

**- H -**

**Hind çayı** – Çindəki Tibet platformasından başlayaraq, qərbə doğru Şərqi Hindistanı keçib Pakistana çatır və Ərəbistan (Oman) dənizinə tökülür.

**Hindiquş dağları** – Asiyada Əfqanıstanın mərkəzi ilə Pakistanın şimalı boyunca uzanan 800 km-lik dağ silsiləsidir.

**- X -**

**Xaqan** – türk və monqol dövlətlərində hökmdarların ən yüksək tituludur. Juan-juanlar (avarlar) dövründən bəri türk dövlət mədəniyyətində geniş istifadə olunmuş termindir.

**Xaqanlıq** – geniş torpaqları əhatə edən və bir çox cəmiyyətləri idarə edən siyasi birlik olmuşdur.

**Xan sülaləsi** – Çində e.ə. 206 – b.e. 220-ci illəri arasında hökm sürmüşdür. Çin mədəniyyətinin zirvədə olduğu dövrlərdən biri olaraq qəbul edilir. Bu gün sülalənin şərəfinə olaraq çinlilər özlərini "Xan-zu" (Xan insanı) adlandırırlar.

**Xanqay dağları** – Orxon abidələrində "Kadırkan" adlandırılan və Monqolustanın mərkəzi hissəsində yerləşən dağ silsiləsidir.

**Xarəzm** – Amudərya çayının aşağı hövzəsində yerləşən tarixi bölgədir. Bu gün böyük bir hissəsi Özbəkistanda, bir hissəsi isə Türkmənistan sərhədlərində yer alır.

**Xəzərlər** – 630–965-ci illərdə İdil (Volqa) sahilləri və Krım yarımadası arasında imperiya quran bir türk tayfasıdır.

**Xəzər dənizi** – digər adı "Kaspi"dir. Qərbdə Azərbaycan və Rusiya, şimal-şərq və şərqdə Qazaxıstan, cənub-şərqdə Türkmənistan, cənubda İran torpaqları ilə əhatə olunur.

**Xorasan bölgəsi** – İranın şimal-şərq, Əfqanıstanın şimal-qərb və Türkmənistanın cənub hissələrini əhatə edən tarixi bölgədir.

**Xotan** – Çindəki Sincan-Uyğur Muxtar Rayonunun cənub-qərbində yerləşən tarixi bölgədir.

**- İ -**

**İdil** – indiki adı Volqadır. Uzunluğu təqribən 3500 km olan bu çay Moskva ilə

Sankt-Peterburq arasından başlayır və Xəzər dənizinə tökülür. Çayın hövzəsində Çuvaşıstan, Tatarıstan və Başqırdıstan kimi türk ölkələri yerləşir.

**İli çayı** – Mərkəzi Asiyada Qazaxıstanın cənub-şərqi və Sincan-Uyğur Muxtar Rayonunun qərb hissələrindən keçən bir çaydır.

**İpək yolu** – keçmişdə Çindən başlayaraq, Mərkəzi Asiyadan keçib Anadoluya (Kiçik Asiya) və Aralıq dənizi vasitəsilə Avropaya qədər uzanan tarixi ticarət yoludur.

**İrtış çayı** – Altay dağlarından başlayaraq, Sincan-Uyğur Muxtar Rayonu içərisindən şimal-şərqə doğru axıb, Zaysan gölü vasitəsilə Qazaxıstan və Qərbi Sibirdən keçir.

**- K -**

**Karpat dağları** – Şərqi Avropadakı sıra dağlardan biridir. Çex Respublikası, Slovakiya, Polşa, Ukrayna və Rumıniya kimi beş ölkənin ərazisində yerləşir.

**Kuban çayı** – Rusiya Federasiyasında, Şımali Qafqazın şimal-qərbində yerləşir. Qafqaz dağlarında Elbrusdan başlayıb, Azov dənizinə tökülür.

**- Q -**

**Qandhara bölgəsi** – tarixi Şimali Hindistanda eramızdan əvvəlki dövrlərdən islama qədər insanların yaşadığı mədəniyyət bölgəsi olmuşdur. Ərazisi indiki Pakistanın şimal vilayətlərini əhatə edirdi.

**Qarluqlar** – qədim türk tayfalarından biridir. Uyğur və özbək dillərinin formalaşmasında mühüm rol oynamışdır.

**Qansu/Kansu** – Çinin bir əyalətidir. Şimal hissəsi Monqolustan, cənub hissəsi Çinqhay, Sicuan əyalətləri, şərq hissəsi Ninqxia muxtar bölgəsi, Şansi əyaləti və Mərkəzi Monqolustan muxtar bölgəsi, qərb hissəsi Sincan-Uyğur Muxtar Rayonu ilə əhatə olunmuşdur.

**Qaşqar** – Çində Sincan-Uyğur Muxtar Rayonunun qərbində yerləşən tarixi bir şəhərdir.

**Qıpçaqlar** – digər adı "Kumanlar"dır. Qədim türk qəbilələrindən biridir. Dilləri üç qolda inkişaf etmiş və daha sonra qıpçaq dillərinə mənbə olmuşdur.

**Qobi səhrası** – Mərkəzi Asiyadakı ən böyük çöldür. Monqolustanın cənubunu və Çinin şimal-qərbindəki bölgələri əhatə edir.

**Qumul** – Çin dilində adı "Hami"dir. Çində Sincan-Uyğur Muxtar Rayonunun şərqində İpək yolunun şimal-şərq marşrutunda yerləşən tarixi şəhərdir.

**- M -**

**Maniheizm (manilik)** – III əsrdə Sasani imperiyasının ərazisində Mani tərəfindən qurulmuş və qısa müddətdə sürətlə yayılmışdır. Mani dini ən parlaq dövrünü VIII əsrdə Uyğur xaqanlığının rəsmi dini olaraq elan edilməsi zamanı yaşamışdır.

**Mavəraünnəhr** – Mərkəzi Asiyada, Ceyhun (Amudərya) və Seyhun (Sırdərya) çayları arasında yerləşən tarixi bölgədir. İndi bu bölgə Qazaxıstan, Özbəkistan və Türkmənistan arasında bölünmüşdür. İslam mədəniyyətinin inkişaf etdiyi bu bölgədə Səmərqənd və Buxara şəhərləri mühüm mədəniyyət mərkəzləri olmuşdur.

**Mesopotamiya** – Yaxın Şərqdə, Dəclə və Fərat çayları arasında yerləşən tarixi bölgədir. Mesopotamiya bugünkü İraq, Suriyanın şimal-şərqi, Cənub-Şərqi Anadolu və İranın cənub-qərb torpaqlarını əhatə edirdi.

**Mərkəzi Asiya** – dar mənada beş ölkə: Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan nəzərdə tutulur. Geniş mənada isə adıçəkilən beş dövlətdən əlavə, Əfqanıstan, Pakistanın şimalı, Çinin qərbi (Şərqi Türküstan və Tibet), Monqolustan və Rusiyanın bir hissəsi ilə İranın şimal-qərbi də (Xorasan) nəzərdə tutulur.

**Monqolustan** – Şərqi və Mərkəzi Asiyada yerləşən ölkədir. Ölkə şimalda Sibir (Rusiya), cənub, şərq və qərbdə Çin ilə həmsərhəddir. Burada keçmişdə Böyük Hun imperiyası, Juan-juan (Avar), Göytürk, Uyğur, Qırğız və Qarakitay dövlətləri hökm sürmüşdür. Çingiz xanın başçılığı ilə 1206-cı ildə ilk Böyük Monqol dövlətinin qurulduğu bir bölgədir.

**Moğolustan xanlığı** – Cığatay dövlətindən sonra XIV əsrin ortalarında Yeddisu və Tanrı dağın şərq bölgələrində yaşayan türk tayfalarından ibarət olan müstəqil bir dövlətdir.

**- O -**

**Oğuzlar** – "Oğuz xaqan" dastanına görə, 24 tayfadan və Qaşqarlı Mahmudun "Divanü lügat-it-türk" əsərinə görə, 22 tayfadan ibarət olan Mərkəzi Asiya mənşəli, sıx yerləşmiş türk qəbiləsidir. Bu gün türk cəmiyyətlərinin əhalisinin çoxu Oğuz türkləridir.

**Onon çayı** – Sibir (Rusiya) ilə Şimal-Şərqi Monqolustan arasındakı 818 km uzunluğunda bir çaydır.

**Ordos** – Şimali Çində Mərkəzi Monqolustan muxtar bölgəsinin cənub hissəsindəki bölgədir. Xuanxe çayının şimal döngəsi içərisindəki sahəni əhatə edir.

**Orxon vadisi** – Mərkəzi Monqolustandakı Orxon çayının vadisidir. Orxon çayı Baykal gölünə qədər uzanan Selengi çayına axır.

**- Ö -**

**Ötükən** – türk və monqol tarixlərində müqəddəs yerdir. Orxon çayı öz mənbələrini bu bölgədən alır. Göytürk xaqanlığının da paytaxtı bu bölgədə qurulmuşdur.

**- P -**

**Parfiya imperiyası, Parfiya** – İranın şimal-şərqində yerləşən tarixi dövlət dir (e.ə. III əsr – b.e. III əsri). İmperiyası bugünkü İran, Azərbaycan, Ermənistan, İraq, Gürcüstan, Türkmənistan, Əfqanıstan, ərəb ölkələri və Bəsrə körfəzini əhatə edirdi.

**- S -**

**Sasani imperiyası** – II Fars imperiyasının adıdır (226–651). Sərhədləri bugünkü İran, Azərbaycan, İraq, Ermənistan, tarixi Şimali Hindistan, Türkiyənin şərq bölgəsi, Suriyanın bir hissəsi, Qafqaz, Mərkəzi Asiyanın cənub-qərb hissəsi və bütöv Ərəbistanı əhatə edirdi.

**Sayan dağları** – Göytürk xaqanlığı dövründəki adı "Kögmen"dir. Monqolustanın şimal-qərbində, Sibirin cənubunda yerləşən dağ silsiləsidir.

**Sibir** – Rusiya Federasiyasında yerləşən dağlıq və meşəlik bölgədir. Şimalında Şimal Buzlu okeanı, şərqində Sakit okean, cənubunda Qazaxıstan, Monqolustan, Mancuriya və qərbində Ural dağları yerləşir. Əsas olaraq üç bölgəyə ayrılır: Qərbi Sibir, Şərqi Sibir və Rusiyanın Uzaq Şərqi.

**Sırdərya** – tarixi adlarından biri "Seyhun"dur. Mərkəzi Asiyada bir çaydır. Tanrı dağlarından başlayır. Qırğızıstandakı Narın çayı ilə Qaşqadərya çayları Fərqanə vadisində birləşərək Sırdəryanı əmələ gətirir. Uzunluğu 2212 km olan çay Aral gölünə tökülür.

**Soqd** – digər adı “Soqdiana”dır. Mərkəzi Asiyada Zərəfşan çayı hövzəsindəki Pəncikənd (Tacikistan), Özbəkistandakı Səmərqənd, Buxara və Qaşqadərya çayı hövzəsindəki Keş (Şəhrisəbz) və Nahşep (Karşı) vilayətlərini əhatə edən tarixi bölgədir.

**Suy sülaləsi** – 581–618-ci illər arasında Çində hakim olmuşdur. Bu dövrdə Göytürklərlə müharibə vəziyyətində olan sülalə daxili üsyanların artmasından sonra dağılmışdır.

**- Ş -**

**Şad** – qədim türk xaqanlıqları dövründə istifadə olunan tituldur. Bu titul tiqinlərə, yəni şahzadələrə onları sərkərdə təyin edildikdə verilirdi.

**Şərqi Avropa** – Avropa qitəsinin şərq hissəsidir. Baltik dənizindən Adriatik dənizinə qədər uzanan bölgədə yerləşən ölkələri əhatə edir.

**Şimali Afrika** – Afrika qitəsinin şimalındakı bölgəyə verilən addır. Bu gün burada Mərakeş, Əlcəzair, Tunis, Liviya, Misir və Sudan dövlətləri yerləşir.

**Şimali Hindistan** – indiki Hindistanın şimalını, bugünkü Pakistan və Əfqanıstanın şərq hissələrini əhatə edən tarixi bölgədir.

**Şimali Qafqaz** – Avropa qitəsinin cənub-şərqində Asiya ilə sərhəd olan bir bölgədir. Rusiya Federasiyasının tərkibinə daxildir. Burada Rusiyaya aid olan yeddi muxtar respublika (Dağıstan, Çeçenistan, Kabarda-Balkar, Şimali Osetiya, Adıgey, İnquşetiya, Qaraçay-Çərkəz) ilə vilayət statusunda olan Krasnodar və Stavropol bölgələri yerləşir.

**Şimali Qara dəniz bölgəsi** – Qara dənizin şimal sahilindən, Cənubi Rusiyadakı Kuban çayı və Don düzənliklərindən Şimali Qafqaza qədər uzanan bölgədir.

**- T -**

**Talas çayı** – Qırğızıstanın Talas vilayətindən başlayıb, Qazaxıstanın Taraz şəhərindən keçir və Moyunkum qumlarına hopur.

**Tan sülaləsi** – Çində hökm sürmüş sülalədir (618–907). Bu dövrdə Çinin ərazisi genişlənmiş, fərqli irq, mədəniyyət və dinlərdən olan xalqlarla əlaqələr qurulmuşdur.

**Tanrı dağları** – Çin dilində adı “Tyan-Şan”, qədim türk dilində “Tengri tağ”dır. Mərkəzi Asiyadakı böyük sıra dağlardan biridir. Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Çinin Sincan-Uyğur Muxtar Rayonunun mərkəzi hissələrinə yayılır. Şimalda Cunqariya və Cənubi Qazaxıstan düzənlikləri, cənub-şərqdə Tarım hövzəsi, cənub-qərbdə Hisar və Alay sıra dağları ilə məhdudlaşır.

**Tarım çayı** – Çinin Sincan-Uyğur Muxtar Rayonunda 2030 km uzunluğunda bir çaydır.

**Tigin** – Qədim türk dövlətlərində hökmdarın oğulları tərəfindən istifadə olunan tituldur, “şahzadə” mənasını verir.

**Tenqriçilik** – tanrıçılıq. Türk və monqol xalqlarının ən qədim inancıdır. Tanrıya ibadət etməklə bərabər, animizm, totemizm, şamanizm bu inancın ana xətlərini təşkil edir.

**Tie-le** – digər adları “Tinq-linq”, “Çie-le”dir. Qədim türk qəbilələrinin ümumi adıdır. Əsasən, Cənubi Sibirdə Lena çayı boyunca, Baykal gölünün qərbində yaşayırdılar. Bizim eradan əvvəl III əsrdə qərbə doğru yayılmağa başlamışdılar.

**Toharıstan** – Qədim Baktriyanın orta dövrlərindəki adıdır. Bugünkü Cənubi Özbəkistan, Cənubi Tacikistan və Şimali Əfqanıstanı əhatə edən tarixi bölgədir.

**Transilvaniya** – digər adı "Erdel"dir. Bugünkü Rumıniyanın qərb və orta bölgələrinin tarixi adıdır.

**Turfan** – Şərqi Türküstanda tarixi bir bölgədir. Qərbdə Toksun vilayəti, şimal-qərbdə Urumçi şəhəri, şimalda Cimsar, şərqdə Pişan və cənubda Lobnor vilayəti ilə həmsərhəddir.

**Türküstan** – Qərbdə Xəzər dənizi və Aşağı Volqadan başlayaraq, şərqdə Monqolustandakı Altay dağlarına, cənubda Kopet, Hindiquş, Qaraqorum dağlarına, şimalda Qazax çöllərinə qədər uzanan Mərkəzi Asiyanın tarixi adıdır.

**- U -**

**Ural dağları** – bir hissəsi Rusiya Federasiyasındakı Başqırdıstan torpaqlarında olan, Qazaxıstan çöllərindən Şimal qütbünə qədər uzanan sıra dağlardır. Ural dağları Avropa və Asiyanı bir-birindən ayırır.

**Uzaq Şərq** – Asiyanın şərqindəki ölkələrə verilən addır. Bura Mancuriya (Şimal-Şərqi Çin), Koreya və Yaponiya ölkələri aiddir.

**- Y -**

**Yabqu** – başqa şəkildə "Cabgu". Qədim türk dövlətlərində hökmdar mənasında istifadə olunan tituldur. Qədim türk ənənəsinə görə, yabquluq sistemində baş idarəçi "yabqu" titulunu daşımış və mövqe baxımından xaqandan sonra gəlmişdir.

**Yabquluq** – daha çox müəyyən bir bölgə ilə məhdudlaşmış, çox vaxt özündən üstün siyasi birliyin, yəni bir xaqanlığın nəzarəti altında olmuşdur.

**Yaxın Şərq** – Hindistan və Aralıq dənizi arasındakı cənub-qərbi Asiya ölkələrinə verilən addır.

**Yeddisu bölgəsi** – Mərkəzi Asiyadakı tarixi ərazidir. Şimalında Balxaş gölü, şimal-şərqində Sasık gölü və Alagöl, şərqində Cunqariya Aladağları, cənub və cənub-qərbində isə Şimali Tanrı dağları yerləşir.

**Yüeçilər** – qədim etnos adıdır. Vətənləri Mərkəzi Asiyada Tanrı dağları ilə Qansu bölgəsi idi. Bizim eradan əvvəl III əsrdə Çinin Qansu əyalətində güclü bir dövlət qurmuşdular.

**- Z -**

**Zərdüştilik** – qədim dinlərdən biridir. Bu dinə mənsub olanlar tək Tanrının var olduğuna, odun, atəşin onları təmsil etdiyinə inanırlar, ona görə də oda sayğı göstərirlər. Təxminən 3500 il əvvəl Zərdüşt tərəfindən yaradılmış, Mərkəzi Asiyada yayılaraq islama qədər əsas din olmuşdur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Arat R.R. Kutadgu Bilig, I.Metin. – İstanbul: Milli Eğitim Basımevi, 1947.

2. Azərbaycan tarixi. 7 cilddə. – Bakı: “Elm”, 2007–2008.

3. Əfəndiyev O. Səvəfilər dövləti. – Bakı: “Şərq-Qərb”, 2007.

4. Babayar G. Kök Türk Kağanlığı Sikkeleri Katalogu – The Catalogue of coins of Turkic Qaghanate. – Ankara: TİKA, 2007.

5. Ögel B., İslamiyetten Önce Türk Kültür Tarihi. – Ankara: TTK Yayınları, 1984.

6. Bregel Y. An historical atlas of Central Asia. – Leiden – Boston: Brill, 2003.

7. Bünyadov Z. Atabəylər dövləti. – Bakı: “Şərq-Qərb”, 2007.

8. Çandarlıoğlu G. Sarı Uygurlar ve Kansu Bölgesi Kabileleri (9. – 11. Asırlar). – İstanbul, 2004.

9. Divanü Lügat-it Türk Tercümesi. Cilt I-IV. Çev. B.Atalay. – Ankara: TDK yayınları, 1985.

10. Golden P.B.Türk Halkları Tarihine Giriş. Çev. O.Karatay. – Ankara: KaraM, 2002.

11. Genç R.Karahanlı Devlet Teşkilatı. – Ankara: TTK, 2002

12. Gömeç S.Kök Türk Tarihi. – Ankara: TTK, 1997.

13. Herodotos, Herodot Tarihi, Çev. Azra Erhat. – İstanbul: Remzi Kitabevi 1983.

14. Hunkan S. Türk Hakanlığı (Karahanlılar). 2. Baskı. – İstanbul, 2007.

15. İbn Fadlan, Seyahatname, Çev. R. Şeşen. – İstanbul: Bedir Yayınevi, 1995.

16. İnalcık H. Osmanlı İmparatorluğu Klasik Çağ (1300-1600). – İstanbul: Yapı Kredi Yayınları, 2003.

17. Kafesoğlu İ. Türk Milli Kültürü. – İstanbul, 1983.

18. Karoly Czegledy, Bozkır Kavimlerinin Doğu’dan Batı’ya Göçleri, Özne Yayınları, Çev. Erdal Çoban. – İstanbul, 1998.

19. Memmed B.Z., Yusubov Y. Azerbaycan tarihi, I. (Yüksekokullar için ders kitabı). – Bakı: Azerbaycan Devlet Neşriyatı, 1994.

20. Muhammadjonov A. Özbekistan tarixi (IV asırdan XVI asır boşlarigacha kadar). 7. Sınıf. – Toskent: Sharq, 2013.

21. Okur Y. vd. Ortaöğretim. Tarih. 9. Sınıf. Milli Eğitim Bakanlığı. – Ankara: Saray Matbaacılık, 2013.

22. Okur Y. vd. Ortaöğretim. Tarih. 11. Sınıf. Milli Eğitim Bakanlığı. – Ankara: Saray Matbaacılık, 2013.

23. Ortaöğretim 9.Sınıf Tarih Ders Kitabı. – Biryay Yayınları.

24. Saray M. Osmanlı Devletiyle Türkistan Hanlıkları Arasında Siyasi Münasebetler. Ankara: TTK, 1996.

25. Taşağıl A. Gök Tengri’nin Çocukları. Ankara: Bilge Kültür Sanat yayınevi, 2013.

26. Tekin T. Orhon Yazıtları. Kül Tigin, Bilge Kağan, Tonyukuk. – İstanbul: Yıldız Yayınları, 2003 – 144 s.

27. Türkler. Cilt 1-3. İlk Çağ. Editor. Güzel H.S., Çiçek K., Koca S. – Ankara: Yeni Türkiye Yayınları, 2002.

28. Türkler. Cilt 4–6. İlk Çağ. Editor. Güzel H.S., Çiçek K., Koca S. – Ankara: Yeni Türkiye Yayınları, 2002.

29. Sims-Williams N. Bactrian Documents from Northern Afghanistan, I: Legal and Economic Documents. – Oxford University Press, 2000.

30. Sümer F. Oğuzlar (Türkmenler). Tarihleri – Boy Teşkilatı – Destanları. Ankara, 1967.

31. Togan Z.V. Umumi Türk Tarihine Giriş. 3. Baskı. – İstanbul, 1981.

32. Türk Dünyası El Kitabı, Ankara: TKAE Yay., C.:1-3, 1992.

33. User H.S. Kök Türk ve Ötüken Uygur Kağanlığı Yazıtları. Söz Varlığı İncelemesi. 1.Baskı. – Konya: Kömen Yayınları, 2009.

34. Абрамзон С.М. Кыргыз жана Кыргызтан тарыхы боюнча тандалма эмгектер. – Бишкек, 1999.

35. Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX – XIII вв. – Ашгабад: Ылым, 1969.

36. Аманжолов К., Рахметов К. Туркi халыктарынын тарихы. Алматы: Бiлiм, 1996.

37. Артамонов М.И. История хазар. – Ленинград: Изд-во Государственного Эрмитажа, 1962.

38. Ахинжанов С.М. Кыпчаки в истории средневекового Казахстана. – Алматы: Гылым, 1995.

39. Бартольд В.В. Двенадцать лекций по истории турецких народов Средней Азии // Сочинения. Т. II. Ч. 2 – Москва: Наука, 1964. – С. 19-194.

40. Барфилд Т. Дж. Опасная граница: кочевые империи и Китай (221 г. До н.э. – 1757 г. н. э.) / Пер. Д.В. Рхлядева, В.Б.Кузнецова: науч. ред. и пред. Д.В.Рхлядева. – Санкт-Петербург, 2009.

41. Бируни, Абу Рейхан. Памятники минувших поколений / Перевод с арабского и примечания М.А. Салье // Бируни. Избранные произведения. Т. 1. – Т., 1957.

42. Бичурин, Н. Я. (Иакинф). Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. В 3-х томах. – том I–III, – Москва – Ленинград: Изд. АН СССР. 1950.

43. Босворт К.Э. Мусулмон сулолалари. – Тошкент: Фан, 2007.

44. Буниятов З.М. Государство Хорезмшахов-Ануштегинидов (1097–1231). – Москва: Наука, 1986.

45. Владимирцов Б.Я. Общественный строй монголов. Монгольский кочевой феодализм / Работы по истории и этнографии монгольских народов Б.Я. Владимирцов. Сост. Г.И.Слесарчук. – Москва: Восточная литература, 2002.

46. Гафуров Б.Г. Таджики, древнейшая, древняя и средневековая история – Москва: Наука, 1972.

47. Гумилев Л.Н. Древние тюрки. – Москва: Наука, 1967.

48. Дадабоев Х., Хамидов З., Холманова З. Узбек адабий тили тарихи. – Тошкент: Фан, 2007.

49. Досымбаева А. Батыс Турiк каганаты казак даласынын мәдени мурасы. – Алматы, 2007.

50. Джуманалиев Т.Д. Очерки политической истории кочевников Притяньшаня с древности до конца XVII ВЕКА. – Бишкек, 2007.

51. Жолдасбаев С. Орта гасырлардагы Казакстан тарихи. 7-сынып. Алматы: Атамура, 2012.

52. Зиё А. Узбек давлатчилиги тарихи (Энг кадимги даврдан Россия босқинига кадар). – Тошкент: Шарк, 2001.

53. Зуев Ю. А. Ранние тюрки: очерки истории и идеологии. – Алматы: Дайк-пресс, 2002.

54. Исхадов Д.М. Тюрко-татарские государства XV–XVI вв. – Казань: Институт истории им. Ш.Марджани АН РТ, 2004.

55. Камолиддин Ш.С. О религиозной принадлежности предков Саманидов // Культурные ценности. 2004-2006. Центральная Азия в прошлом и настоящем. – Санкт-Петербург, 2008. С. 13-21.

56. Кляшторный С.Г., Султанов Т.И. Государство и народы Евразийских степей. Древность и средневековье. – Санкт-Петербург: Петербургское востоковедение, 2004.

57. Крадин Н.Н., Скрынникова Т.Д. Империя Чингис-хана. – Москва: Восточная литература, 2006.

58. Кумеков Б.Е. Гоосударство кимаков IX-XI вв. по арабским источникам. – Алма-Ата: Наука, 1972.

59. Кычанов Е.И. Кочевые государствы от гуннов до маньчжуров. – Москва: Восточная литература, 1997.

60. Кюнер Н.В. Китайские известия о народах Южной Сибири, Центральной Азии и Дальнего Востока. – Москва: Изд-во Вост. лит., 1961.

61. Казакстан тарихи (коне заманнан бугiнге дейiн). Бес томдык. – Алматы: Атамура, 2010.

62. Мухторов А., Санакулов У. Узбек адабий тили тарихи. – Тошкент: Укитувчи, 1995.

63. Рашид-ад-дин. Сборник летописей, Т. I., Кн. 1 / Пер. с персидского Л.А.Хетагурова. – Москва – Ленинград: Изд-во АН СССР, 1952.

64. Трепавлов В.В. Государственный строй Монгольской империи XIII в.: Проблема исторической преемственности. – Москва: Наука, 1993.

65. Ходжаев А. Из истории древних тюрков (сведения древнекитайских источников). – Ташкент: Тафаккур, 2010.

66. Чоротегин Т.К., Омурбеков Т.Н. История Кыргызстана (IX–XVIII вв.): Учеб. Для 7 кл. общеобразовательной сред. Шк. – Бишкек: “Инсанат”, 2012.

67. Шонийзов К.Ш. Канг давлати ва Канглилар – Тошкент: Фан, 1990.

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün*
***Ortaq türk tarixi** kursu üzrə*
*dərs vəsaiti*

**Müəlliflər:**

**Darxan Kıdırəli,**
*tarix elmləri doktoru, professor*

**Qaybulla Babayar,**
*tarix elmləri doktoru, dosent*

Tərcümə edən ***Elşadə Əzizova***

Bədii və texniki redaktor ***Abdulla Ələkbərov***
Dizayner ***Təhmasib Mehdiyev***
Səhifələyici ***Səbinə Məmmədova***
Korrektor ***Mətanət Kərimova***

**© Beynəlxalq Türk Akademiyası**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 9,3. Fiziki çap vərəqi 10,0.
Formatı 70x100 $^1/_{16}$. Kəsimdən sonrakı ölçüsü 165x240. Səhifə sayı 160.
Ofset kağızı. Məktəb qarnituru. Şriftin ölçüsü 10-12 pt. Ofset çapı.
Sifariş 165. Tiraj 16500. Pulsuz. Bakı–2023.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 18.07.2023**

Çap məhsulunu hazırlayan:
**“Aspoliqraf LTD” MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 151)

Çap məhsulunu istehsal edən:
**“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))

PULSUZ

